**Ruhulla Zahidov**

# Vətənpərvərliyin əsasları-Biz niyə vətənpərvər olmalıyıq?!.

## I Kitab

**Gəncə - 2025**

**Redaktor: İnqilab Şirinli, Teleaparıcı, AJB-nin və Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü**
**Korrektor: Nərmin Zahidova**

**Ruhulla Əsgər oğlu Zahidov, "Vətənpərvərliyin əsasları-Biz niyə vətənpərvər olmalıyıq?!. Gəncə, 2025, 204 səh.**

***Bu kitab vətənpərvərliyin mənəvi-siyasi prinsiplərinə, ictimai hisslərə, onun mahiyyətinə həsr olunmuşdur.***

***Kitabda qəhrəman və qəhrəmanlıq mövzusunda qələmə alınan publisistik yazılar yer almışdır.***

***Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**Gəncə 2025**

# Ön söz

Vətənpərvərlik mənəvi-siyasi prinsip, ictimai hissdir, onun mahiyyəti Vətənə məhəbbət və şəxsi mənafeyini onun mənafeyinə tabe etmək istəyidir.

Vətənpərvərlik anlayışı vətənə hörmətlə yanaşma ilə əlaqələndirilir, lakin vətənpərvərlik mahiyyəti insandan insana dəyişir. Bu səbəbdən bəziləri özünü vətənpərvər hesab edir, bəziləri isə yox.

Vətənpərvərlik ən sadə, ən aydın mənada insanlar üçün vətənə xidmət etməyə can atmaq və bu məqsədlərə çatmaq üçün bir vasitədir, məqsəddir, qəhrəmanlar üçün isə öz şirin canından belə imtina etməkdir. Harada vətənpərvərlik təbliğ olunursa, məhz bu təbliğ olunur. Vətənpərvərlik vətəni sevməkdir.

Vətənpərvərlik öz ölkəsinə dəstək olmaq deməkdir. Bütün işlərdə vətəninə xeyir vermək istəyi vətənpərvərlikdir. Yalnız vətənpərvərlər öz ölkəsinin maraqlarına təmənnasız xidmət edirlər. Vətənpərvərlik ideologiyası həmvətənləri arasında ayrıseçkilik etməyi, onları bir-birindən ayırmağı sevmir. Bütün insanların müstəsna hüquqlarını tanıyır, bir ölkənin sakinlərini, məsələn, “yerli” və “yerli olmayanlara” bölmür.

20-ci əsrin bütün dərslərinə baxmayaraq, biz vətənpərvərlik və millətçilik arasında fərq qoymağı həqiqətən öyrənməmişik. Şər özünü yaxşılıq kimi gizlədir. Vətənpərvərlik hisslərin ən ülvisidir. Bu, hətta hiss deyil, həm fərdi, həm də sosial mənəvi mədəniyyətin ən mühüm aspektidir. Əsl vətənpərvərlər qarşısına ən ali, ən ülvi məqsədlər qoyur və bu məqsədlər uğrunda həyatını həsr edir. Millətçilik isə bəşəriyyətin bədbəxtliklərinin ən böyüyüdür. Bütün pisliklər kimi o da gizlənir, qaranlıqda yaşayır və ancaq vətən sevgisindən

doğulmuş kimi görünür. Əslində, bu, başqa xalqlara və öz millətinin millətçi baxışları bölüşməyən hissəsinə qarşı kin və nifrətdən doğur.

Vətənpərvərlik özünün ilk təzahürlərində vətəninə, yaşadığı kənd və ya şəhərinə məhəbbətdən doğur. Ancaq çox keçmədən o, uşağın əldə edə biləcəyi bütün tarixi və vətəndaş anlayışlarını əhatə edən daha dəqiq bir forma alır. Bu vətənpərvərlik müəyyən məqama qədər hər kəsə tam və hüdudsuz sədaqətlə seçilir - istər yaxşı, istər pis, fərq etməz. Bu laqeydliyin səbəbi uşağın yaxşı ilə pis arasındakı fərqi hələ tam başa düşməməsidir, çünki onun müqayisə üçün obyektləri azdır və ya heç yoxdur. ...Beləliklə, öz inkişafında dayanmayan insan öz xalqı və dövləti ideyasından yad xalqları öyrənməklə, ümumən xalq və dövlət ideyasına yüksəlir və nəhayət, mücərrəd bəşəriyyət ideyasını dərk edir ki, ona görünən hər bir insanda o, ilk növbədə bu inkişaf mərhələsində bəşəriyyətin əşrəfi olan insanı görür. İnsanda ancaq reallıqla, sağlam düşüncə ilə bir araya sığmayan uşaq fantaziyalarını oyandıran vətənpərvərlik mütləq itməlidir.

Ümumi, yəni xalqının tarixinin davam etdiyi daimi qanunlar haqqında anlayışa yiyələnən, dünyagörüşünü bəşəriyyətin ümumi ehtiyac və tələblərini dərk etmək üçün genişləndirərək, savadlı insan öz nəzəri baxışlarını və əqidələrini əməli fəaliyyət sferasına köçürmək üçün əvəzsiz bir istək hiss edir. Ancaq birdən insanın fəaliyyəti, eləcə də onun səlahiyyətləri və istəkləri bütün dünyaya bərabər şəkildə yayıla bilməz və buna görə də o, özü üçün hansısa xüsusi, məhdud dairə seçməli və onun daxilində ümumi əqidəsini tətbiq etməlidir. Bu çevrə böyük ehtimalla, ən təbiidir, vətəndir. Biz onunla daha yaxından əlaqəli olmuşuq, onu daha yaxşı tanıyırıq və buna

görə də ona daha çox rəğbət bəsləyirik. Və bu rəğbət heç də başqa xalqlara sevgi və hörmət bahasına gəlmir; yox, biri ilə digərindən daha yaxından tanış olmağın sadə nəticəsidir. Qəzetlərdən aramla oxuyuruq ki, filan toqquşmada bu qədər insan həlak olub; lakin eyni xəbər bizdə güclü təəssürat yaradır, əgər biz ölülərdən bəzilərini tanıyırıqsa və ən yaxşı dostumuz ölülər arasındadırsa, bu bizi dərin kədərə qərq edə bilər. Biz onun üçün kədərlənirik, başqalarının ondan daha pis olduğunu və bizim kədərimizə layiq olmadığını heç düşünmədən. Əgər onlarla dostluq etsəydik, daha çox kədərlənərdik. Lakin tale bizi onlarla bir araya gətirməyib və başqalarının bütün ölülərinə yas tutmaq olmaz. Eyni şey vətənpərvərliyə də aiddir: biz vətənimizə daha çox rəğbət bəsləyirik, çünki biz onun ehtiyaclarını daha yaxşı bilirik, onun vəziyyətini daha yaxşı mühakimə edə bilirik, onunla ortaq maraq və istəklərin xatirələri ilə daha sıx bağlıyıq və nəhayət, başqa bir ölkədən daha çox ona faydalı olmaq qabiliyyətini hiss edirik. Beləliklə, ləyaqətli insanda vətənpərvərlik öz ölkəsinin rifahı üçün çalışmaq istəyindən başqa bir şey deyil və yaxşılıq etmək istəyindən başqa heç nədən irəli gəlmir.

Vətənpərvərlik yaşayır və yaşayacaq.

Müasir qloballaşma dövründə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi hər bir Azərbaycan vətəndaşı qarşısında böyük məsuliyyət yaradır. Milli vətənpərvərliyin məzmunu təkcə öz vətəninə məhəbbət hissi ilə məhdudlaşmayıb, milli ruhda tərbiyəni təşkil edir. Azərbaycan xalqı daim gənc nəslin vətənə sədaqət, xalqa hörmət, soykökünə, öz ata-babalarının adət-ənənələrinə bağlılıq ruhunda tərbiyə olunmasına xüsusi diqqət göstərib və göstərir. Gənclərlə aparılan vətənpərvərlik tərbiyəsi işinin mühüm

istiqamətlərdən biri də ayrı-ayrı şəxsiyyətlərin, milli qəhrəmanların şəxsi nümunələrindən istifadədir. Böyük pedaqoqlar tərbiyədə şəxsi nümunənin rolunu hər zaman yüksək qiymətləndirmişlər.

Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar məktəblərimizdə və ali təhsil ocaqlarında tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, təhsil ocaqlarında təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hissləri aşılayır. Müəllimin vəzifəsi təkcə bilik verməklə məhdudlaşmır, bu, eləcə də vətənə layiqli şəxsiyyət yetişdirməkdir. Biz pedeaqoqlar bunu işimizdə həmişə nəzərə alır və gənc nəslin təlim-tərbiyəsində vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi yer ayırırıq.

**Məsim Abadov, Gəncə Dövlət Universitetinin İqtisadiyyat-İdarəetmə fakültəsinin dekanı, dosent.**

# Müəllifdən

Şücaət - igidlik, rəşadət, cəsarət, cəngavərlik, qoçaqlıq, bahadırlıq, mərdlik deməkdir. Şücaət göstərmək - hünər göstərmək, igidlik etməkdir.

Qəhrəmanlar necə yetişir?!. Onları qəhrəmanlıq, igidlik və əsgəri rəşadət göstərməyə həvəsləndirən hansı amillər və hisslərdir? Ümumiyyətlə insan anadan qəhrəmanmı doğulur? Suallar çoxdur. Hər sualın öz cavabı, hər qəhrəmanın da öz yetişmə mühiti, öz tarixçəsi, bu qəhrəmanlığı etməyə isə müxtəlif amil və səbəblər olur. Fikrimizcə, bütün bunları birləşdirən yeganə səbəb vardır. O, insanı bu nəcib, alicənab hərəkətə təhrik edən daxili səsdir. İnsana, əsl insana lazım olan yüksək iradə, qətiyyət, istəkdir. Qəhrəman hansı mühitdə yetişirsə, yetişsin, onu bu işə səsləyən daxili səs, mənəvi tələbat və istəkdir. Əks təqdirdə, torpaqlarımız uğrunda ölüm-dirim savaşına qalxmış bu igid oğullarımızın göstərdiyi əsgəri rəşadətin, qətiyyət və əzmin, qəhrəmanlığın mahiyyətini necə başa düşmək olardı?

Azərbaycan Ordusunun hələ tam təkmilləşmədiyi bir zamanda daxili səsinə qulaq asıb, könüllü olaraq yerli özünümüdafiə batalyonlarına yazılan, heç əsgəri paltarı belə olmayan bu igidlər düşmənə qarşı qanlı mübarizəyə qalxdılar. Səbəb - artıq bütün Qarabağı öz ağuşuna alan, demək olar ki, hər bir qapını döyən, hər bir ailənin göz yaşına səbəb olmuş erməni faşizmi idi. Azərbaycanlıları öz ata-baba torpaqlarından qovmaq, onları uşaqlı-böyüklü olaraq hamısını qırmaq istəyi ilə vəhşiliklər, qətliamlar törədən erməniləri damarlarındakı qana kimi özünə tabe edən erməni məsləki -faşizm!

Belə bir zamanda Azərbaycanın qeyrətli oğul və qızları düşmənlə ölüm-dirim savaşına qalxdılar. Bu, onların öz seçimi

idi. Onlar ölümü göz önünə alıb bu mübarizəyə qalxmışdılar. Nə qədər taleyi yarımçıq kəsilmiş, öz qanı ilə tarix yazan, Qarabağ uğrunda gedən döyüşlərdə şəhid qanı ilə torpağı sulayan adlı, adsız igidlər oldu bu illərdə.

Tariximizin bütün səhifələri müxtəlif şərait və məkanda baş vermiş qəhrəmanlıqlarla doludur. Bu, ibrət götürmək üçün şanlı səhifələrdir. İndiki nəsil onları tanımalı və onlardan ibrət götürməlidir. Əgər onlar bu müharibədən bəhs edən tərbiyəvi xarakterli, qəhrəmanlıq və rəşadət dolu əsərləri oxusalar və filmlərə baxsalar, bu onların vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində böyük rol oynayar.

Xalqımızın zorla cəlb olunduğu 3 müharibə- II Dünya müharibəsi, I-ci və II Qarabağ savaşının qəhrəmanları haqqında sosial şəbəkələrdə tez-tez yazılara rast gəlirik. Onlar haqqında milli mətbuat səhifələrində onlarla yazılar dərc olunub, artıq çoxlu sayda filmlər işıq üzü görüb. Biz də onlara hörmət əlaməti olaraq kitablar hazırlamaq qərarına gəldik. Bu kitablar ürəyi vətənlə bir döyünən qəhrəmanlar haqqındadır. İnanırıq ki, bu əməyimiz insanlar tərəfindən rəğbətlə qarşılanacaq, bu kitablar oxucuların rəğbətini qazanacaqdır. Qəhrəmanlardan yazılan bu kitabları gənc oxuculara ünvanlayaraq, onları məhz bu igid oğullara oxşamağa çağırırıq!

Kitabda qəhrəmanlarla bağlı apardığımız araşdırmalar, əldə etdiyimiz məlumatlar, bu yolda qarşımıza çıxan maneələrə həsr olunan çoxlu sayda yazılara yer ayrılmışdır. Bu yazılar biz yazarların necə bir çətin yolda olduğumuzu özündə əks etdirir. Bu maneələri yaradanlar kimdir, onların məqsədi nədir, biz bu çətinlikləri necə dəf edirik - müxtəlif janrlı bu yazılarla oxucuları heç olmasa bir yazarın mənəvi aləminə dəvət edirik.

Bu kitabı oxuyub ibrət götürən insanların olacağına inanırıq.

## İnformasiya müharibəsi nədir?

Azərbaycanın öz doğma torpaqlarını erməni işğalçılarından təmizlədiyi bir dövrdə İnformasiya müharibəsi termini də tez-tez səsləndirilməkdədir. Bəs bu müharibənin hərfi mənası nədir? O, özündə hansı mübarizə üsullarını daşıya bilər? Günümüzün reallığına əsasən bu mübarizə nə dərəcədə vacibdir? Və mətbuat bu informasiya müharibəsində hansı yeri tutur?

Suallara cavab axtarışına çıxaq. Beləliklə…

İnformasiya müharibəsi - informasiya sistemlərinin kənar hücumlardan müdafiəsi, eyni zamanda qarşı tərəf üzərində informasiya üstünlüyü əldə etmək məqsədi ilə həyata keçirilən informasiya əməliyyatıdır. Bu tip informasiya əməliyyatlarına qarşı tərəfə məxsus informasiyaya, informasiyaya əsaslanmış poseslərə və informasiya sistemlərinə zərər yetirməkdən ibarət fəaliyyət daxildir.

Günümüzdə düşmən üzərində üstünlük informasiyaların alınması, onlara operativ reaksiyanın verilməsi, real vaxt çərçivəsində düşmənin iqtisadi və müdafiə obyektlərinə atəş və informasiya zərbələrinin vurulmasi ilə əldə olunur.

Elm və texnikanın inkişaf etdiyi hazırkı dövrdə hərbi əməliyyatlar ərəfəsində vuruşan tərəflər bir- birinin silahlı qüvvələrinin şəxsi heyətinin, həmçinin əhalinin mənəvi-psixoloji ruhunu sarsıtmaq üçün müxtəlif vasitələrindən istifadəyə üstünlük verirlər. Bu təsir vasitələri arasında isə ən çox diqqət ayrılanı artıq bəzi inkişaf etmiş ölkələrin hərbi doktrinasında da öz əksini tapmış, informasiya təsirləridir. Məhz bu təsirləri qiymətləndirən bəzi dövlətlər özlərinin "informasiya müharibələri" strategiyalarını hazırlayıb, müxtəlif əməliyyatlarda onu sınaqdan çıxarıblar. Digər mübarizə

metodlarından fərqli olaraq, informasiya müharibələri daha geniş spektrdə aparılır və bunun həyata keçirilməsində müxtəlif vasitələrdən istifadə olunur.

Hərbi analitiklərin gəldiyi qənaətə görə, hazırkı dövrdə informasiya müharibələri daha çox vuruşan tərəflərin informasiya vasitələrindən və texnologiyalarından (yalan, şantaj, hədələmə, ideoloji diversiya) istifadə edərək qarşı dövlətin siyasətinə qarşı narazılıq, şübhə, inamsızlıq yaratması, ordu və əhali arasında münasibətləri pisləşdirməsi formalarında həyata keçirilir. Bununla yanaşı informasiya texnologiyalarının fiziki məhvi də vacib məqamlardan sayılır.Ekspertlərin fikrincə, informasiya tədricən təminedici üsuldan çıxaraq döyüş növünə çevrilir. olunacaq.

Onu da bildirək ki, mətbuat bu işdə önəmli rol oynamaqdadır. Belə ki, dünya arenasında aparıcı rol oynayan mətbu orqanları kimi yerlərdə fəaliyyət göstərən ən baxımsız internet kanalları, saytlar. qəzetlər belə bu işdə önəmli işlər apara bilər və aparır. Biz bunu II Qarabağ savaşı zamanı görmüşük və mətbuat işçisi olaraq bizlər də bu informasiya müharibəsində az işlər görməmişik. Sadə dillə desək, hazırladığımız hər bir yazı, kitablar bu istəyə xidmət etmişdir. Onu da bildirək ki, xarici düşmənlər kimi daxildə də düşmən təəssübü çəkən nadanlar vardır və bizim əməyimizin ən müsbət tərəfləri bizlərə illər ərzində olan hücumlara səbəb olmuşdur. Əlbəttə ki, bu bizim qarşımızı kəsə bilməmiş, bu mübarizədə daha da mətinləşmiş və təcrübə qazanmışıq. Nəticə-qəhrəmanlarımız haqqında yazılan onlarla yazılar, oxucularımız tərəfindən dəyərləndirilən kitablardır.Kitabda verilən tənqidi yazıların hamısını bu informasiya müharibəsinin tərkib hissəsi kimi saymaq olar.

# Təhsil ocaqlarında vətənpərvərlik hisslərinin aşılanması - Ən şərəfli və ülvi bir vəzifə

## Vətənpərvərlik nədir?

Xatırladaq ki, Vətənpərvərlik mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürür kimi də hallanır. Burada vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Vətənpərvərliyin tarixi kökü min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövçiliyin formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümumimilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir.

## Niyə vətənpərvər olmalıyıq?

Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələrin qoyulması təsadüfi deyil. Hərbi-vətənpərvərlik tərbiyəsi bir məqsədə - gəncləri vətənimizin fəal müdafiəsinə hazırlamaq məqsədinə xidmət etməlidir. Buna görə də Azərbaycan dövləti xalqını, onun gənc nəslini həmişə sayıq olmağa, vətənimizin hərbi qüdrətini hər vasitə ilə möhkəmləndirməyə, onun müdafiə bacarığını artırmağa çağırır. Orta məktəblərin təhsil sistemi çağırış yaşı hələ çatmamış gənclərə ibtidai hərbi hazırlıq keçilməsini, onların fiziki cəhətdən möhkəmliyini təmin etməyi, onları orduda xidmətə hazırlamağı tələb edir. Bu cəhətdən də indiki şəraitdə çağırışa qədərki məktəbli gənclərin

hərbi-vətənpərvərlik tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Bu məqsədə nail olmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa, məhəbbət tərbiyə etməli, onlarda vətən qarşısında şərəf və borc hissini qüvvətləndirməlidir. Son dövrlər qabaqcıl məktəblərimizdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət xeyli artırılıb. Hərbi-vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vasitələr əsasında aparılması tərbiyə işinin bu mühüm sahəsi üzrə maraqlı forma və üsullar meydana çıxarıb. Bir çox məktəblərdə "Döyüş şöhrəti" muzeyləri, guşələr yaradılır, məktəblərdə fəaliyyət göstərən dərnəklərdə Qarabağ müharibəsində iştirak etmiş qəhrəmanların xatirələrini əbədiləşdirmək üçün geniş işlər aparılır. Məktəblərlə hərbi hissələr arasında əlaqələrin yaradılması təmin edilir. Bu sahədə məktəblərimizdə toplanmış qabaqcıl təcrübə hərbi-vətənpərvərlik tərbiyəsini daha məzmunlu və məqsədəuyğun şəkildə aparmağa imkan verir. Pedaqoji kollektiv hərbi-vətənpərvərlik tərbiyəsinin bu forma və üsullarından istifadə etməklə ona nail olmağa çalışır ki, şagirdlərdə vətənə məhəbbət hissi daha da qüvvətlənsin, həqiqi vətənpərvərliyin məzmununu onlar düzgün dərk edə bilsin, vətəni müdafiə etməyi, onun şərəfini qorumağı özünün xalq qarşısında şərəfli vəzifəsi hesab etsin. Uşaqlara izah etmək lazımdır ki, Azərbaycan Silahlı Qüvvələri əsl mənada xalqın özüdür, gənclərin minlərlə igid və mərd nümayəndələrini öz sıralarında birləşdirən sarsılmaz qüvvədir. Ona görə də bütün xalq öz ordusu ilə fəxr edir, onu yüksək məhəbbət hissi ilə sevir. Xalqın alovlu məhəbbəti, hörməti və qayğısı isə əsgərlərin qəlbini oxşayır, onları ruhlandırır. Qəhrəmanların həyatı, qəhrəmanlıqları haqqında söhbətlər məktəblilərdə vətənə məhəbbət, dəyanət, qəhrəmanlıq, möhkəm yoldaşlıq, dostluq,

sədaqət və başqa nəcib xüsusiyyətləri tərbiyə etməyə kömək edir. Həyatda hər şeydən əziz olan ana vətənlə bağlı hər bir tapşırıq onun gənc övladları üçün ən şərəfli və ülvi bir vəzifədir. Şagirdlərə məhz bu amillər izah olunmalıdır.

**Hərbi hazırlıq dərslərinin təqaüdə çıxmış zabitlər tərəfindən keçirilməsi bu işdə əhəmiyyətli rol oynaya bilər.**

Vətənpərvərlik və milli mənəvi şüurun təbliği və aşılanması məsələsi xüsusilə pedoqogikada diqqət edilməlidir. Vətənpərvərlik pedaqoji prosesdə tədris olunan mövzunun məqsədində mütləq yer almalıdır. Orta məktəblərdə milli şüur tərbiyəsinin aktual problem olduğunu pedaqoji kollektivlər dərk edərək bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir. İctimai səciyyə daşıyan vətənpərvərlik tərbiyəsi şagirdlərin vətəndaş kimi formalaşmasında, öz vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Vətənpərvərlik Vətənin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, dövlətin müəyyənləşdirdiyi qaydalara şüurlu əməl etməkdə ifadə olunur. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin müdrik kəlamı didaktik əhəmiyyət daşıyır:-"Hamımızın ümumi vəzifəsi xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir". Vətənpərvərlik tərbiyəsininaşılanmasında xalqımızın min illər əvvəl dedikləri tarixi kəlamlarda ifadə olunan vətənə vurğunluq şagirdlərə xatırlanır. Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər

ruhda tərbiyəsi diqqət mərkəzindədir. Ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən biri də vətənpərvərlik hisslərinin tərbiyəsi və aşılanmasəıdır. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir. Bu yöndə orta məktəblərdə tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" fənni mühüm rol oynayır. Bu fənn öz məzmunu etibarı ilə şagirdlərə Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsini, onların ordu həyatı ilə tanış olmalarını, hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarını, şagirdlərdə Azərbaycanın Silahlı Qüvvələrində xidmətin müqəddəs borc və şərəf işi olmasına inamın yaradılmasını, vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsini, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur. Eyni zamanda bütün fənlərin tədrisində, xüsusilə də humanitar-ictimai fənlərin tədrisində vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar var. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri də şagirdlər üçün tərbiyə məktəbidir.

## Kitabların həyatımızda rolu

Kitab tükənməz bilik mənbəyidir. Kitabların həyatımızda rolunu qiymətləndirmək çox çətindir. Kitablar daxili dünyamızı zənginləşdirir, müxtəlif dövrlərə qərq olmağa imkan yaradır, kitablardan müxtəlif insanların taleyini, onların təcrübəsini və bəzən yeni nailiyyətlər üçün ilham alırıq.

Dövrümüzdə - yüksək texnologiyalar dövründə internetdən istifadə edərək bizi maraqlandıran istənilən məlumatı heç bir səy göstərmədən dərhal əldə edə bilsək də, kitab hələ də ən yaxşı bilik mənbəyi olaraq qalır. Elektron kitabların rahatlığından nə qədər danışsalar da, "canlı" kağız kitabı və onun səhifələrinin xışıltısını heç nə əvəz edə bilməz və ənənəvi kitabın tərəfdarları həmişə çox olaraq qalacaqdır. Çünki insanlar əllərində kitab tutaraq canlı insanla ünsiyyətdə olduqları kimi xüsusi hisslər keçirirlər.

Kitab bizim uşaqlıqdan dostumuz olur və həyatımız boyu bizi müşayiət edir. İstər uşaqlıqda bizə oxunan nağıllar olsun, istər bədii ədəbiyyat, istərsə də tədris ədəbiyyatı, bu və ya digər şəkildə kitablar bizə ətraf aləmi, insan mahiyyətini öyrənməyə kömək edir.

Bir vaxtlar antik dövrdə icad edilən kitablar bəşəriyyətə hədiyyə olub, onlarsız dünyamızı təsəvvür etmək mümkün deyil, onlarsız biz tamamilə fərqli olardıq.

Kitablar bizim sadiq dostlarımız və köməkçilərimizdir, çətin anlarda nəsihət verə bilir, qəhrəmanların həyatını öyrənməyə kömək edir, bizə fərqli düşünməyi öyrədir, hətta bizi keçmişə və ya gələcəyə aparır.

Unutmayaq ki, hər kitabın müəyyən bir missiyası var.Kitabın sehri xüsusi bir möcüzədir. Oxumağı sevən bir insan üçün hansı ədəbi janrı üstün tutmasından asılı olmayaraq, sevimli

kitabı ilə görüş xoşbəxt andır və yeni bir əsəri oxumağın başlanğıcı, insanın şüuru və təxəyyülü üçün kəşf edilməsi lazım olan bir dünyadır.

Kitablar müxtəlif dövrlərdə yaşamış insanlardan dövrümüzə qədər gəlib çıxan və eləcə də hazırki dövrümüzdən gələcəyə ötürəcəyimiz düşüncə miraslarıdır. Kitab oxuyan insanlar da eynilə ümumi insanlar kimi fərqli və rəngarəngdir. Onların özünəməxsus baxış bucaqları, düşüncə tərzləri, həyat fəlsəfələrinə görə kitablara və digər bütün hər şeyə münasibətləri fərqlilik təşkil edir.

Nə qədər hissələrə ayırsaq və fərqləndirsək də bu düşüncələrin bir çoxu ortaqlıq təşkil edir. Bir çoxları vaxt, səbr və maraqsızlıqdan gileylənir, heç bir şəkildə kitablara vaxt ayırmaq istəmirlər.

Heç bir kitab oxumayan insanlar da məhz cidd-cəhdlə bu işin mənasız olduğuna inananlardır. Onların düşüncəsində dönüş etmək çox vaxt ya mümkün olmur, ya da çox çətinliklə başa gəlir. Mümkün olmama səbəblərindən biri də digər insanın bu mövzuda onlara kitablara maraq göstərmələri üçün təkid etməməsi və bir növ bu vəziyyətlə razılaşmasıdır.

Kitab oxumayan insanlar üçün nə qədər absurd səslənsə də, həyatın bir başqa gözəl əməlindən xəbərsiz olduqlarını bilməlidirlər. Bizimlə eyni dövrdə olmayan və bir zamanlar bizimlə eyni atmosferi paylaşan insanların, fərqli dindən, irqdən olan yazıçıların şeirlərini, hekayətlərini, romanlarını oxumaq bəlkə də bədii bir zövqdür. Düşünmək bir sənətdir. Fərqli düşüncələri oxumaq isə bir rəsm əsəri ilə saatlarla baxışıb hər dəfə fərqli qənaətə gəlmək deməkdir.

# Bir daha nəşriyyat işi və çap xidməti barədə. Bu haqda nə bilirik?

Kitabda verilən məlumatların yaradıcı insanların qarşılaşdığı maneə və çətinliklərəböyük aidiyyatı vardır.Bu məlumatlar təsadüfi olaraq bu kitaba daxil edilməmişdir.bu, bizim kitab işində hansı əzablara düçar edildiyimizi açıq şəkildə göstərir.Diqqətlə oxumanız, nəzərə almanız, nəticə çıxartmanız vacibdir.

Nəşriyyat və çap işinin təşkili və həyata keçirilməsi, nəşriyyat işi sahəsində fəaliyyətin təşkilati-hüquqi formaları haqqında heç bir biliyə malik olmayan istənilən sahənin işçisi, bir çox hallarda isə fırıldaqçı kimi tanınan insanların bir çoxu bu sahədə fəaliyyət göstərir. Peşəkarlara, yazıçı və jurnalistlərə, alim və şairlərə sərgilədikləri bu nifrət, kin də buradan qaynaqlanır. Onlarla söhbət zamanı özünü sanki bazarda, yaxud cinayətkarların "razborka"sında hiss edirsən. Onlar qarşısında duran savadlı insanların hər birinə hörmətsiz yanaşma sərgiləyirlər. Bu, artıq kütləvi hal alıb. Sifarişçi sayılan bu insanlar onların gözündə "ən əskik zümrə"dir. Ziyalılara bu münasibət öz işinə və yaradıcı insanlara cinayətkar yanaşmadır.

Lakin onlara hansısa bir iradınızı bildirməyə də tələsməyin, bu, çox təhlükəli bir cəhddir. Çünki sizdə olan bir çox müsbət keyfiyyətlər onlarda yoxdur. Gördüyü iş üzrə savada, qabiliyyətə, elementar mədəniyyətə, insani hisslərə malik olmayan bu "biznesmen"lər istədikləri vaxt sənə hücum çəkər, səni şərləyər, səni aşağılayar, özlərinin dediyi kimi səni "ne prav" çıxardar. Sanki bu kitabları onlar yazıb ərsəyə gətiriblər və müəllifi də onlardır. Belə halda yazarların bütün hüquqlarını tapdalayır, bunu da düzgün hesab edirlər.

Günümüzün reallığı bax, budur. Yaşadığım və yazar kimi fəaliyyət göstərdiyim Gəncə şəhərində bu sahədə artı on illlərdir ki, xaos hökm sürür. Bu şəhərdə nəşriyyat işi üzrə yeganə ali təhsilli və təcrübəli mütəxəssis kimi bunu tam məsuliyyətlə deməyə haqqım çatır. Həyatımız niyə cəhənnəm əzabına dönür? İşimizə niyə diqqət göstərən, əməyimizi qiymətləndirən yoxdur? Bu suala yazılarımızda cavab tapmağa çalışacağıq. Hələlik isə nəşriyyat və çap işinin necə təşkil edilməli olduğunu və əslində necə həyata keçirildiyini nəzərə çatdıraq.

Gəncə şəhərində Çap xidməti müəssisələri var. Əlacsız qalıb kitablarımızı burada çap etdiririk. Get-gələ salırlar, keyfiyyətsiz kitablar istehsal edirlər, etirazını bildirəndə min cür təhqir və hücumlara tuş gəlirsən. Şəhərdə başqa istehsal müəssisələri də var. Amma onların işi də yazarlara qarşı təxribatdan başqa bir şey deyil. Sanki kimdənsə əmr alıblar…Hara müraciət edəsən, hərəsinin bir dayısı, bir arxası. Söz də başa düşmürlər. Əllərindən bir iş gəlmir? Xeyr, qəsdən və bilərəkdən belə istək nümayiş etdirirlər. Niyyətləri pisdir. Fəaliyyətdə yazarlar mənəvi və maddi zərər çəkirlər. Dözülməz haldır.

Bəs onların fəaliyyəti necə tənzimlənməlidir? Əslində onlar özlərinə "müştəri" saydığı insanlara hansı keyfiyyətlər və münasibət sərgiləməlidirlər? Qanun buna nə deyir? Özləri də bilmirlər. Düşündük, maarifləndirici bir yazı hazırlayaq, kitabların çapı ilə bağlı onlara müraciət edənlər öz hüquqlarını tam anlasınlar.

Beləliklə:Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu mövcuddur. Bu Qanun nəşriyyat işinin ümumi prinsiplərini müəyyən edir, nəşriyyat

fəaliyyətinin təşkili və həyata keçirilməsi ilə əlaqədar nəşriyyat işinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini müəyyən edir. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları istifadə edir:

Qanunun I-ci maddəsinə əsasən nəşriyyat - əsas fəaliyyət sahəsi müəllifə sifariş verməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və (və ya) yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsi**dir.** (Demək, ixtisaslaşmamış çap xidmətləri müəssisələrinin bu işlə məşğul olması qadağan edilmişdir).

Çoxları dövlət nəşriyyatı ilə çap xidməti göstərən bu müəssisələri belə ayıra bilmir. Onlar arasında böyük bir fərq mövcudddur. Dövlət nəşriyyatında peşəkarlar çalışır. Dövlət nəşriyyatı - dövlət təşkilatlarının təsis etdiyi və yaxud onların təşkilat strukturlarına daxil olan nəşriyyatlar və nəşriyyat bölmələri, qeyri-dövlət nəşriyyatları isə xüsusi mülkiyyət və ya bələdiyyə mülkiyyəti əsasında yaradılmış nəşriyyatlardır. **N**əşriyyat işi - nəşriyyat məhsullarının hazırlanması, istehsalı və yayımı ilə məşğul olan hüquqi və fiziki şəxslərin təşkilati-yaradıcılıq və istehsalat-təsərrüfat fəaliyyətini əhatə edən ictimai münasibətlər sahəsidir (Bu münasibətlər Gəncə şəhərində çap işi ilə məşğul olan müəssisələrdə mövcud deyildir. Aşağıda verəcəyimiz qeydlər buna bir daha sübut olacaqdır).

Nəşriyyat məhsulu – çap üsulundan və formasından asılı olmayaraq nəşriyyatların (naşirlərin) sifarişi ilə istehlakçı üçün nəzərdə tutulan kitab, broşür, albom, plakat, buklet, açıqca, elektron nəşrlər və digər nəşriyyat məhsullarının məcmusu, çap məhsulu isə poliqrafiya müəssisələrində çap texnikası vasitəsilə

hazırlanan dövri mətbu nəşrlər, nəşriyyat məhsulları (elektron nəşrlərdən başqa) və bütün növlərdən olan poliqrafiya məhsullarının məcmusudur.

Sifarişçi - maliyyə obyektlərini üzərinə götürməklə nəşriyyat məhsulunun hazırlanmasını, istehsalını və yayımını sifariş edən fiziki və ya hüquqi şəxs, **nəşr** – nəşriyyat prosesindən keçirilərək texniki vasitələrin köməyilə sayı çoxaldılan yazılı və audiovizual formada bir dəfə, yaxud dəfələrlə yayılan nəşriyyat məhsuludur. Çap xidməti müəssisələrində olmayan redaktor – nəşriyyatlarda çalışan, yaxud müqavilə əsasında kənardan cəlb olunan, nəşriyyat əlyazmasının mətnini elmi, ədəbi, texniki və bədii cəhətdən işləyib nəşrə hazırlayan aparıcı mütəxəssisdir. Burada sual olunur: - Əgər redaktor nəzarəti yoxdursa, kserokopiya aparatları ilə çap xidməti göstərən müəssisələr kitab və broşüraların dövlət, xalq və milli-mənəvi dəyərlərə zid mətnlərlə dolu olub-olmadığını necə araşdıraraq istehsal edir? Bu sahəyə nəzarəti kim həyata keçirir?

Nəşriyyat işinin subyektləri – nəşriyyatlar (naşirlər), müəlliflər, poliqrafiya müəssisələri, nəşriyyat məhsullarının sifarişçiləri və yayıcılardır. Kitabın pirat nüsxəsi isə “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, kitabın hüquq sahibinin razılığı olmadan hazırlanan (istehsal edilən) və yayılan nüsxəsidir.

Nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri Nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri (Maddə 3.) bölməsində göstərilmişdir:
Nəşriyyat işi sahəsində dövlət siyasətini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

Maddə 4. Nəşriyyat işinin sərbəstliyi

Nəşr üçün nəzərdə tutulmuş əsərlərin, əlyazmaların və digər materialların senzurasına yol verilmir (Bu, çap xidməti müəssisələrinə kitab və broşüraları maneəsiz çap etməyə imkan yaradır).

Nəşriyyat materiallarının müəllifi deyillərsə, dövlət orqanlarının, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, habelə vəzifəli şəxslərin nəşrə hazırlanan materialların qabaqcadan onlarla razılaşdırılmasını tələb etmək və yayılmasını qadağan etmək hüququ yoxdur.

Bununla yanaşı, qanunun 5-ci maddəsində Nəşriyyat işinin sərbəstliyindən sui-istifadənin yolverilməzliyi qeyd olunur: Nəşriyyat işinin subyektlərinin hazırladıqları, istehsal etdikləri və yaydıqları nəşriyyat məhsullarında dövlət sirlərini yaymağa, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirməyə, yaxud dəyişməyə, ölkənin təhlükəsizliyinə, dövlətin bütövlüyünə qəsd etməyə, müharibəni, zorakılığı, milli, irqi, dini müstəsnalığı, dözülməzliyi, sosial ədavəti təbliğ etməyə, habelə pornoqrafik xarakterli materialları nəşr etməyə və yaymağa, böhtan atmağa və digər qanun pozuntularına çağırışlara yol verilmir**.**-Bunu başa düşürük, bəs qanunçuluq, dövlətçilik ruhunda hazırlanan kitablara, qəhrəmanlığı və qəhrəmanları, milli-mənəvi dəyərləri təbliğ edən müəlliflərin hazırladıqları kitablara belə iyrənc münasibətə, onları bezdirməyə, qəsdən zay məhsullar istehsal etməyə, onlarla təhqiramiz davranmağa poliqrafçıları yaxud çap işi ilə məşğul olan insanları (onların çoxunu heç insan adlandırmağa dilimiz gəlmir) nə vadar edir? Yalnız kitaba, ədəbiyyata, elmə, qanunçuluğa və milli-mənəvi dəyərlərə olan nifrət! Bunu biz illərlə təcrübədə görmüşük və necə deyərlər, "öz dərimizdə hiss etmişik".

Qanunun 10-cu maddəsində nəşriyyat məhsullarının istehsal edənin hüquq və vəzifələri aydın şəkildə izhar olunmuşdur:

Poliqrafiya müəssisələri, istifadəsində poliqrafik, surətçıxarma və ya müvafiq texniki vasitələr olan digər hüquqi və fiziki şəxslər nəşriyyat məhsullarını istehsal edə bilərlər. Nəşriyyat məhsullarını istehsal edən poliqrafiya müəssisələri nəşriyyatdan və naşirlərdən daxil olan sifarişlər əsasında nəşriyyat məhsullarının istehsalını və buraxılışını həyata keçirə bilərlər. Sifarişlərin yerinə yetirilməsinin şərtləri və müddəti tərəflər arasındakı müqavilə ilə müəyyən edilir (Bu qanunlara isə heç bir halda itaət olunmur). Qanuna əsasən Nəşriyyat məhsullarını istehsal edən poliqrafiya müəssisəsi poliqrafiya sahəsində dövlət standartlarına və beynəlxalq standartlara, texniki şərtlərə və normativ hüquqi aktlara əməl etməlidir.

Qeyd etmək lazımdır ki, istənilən halda, kitablar müəssisə rəhbərlərinin istədikləri keyfiyyətdə çap olunur, edilən narazılıqlar nəzərə alınmır. Sevimli sözləri var – İstəmirsən bura gəlmə, yaxud bəhanələr qurtaranda- sizi bir də bu müəssisədə görmək istəmirik.-deyilir. Müəllif üçün bundan böyük təhqiri təsəvvür etmirik. Dünyanın bütün ölkələrində sifarişçiyə bu münasibət cinayət və utancverici hal sayılır. Bircə Gəncə şəhərində fəaliyyət göstərən çap xidməti müəssisələrindən başqa.

Qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa nəşriyyat məhsulunu istehsal edən poliqrafiya müəssisəsi nəşrin hazırlanmış tirajını və ya onun bir hissəsini, nəşrin orijinal nüsxəsini, maket və fotoları və ya çap formalarını sifarişçinin icazəsi olmadan başqasına verə, habelə nəşrin əlavə və təkrar tirajını çap edə bilməz.-Burada bir haşiyəni nəzərə çatdıraq. Gəncə şəhərində fəaliyyət göstərən çap xidmətləri

müəssisəsinin birində başımıza gələn hadisə var. Uzun-uzadı get gələ saldıqdan sonra zay məhsulları qəbul etmədikdə, mənə "kitablarınızı götürməsəniz müəllimlərə bağışlayacağam", "Kitabları götürməsəniz zibil qutusuna atacağam" deyə mesajlar gəlməkdə idi. Müəllif və sifarişçi kimi hüquqlarımızın ayaq altına atılması bəs deyil, qeyri-insani davranışlar, təhqirlər, zorakılıq müəssisəyə xas olan ən böyük cəhətlərdən biridir. Bu, yaradıcı insanları ələ salmaq, onların ləyaqətini qəsdən tapdalamaq cəhdidir və bir məhkəmə predmetidir.

Qanunun 11-ci maddəsində Sifarişçinin hüquq və vəzifələri açıq-aydın yazılmışdır. Amma bunlara riayət edən yoxdur. Çünki, bu sahədə savadlanmağa heç birisinin nə savadı, nədə ki, həvəsi vardır.

Maddədə deyilir:-Hər bir hüquqi və fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada nəşriyyat məhsulunun sifarişçisi ola bilər. Sifarişçi qismində müəlliflər (həmmüəlliflər), tərtibçilər (həmtərtibçilər) və tərcüməçilər redaksiya-nəşriyyat işlənməsi, hazırlanması və buraxılışı üçün aşağıdakı materialları nəşriyyata (naşirə) təqdim edə bilər: belletristik, ictimai-siyasi, reklam, məlumat, tədris, elmi, tətbiqi və texniki səciyyəli əsərlər; çıxışlar, mühazirələr, nitqlər, məruzələr, moizələr; tərcümələr, işləmələr, annotasiyalar, icmallar, xülasələr, əsərlərin digər işləmələri və əsasında törəmə əsərlər yaradılan, orijinalın məzmununa ziyan vurmayan folklor işləmələri; almanaxlar, antologiyalar, ensiklopediyalar və digər toplular; digər əsərlər.

Qanuna əsasən Sifarişçi nəşrin dilini, həcmini, tirajını müəyyən edir və onun istifadə və yayımı qaydasını müstəqil həll edir.

Verilmiş sifarişlərin icra şərtləri, tərəflərin hüquq və vəzifələri müəllif (həmmüəllif) və ya sifariş obyektinin mülkiyyətçisi olan şəxs, sifarişçi, naşir, çap məhsulunu hazırlayan və yayıcı arasında qanunvericiliyə uyğun bağlanmış müqavilə ilə müəyyən edilir (Haşiyə: Poliqrafiya müəssisələrində bu sənədlər tələb edilir, çap xidmətləri müəssisələrində isə bu sahədə xaos hökm sürür. Belə halda hətta dövlət əleyhinə olan əsərlər belə diqqətdən keçirilməz və çap olunar). Maddələrdə belə hallar üçün xüsusi şərtlər nəzərdə tutulmuşdur.

Bəs sifarişçinin istəyi qanunla hansı maddə ilə tənzimlənir?- 15-ci Maddənin "Müəllif nəşrləri" bölməsində **"**Vətəndaşlar və təşkilatlar öz əlyazmalarını və digər materialları öz hesablarına və müəllif redaktəsi ilə çap etdirə bilərlər".-deyilir.

Qanunun 19-cu maddəsində Nəşriyyat işi sahəsində əqli mülkiyyət hüququ haqda məlumat da vardır:

19.2. Nəşriyyat işi sahəsində əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin elektron və kağız daşıyıcılarda nüsxələrinin qeyri-qanuni hazırlanması (istehsalı) və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətlər "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Bu sahədə qanunların icrasında çoxlu boşluqlar vardır. Kitablarımızın pirat nüxsələri on min tirajlarla çap olunaraq ölkəmizin bütün dükanlarında müəlliflərdən icazəsiz satılmaqdadır. Məsələn, mənim müəllifi olduğum, yaxud tərcüməçisi olduğum 4 adda kitab icazəmiz olmadan kitab dükanlarında, eləcədə Gəncə şəhərində gözümüzün

qabağındaca satışdadır. Dəfələrlə hüquq-mühafizə orqanlarına müraciət etməyimizə baxmayaraq, 25 ildən artıqdır ki, bir tədbir görülməyib.

Bəs naşirlər, çap məhsullarını hazırlayanlar və yayıcılar qanundan kənar fəaliyyəti və pis davranışları ilə hansı məsuliyyəti daşıyırlar?

Bu, qanunun 20-ci maddəsində, Naşirlərin, çap məhsullarını hazırlayanların və yayıcıların məsuliyyəti bölməsində aşkar yazılmışdır: - müəlliflik hüququ ilə qorunan əsərlərin müəlliflik müqaviləsi olmadan istehsalına, dövlət standartlarını pozmaqla məhsul istehsal edilməsinə görə inzibati və maddi məsuliyyət daşıyır. Nəşriyyat işinin sərbəstliyindən sui-istifadənin yolverilməzliyi qanunla tənzimlənir.

Haşiyə**:** Bu, Nəşriyyat hüququ olmayan təşkilatlarda və çap xidmətləri müəssisələrində daha çox özünü biruzə verir. Kim nə istəyir, onu da edir. Savadsızlıq, qanuna məhəl qoymamaq, özbaşınalıq, cəzasızlıq hissi sanki bu”çapçılar”ın qanına hopub. Bu işə nəzarət edən təşkilat, qurum və idarələr belə onlar tərəfindən ustalıqla aldadılır. Bunlara nəzarət, demək olar ki, yoxdur. Nəşriyyat işinin təşkili və həyata keçirilməsi, nəşriyyat işi sahəsində fəaliyyətin təşkilati-hüquqi formaları haqqında heç bir biliyə malik olmayan istənilən sahənin nümayəndəsi, bir çox hallarda fırıldaqçı kimi tanınan insanların bir çoxu bu sahədə fəaliyyət göstərir. Peşəkarlara, yazıçı və jurnalistlərə, alim və şairlərə sərgilədikləri bu nifrət, kin də buradan qaynaqlanır. Onlarla söhbət zamanı özünü sanki bazarda, yaxud cinayətkarların “razborkası”nda hiss edirsən. Düzgün iradına görə elementar mədəniyyətə, insani hisslərə malik olmayan bu “biznesmen”lər istədikləri vaxt sənə hücum çəkər,

səni şərləyər, özlərinin dediyi kimi səni "ne prav" çıxardar. Günümüzün reallığı bax, budur.

Ümumiyyətlə, surətçıxartma və yaxud çap xidməti göstərən müəssisələr kitab çapı ilə məşğul ola bilərlərmi? Qanun buna izn verirsə, hansı təqdirdə? Onların peşəkar keyfiyyətləri necə nəzərə alınmalıdır, bu sahədə təhsil və praktika vacibdirmi? Suallara cavab verə bilən varsa, gözləyirik. Bu sahədə maarifləndirmə işindən məhrum olan sifarişçilər elə hesab edir ki, kağız kserokopiya aparatına bu başdan salınsa, digər tərəfdən kitab çıxacaqdır.

Bu, heç də belə deyil. Aldanmayın, cənablar!

# Məlumat əldə etmək hüququ və informasiya azadlığının təmin edilməsi məsələləri barədə

**Etmtv. news bu yazını təhsil sahəsində çalışan rəhbər işçilərə, xüsusən də, Gəncə şəhərində fəaliyyət göstərən orta təhsil ocaqlarının direktorlarına həsr edir.**

Bu gün media işçilərinin yerlərdə məlumat almaq hüquqları kobud şəkildə pozulur. Buna səbəb nədir? Nə üçün rəhbər işçilər media nümayəndələri ilə əlaqə saxlamaqdan çəkinir, bunu, sadəcə, özləri üçün artıq iş sayırlar?

Səbəbi hər iki tərəfdə axtarmaq lazımdır: jurnalistlərin əksəriyyətinin peşəkarlıq səviyyəsi media qanunlarının tələblərinə cavab vermir, rəhbər işçilərin əksəriyyəti isə sadə dillə desək, korrupsiya girdabında batmışlar. Digər səbəblərdən biri də, insanların (xüsusilə də təhsil işçilərinin) bu sahədə ümumi savad səviyyəsinin aşağı olmasıdır.

Məsələ ilə bağlı bəzi mülahizələrimiz var…

## Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikasında kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını, habelə mətbuatın, informasiya agentliklərinin, televiziya və radio təşkilatlarının, vətəndaşların tam, doğru-dürüst və operativ informasiya almaq hüququnun həyata keçirilməsinə yönəldilmiş fəaliyyətinin təşkilatı, hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Bu qanun 7 dekabr 1999-cu ildə qəbul edilmiş, 23 noyabr 2001-ci il, 28 dekabr 2001-ci il və 30 aprel 2002-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir.

**Qanunun Kütləvi informasiya vasitələrinin məlumat almaq hüququnu özündə əks etdirən 8-ci maddəsində deyilir:**

-Kütləvi informasiya vasitələri cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və doğru-dürüst məlumatlar almaq hüququna malikdirlər. Bu hüquq Azərbaycan Respublikasının qanunvericiliyində göstərilən hallardan başqa, məhdudlaşdırıla bilməz.

İnformasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Tələb olunan informasiyanı adları çəkilən orqan, təşkilat və ictimai birliklərin rəhbərləri, onların müavinləri, mətbuat xidmətinin işçiləri, yaxud digər səlahiyyətli şəxslər verə bilərlər.

Məlumatın əldə edilməsi barədə yazılı sorğuya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Qanunda göstərilən müddətdə həmin məlumat öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

Kütləvi informasiya vasitəsinin nümayəndəsi məlumatı verməkdən imtina edən dövlət orqanlarından, bələdiyyələrdən, idarə, müəssisə və təşkilatlardan, ictimai birliklərdən, siyasi partiyalardan və ya vəzifəli şəxslərdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə şikayət etmək hüququna malikdir.

İnformasiya azadlığı - insan hüquqlarının təminatçısı olan cəmiyyətin mühüm xüsusiyyətidir. İnformasiya sahibinin

vəzifəsi bu məlumatları vətəndaşlara çatdırmaq, ictimaiyyətin hüququ bu məlumat və ideyaları almaq, medianın işi isə bunları yaymaqdır.

**Hər bir fərdin informasiya almaq hüququ var**

Hazırda bütün dünyada, o cümlədən ölkəmizdə ictimai həyatda məlumatlandırmanın xüsusi çəkisinin yüksəlməsi, informasiya cəmiyyəti qurulması prioritet istiqamətlərdən biridir. Son illər respublikamızda bu sahədə həyata keçirilən ardıcıl tədbirlər informasiya texnologiyalarının cəmiyyət həyatındakı rolunu xeyli artırmışdır.

Bu gün kütləvi informasiya vasitələri cəmiyyətdə demokratik mühitin, aşkarlığın, sərbəst və fərqli düşüncənin etibarlı tribunası kimi özünü təsdiq etmişdir. Ölkəmizin dövlət müstəqilliyi qazanması KİV-i azad və demokratik məkana çıxarmış, onun cəmiyyətin aynası, obyektiv ictimai rəy vasitəsi olmaq rolunu getdikcə gücləndirmişdir. Azərbaycan Respublikası Konstitusiyanın 50-ci maddisinə görə, "Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı var". Məlumat mübadiləsi olmadan insanlar ətrafda baş verənlər, başqalarInın gördüyü işlər, onların düşüncə və məramları, cəmiyyətİn yaşaması üçün önəmli olan digər məsələlər barədə bilgi ala bilməzlər.

Qeyd olunmalıdır ki, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsİnə görə, "Hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir".

Əlbəttə, çoxmənalı anlayış olsa da, burada informasiya dedikdə toplum və dövlətlə, təbİətlə, insanların maraq dairəsində olan başqa məsələlərlə bağlı olaylar, proseslər,

faktlar və şəxslər haqqında fərqli qaynaqlardan alınmış və fərqli formalarda çatdIrılan məlumatlar nəzərdə tutulur.

**Məlumat əldə etmək hüququ informasiya azadlığını təmin edir**

İnformasiya azadlığı insan hüquqlarının təminatçısı olan cəmiyyətin mühüm xüsusiyyətidir. Cəmiyyətdə baş verən proseslərdən xəbər tutmaq vətəndaşların ilkin ehtiyacıdır. İctimai mühitə təsir göstərən, insanlar üçün maraqlı və əhəmiyyətli olan bütün hadisələr, faktlar barədə hər bir fərdin informasiya almaq hüququ vardır və bu hüquq vətəndaşların fikir azadlığının tərkib hissəsidir.

Vətəndaşlara, o cümlədən jurnalistlərə onları maraqlandıran məlumatları sərbəst şəkildə əldə etmək, toplamaq və yaymaq üçün normal şərait yaradılarkən, adı çəkilən hüquq gerçəkləşmiş olur. Bu hüquq imkan verir ki, vətəndaş özünün digər hüquqları barədə də məlumatlı olsun, onlardan istifadə etməyi və onları qorumağı bacarsın.

Dövlət və yerli özünüidarə orqanlarının fəaliyyəti, bu qurumların ölkənin prioritet, taleyüklü məsələləri üzrə gördüyü işləri izləsin və bütün bunlar barədə məlumat almaq imkanlarına malik olsun. Başqa sözlə, hər bir kəs hüquqları ilə yanaşı, azadlığının hüdudlarını da təsəvvür etməli, hər hansı davranışının nə ilə nəticələnəcəyi barədə məlumatlı olmalıdır».

**Vətəndaş birbaşa ona aidiyyəti olan hər hansı məsələ ilə də əlaqədar məlumat almaq, ictimai olaylardan xəbər tutmaq hüququna malikdir**.

Məhz bu ictimai nüanslara görə vətəndaşın informasiya almaq azadlığı məhdudlaşdırıla bilməz. Hətta informasiyanın açıqlanmasının (dövlət sirri sayılan məlumatlar istisna olmaqla) qanuni məqsədlərə ziyan vuracağı aşkarlansa belə, onun ictimai

maraqları təmin etmək baxımından gətirəcəyi xeyir bu ziyanı üstələyərsə, həmin informasiya açıqlanmalıdır.

Vətəndaş hüquqlarının pozulmasına yol verməmək üçün bütün bunları bilməlidir. Burada məsuliyyət hissi də mühüm əhəmiyyət kəsb edir.

Bəs informasiya sahibləri hansı məsuliyyəti daşıyırlar? Necə etmək lazımdır ki, informasiyaya çatım ən qısa zamanda və ən münasib üsulla təmin edilsin?

**İnformasiya sahiblərinin əsas vəzifəsi qanunla müəyyən edilmiş qaydalara uyğun olaraq, vətəndaşların sorğularına çevik cavab verməkdir**.

Onlar informasiya xidmətləri göstərmək işinin təşkili ilə bağlı adı çəkilən qanuna və bu qanun üzrə qəbul edilmiş digər normativ-hüquqi aktlara müvafiq surətdə daxili icraat qaydaları hazırlayıb gerçəkləşdirmək üçün məsuliyyət daşıyırlar.

İnformasiya sahibləri məlumat açıqlığının qanunun 6-cı maddəsində göstərilən prinsiplərini əsas tutaraq, məlumat almağa çatımın açıq olmasına, informasiya sorğularına çevik və ədalətli baxılmasına, müraciətlərin maksimum təminatına imkan verə biləcək yollarla icra edilməsinə çalışmalıdırlar**.** Ən başlıcası, informasiya almaq üçün müraciət etmiş vətəndaşlar və media qurumları arasında fərq qoyulmamalıdır**.** Bu zaman yalnız bilgi verilməlidir, ideoloji təbliğatla məşğul olmaq yolverilməzdir. Həm də məlumat açıqlanarkən, ilk növbədə, vətəndaşların, cəmiyyətin və dövlətin təhlükəsizliyi qorunmalıdır. İctimai maraq kəsb edən digər məsələlər barədə məlumat və ideyaları yaymaq funksiyası, həmişə olduğu kimi, medianın üzərinə düşür.Başqa sözlə, informasiya sahibinin vəzifəsi bu məlumatları vətəndaşlara çatdırmaq, ictimaiyyətin

hüququ bu məlumat və ideyaları almaq, medianın işi isə bunları yaymaqdır.

**İnformasiya cəmiyyətində həqiqəti əks etdirən obyektiv xəbərlər bu gün ən qiymətli resursa çevrilib.**

Bu gün mətbuatda, kütləvi informasiya vasitələrində ölkəmizdə demokratiyanın inkişafına, vətəndaş cəmiyyətinin təşəkkülünə və bərqərar olmasına xidmət edən yazılara, real gerçəkliyimizi əks etdirən həqiqi sözə, qərəzsiz, obyektiv, balanslaşdırılmış informasiyaya böyük ehtiyac vardır. Bu missiyanın həyata keçirilməsində media nümayəndələrinin, o cümlədən insan hüquqları mövzusunda yazan, araşdırmalar aparan jurnalistlərin fəal iştirakı böyük əhəmiyyət kəsb edir.

Ölkəmizin müstəqillik qazandığı, suveren, demokratik dövlət quruculuğu prosesini yaşadığı müasir dövrdə KİV-in, o cümlədən mətbuatın qarşısında yeni vəzifələr durur, respublikamızda həyata keçirilən dinamik proseslərin cəmiyyətə çatdırılmasında, dolğun işıqlandırılmasında jurnalistlərin əməyi hər zaman qeyd olunur. İnformasiya cəmiyyətində həqiqəti əks etdirən obyektiv xəbərin bu gün ən qiymətli resursa çevrildiyi, ölkə vətəndaşlarının informasiyaya olan tələbatında köklü dəyişikliklərin baş verdiyi diqqətə çatdırılır.

Dövlət orqanlarının informasiya və ictimaiyyətlə əlaqələr üzrə fəaliyyət göstərən bölmələri ilə kütləvi informasiya vasitələri arasında münasibətlərin daha sivil formada qurulması mətbuat xidməti institutları və KİV-lərin qarşılıqlı əməkdaşlığının təkmilləşdirilməsinə xidmət etməklə yanaşı, həm də ölkəmizdə informasiya cəmiyyətinin formalaşmasına, hüquqi dövlətin inkişafı prosesinə təkan verir. Bu əlaqələri qurmadan hər hansı bir fəaliyyətdə uğur əldə etmək mümkün

deyildir. İnformasiya mübadiləsi aparılmasında mətbuat xidmətləri və media nümayəndələrinin qarşılıqlı əlaqələri önəm kəsb edir, ictimai fikri öyrənməyə yönəlmiş "piar"ı formalaşdırmaq və informasiya sorğularını operativ cavablandırmaq bu gün dövlət qurumlarının mətbuat xidmətlərinin əsas vəzifəsinə çevrilməlidir.

**P.S. Növbəti yazı uzun illər ərzində analitik yazıların, əsərlərin və filmlərin ərsəyə gətirilməsinə maneəçilik törədən amillərə və insanlara həsr olunacaqdır…**

## Biz faşizmə niyə nifrət etməliyik? II Dünya müharibəsinin adlı və adsız azərbaycanlı qəhrəmanlarının axtarışında.

İkinci Dünya Müharibəsinin başa çatmasından artıq 80 il ötür. Üstündən onilliklər keçməsinə baxmayaraq hələ də bu uzun sürən, tarixə ən qanlı-qadalı, dəhşətli müharibə kimi düşən bu savaş yaddaşlardan silinmir. Hələ də tarixin bu dövrünə maraq var. İnsanlar faşizm üzərində çalınmış qələbəyə öz töhfəsini verərək, igidlik, rəşadət və şücaət göstərmiş qəhrəmanlar haqqında kitabları sevə-sevə oxuyur, onların qəhrəmanlığından bəhs edən kinofilmləri maraqlı izləyir. Bu filmlərin və kitabların qəhrəmanları yaddaşlara həkk olunub. Onlar əsgəri rəşadətin rəmzinə çevrilməklə, tək təmsil etdikləri xalqa yox, bəşəriyyətə məxsusdurlar.

Böyük Vətən Müharibəsi keçmiş Sovetlər Birliyində təmsil olunan bütün xalqlar üçün bir həyat sınağı oldu. Dostluq, qardaşlıq, birlik rəmzinə çevrilmiş xalqlar talelərinə düşmüş bu sınaqdan ağır müharibə illərində bir yerdə çıxmaq məcburiyyətində qaldılar. Bu sınaq-sovetlər və sosializm dünyagörüşü və həyat tərzini, dünyaya ağalıq iddiası ilə elə dünyanın özünü ağır və dağıdıcı müharibəyə sürükləyən faşizm taunu ilə üzbəüz qoydu. Dünyanı dəhşətə salan faşızmin törətdiyi fəsadlar bir çox xalqları az qala yer üzündən silinmək təhlükəsi ilə üzləşdirdi. Bu baxımdan o dövrdəki Sovet İttifaqı tərkibində yaşamış bütün xalqlar üçün bu müharibə yer üzündən silinməmək üçün ən dəhşətli müharibəyə, ölüm-dirim savaşına çevrildi.

1941-ci il iyun ayının 22-də müharibə elan etmədən Sovet torpağına soxulmuş faşıst qoşunları elə ilk gündən müxtəlif millətlərin təmsilçiləri olmuş sovet əsgərlərinin müqavimətinə

rast gəldilər. Böyük Vətən müharibəsinin elə ilk anlarında başlanan qəhrəmanlıqla dolu bu mübarizə minlərlə naməlum və məlum əfsanəvi əsgəri rəşadətə və şücaətə təkan verdi. Çünki bu mübarizədə insanları birləşdirən və rəşadət göstərməyə təkanverici qüvvə vardı. Bu qüvvə insanların faşızmə və faşızmi təmsil edən işğalçılara olan ümumi nifrət hisləri idi. Bu hislər eyni zamanda azərbaycanlılar, ruslar, ukraynalılar, belaruslar, gürcülər, Orta Asiya xalqlarının nümayəndələrində də eyni cür inkişaf etmişdi. Ona görə də bu xalqların nümayəndələri faşızm üzərində qələbənin qazanılması üçün var gücünü əsirgəməmiş, hətta həyatını belə qurban vermiş bütün qəhrəmanların xatirəsini əziz tutur. Bu həmişə belə olmuş, belə də olacaqdır.

İndi artıq Sovetlər Birliyi yoxdur. Lakin həyatımızdan, yaddaş və düşüncəmizdən silinməyən bir çox şeylər də var. Bu, xalqlar dostluğuna olan məhəbbət, müharibəyə, qırğına, bunlardan doğan insan itkisi, aclıq və səfalətə olan nifrətdir. Bu nifrət erməni faşıstlərinin 35 il əvvəl bizləri sürüklədiyi müharibədə də öz əksini tapır. 80 il bundan öncə faşızmin dünyaya gətirdiyi fəlakət, dağıntı və milyonlarla insan itkisi kimi ermənilərin də bizə gətirdiyi bu faciə, üstündən yüz illərlə vaxt ötsə belə, lənətlənəcəkdir. Ona görə də müharibə mövzusu daim bəşəriyyəti düşündürən ən əsas məsələlərdən biri olaraq qalacaqdır.

Gənc oxucuları bir şey də düşündürə bilər. Məgər bu müharibənin qəhrəmanlarını yada salmağa, onların keçdiyi döyüş və həyat yolunu öyrənmək üçün bu qədər vaxt və enerji sərf etməyə dəyərmi? Məgər indiki dövrdə də qəhrəmanlarımız azdırmı?

Onu da deyim ki, onların bu sualı nə qədər aktual görünsə də, bir o qədər də sadəlöhv olardı. Çünki qəhrəmanlıq hansı

dövrdə və hansı şəraitdə göstərilirsə göstərilsin, o mahiyyətcə elə ən ali hiss, ali və nəcib hərəkət olaraq qalır.

Müasir gəncliyin Böyük Vətən müharibəsi haqqında olan təsəvvürləri demək olar ki, yox dərəcəsindədir. Bunu zəmanə ilə əlaqələndirənlər də var. Amma düşünürük ki, bunun səbəblərini gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan insanların əksəriyyətinin psixologiyasında da axtarmaq lazımdır. Faşizmin əsl mahiyyətinin nədən ibarət olduğunu bilmədən onun bəşəriyyətə gətirdiyi fəlakətlərin miqyasını da insanlara çatdırmaq mümkün deyildir.

Bəs, faşizm nədir?

Bütün milli xüsusiyyətləri ilə yanaşı faşizmin mahiyyəti hər yerdə eyni olaraq qalmışdır. Faşizm güclü, hətta qəddar, amansız hakimiyyəti təbliğ edir.

Faşizm ideologiyasında millətin qan ümumiliyinə əsaslanan ən ali və əbədi varlıq olmasından ibarət konsepsiya xüsusi yer tutur. Buradan da qanın və irqin təmizliyinin qorunub saxlanılması vəzifəsi fetişləşdirilir. Millətlər aşağı və ali kateqoriyalara bölünür. Faşist cəmiyyətində ali millətlərin digərləri üzərində ağalıq etməsi nəzərdə tutulur. Bu müddəalar faşizmin təcavüzkar xarici siyasətinə, başqa ölkələrin və xalqların əsarət altına alınması praktikasına bəraət qazandırmaq məqsədi güdürdü. Faşist ideoloqları öz qarşılarına böyük vəzifələr (Mussolininin Aralıq dənizi imperiyası, Hitlerin minillik "böyük reyx"i) qoymuşdular. Onların yerinə yetirilməsi üçün isə nəhəng, hər cəhətdən təmin olunmuş orduların yaradılması nəzərdə tutulurdu.

Faşizm cəmiyyətinə xas olan xüsusiyyətlərdən biri ümumi zorakılıq praktikası və zorakılıq kultunun yaradılmasından ibarətdir. Bu hal cəmiyyətin gündəlik həyatına

elə hopdurulur, elə təşviq edilir ki, müəyyən dövrdə qeyri-ixtiyari olaraq adi vətəndaşların yaşayış normasına, həyat tərzinə çevrilir.

Faşizm İkinci dünya müharibəsi illərində özünün həqiqi mahiyyətini açıb göstərmişdir. Ölüm düşərgələri, soyqırımları, krematoriyalar, bəşəriyyətə qarşı kütləvi cinayət aksiyaları ilə faşizm işə keçirdi. Faşizm İkinci dünya müharibəsinin başlanmasında həlledici rol oynadı, sonra isə misilsiz hərbi və mənəvi-siyasi məğlubiyyətə düçar oldu. Onun cinayətləri Nyurnberq məhkəməsi ilə ittiham və məhkum edildi. Lakin bu qələbə faşizmin ideya-siyasi cərəyan kimi tam sıradan çıxarılmasını təmin edə bilmədi.

Müharibədən sonra tezliklə o, neofaşizm şəklində yenidən dirçəlməyə başladı. O, faşizmlə genetik əlaqələrini saxlayır. Belə ki, neofaşizm də uyğun ideoloji və siyasi baxışları rəhbər tutur, zorakılıq və dağıdıcılığı təbliğ edirlər. Bu gün dirçəlməkdə olan neofaşizm kifayət qədər təhlükəlidir. O, bir sıra ölkələrdə ciddi siyasi qüvvəyə çevrilməkdədir.

Bunu biz düşmən ölkəyə çevrilmiş, ölkəmizin ərazi bütövlüyünə qəsb etmiş Ermənistanın timsalında da görə bilərik. Dünya faşizm əleyhinə olduğu halda, Ermənistan rəhbərliyi Yerevanda daşnak ordusunun keçmiş generalı, agentura işi çərçivəsində almanların yanında Qaregin Njde ləqəbi ilə xidmət etmiş satqın Ter-Arutyunyana heykəl qoyub onun xatirəsini əbədiləşdirməklə dövlət siyasətlərinin faşizm ideologiyasına söykəndiyini birmənalı şəkildə ortaya qoyur.

Faşizmin tarixinə, onun əsaslandığı ideoloji xəttə və Ermənistanı idarəedənlərin siyasətinə nəzər yetirildikdə onların arasında çox böyük oxşarlığın olduğu da məlum olur. Bu, yalnız ideoloji oxşarlıqda deyil, həm də real nəticələrdə özünü

göstərir. Ermənistanın bəşəriyyət əleyhinə, insanlığa, humanizm ideyalarına qarşı tarixən formalaşmış mövqeyi və real əməlləri davamlı olaraq, faşizmlə üst-üstə düşüb. Bu gün Ermənistan, Hitler Almaniyası üçün vuruşmağı Ermənistan, erməni xalqı üçün vuruşmaq kimi qələmə verən cinayətkara öz paytaxtında abidə ucaldacaq qədər aşağı səviyyə nümayiş etdirir. Dünya faşizmdən imtina etdiyi, onu insanlıq üçün qəbuledilməz bir iedologiya hesab etdiyi bir vaxtda Ermənistan özünün iç üzünü açıq şəkildə ortaya qoyan bu addımı atmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında həmişə faşizmin və Hitlerin tərənnümünü qəbuledilməz hesab etmişdir.

Prezident bunu MDB Dövlət Başçıları Şurasının iclasında da bildirib: – “Biz, MDB rəhbərləri faşistlərin tərənnümünə qarşı çıxdıq”, – deyə Prezident bildirib. – “Təəssüf ki, MDB məkanında, xüsusilə Ermənistanda belə şeylər baş verib. Ermənistanın keçmiş hökuməti Yerevanın mərkəzində alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət edən faşist cəllad və satqın Qaregin Ter-Arutyunyana abidə qoymuşdu. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qismi Ermənistanın əvvəlki rəhbərliyinin bu addımına dəfələrlə sərt etiraz ediblər.

Prezident Rusiya Xarici İşlər Nazirliyinin 2019-cu ilin may ayında çıxan “Nasizmin qəhrəmanlaşdırılması ilə bağlı vəziyyət” adlı hesabatından da sitat gətirib:

“Xüsusilə bu hesabatda deyilir ki, Ermənistanın keçmiş hakim Respublika Partiyası Qaregin Njde kimi millətçi siyasətçinin xatirəsini əbədiləşdirmək üçün addım atdı. Burada Üçüncü Reyxlə əməkdaşlıq haqqında məlumat var. Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir”.

İlham Əliyev Qaregin Njdenin Sovet hökuməti tərəfindən sonradan həbs edildiyini və Vladimirsk həbsxanasında öldüyünü xatırladıb: – "Təəssüf ki, Ermənistanın yeni hökuməti bu abidəni demontaj etməyib. Hesab edirəm ki, faşizmin qəhrəmanlaşdırılmasına MDB məkanında yer yoxdur".

Prezident öz nitqində Azərbaycan xalqının faşizm üzərində qələbəyə layiqli töhfə verdiyini də xatırladıb.

"Azərbaycanın 600 mindən çox oğul və qızı İkinci Dünya Müharibəsi cəbhələrində döyüşüb. Onların yarısı qələbə uğrunda canlarını qurban veriblər. Müharibə illərində şücaət göstərən 130-dan çox Azərbaycan nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 170 mindən çox əsgər və zabitlərimiz orden və medallarla təltif edilib".

Prezidentin sözlərinə görə, Azərbaycan neftçiləri cəbhəni hərbi texnika üçün lazım olan yanacaqla təmin edib. – "Azərbaycan bütün ölkəni yanacaqla təmin etdi. Cəbhə üçün zəruri olan neftin 70 faizi, benzinin 80 faizi, mühərrik yağlarının 90 faizi Azərbaycan tərəfindən təmin edildi. Bunlar olmadan Sovet ordusu düşmənə qalib gələ bilməzdi. Faşistlər Bakını ələ keçirsəydi, Sovet ordusu qələbə üçün lazım olan yanacaqla təmin edilməyəcəkdi. Sovet hakimiyyəti belə fövqəladə vəziyyətdə neft quyularını minalamışdı ki, düşmənin əlinə keçməsin. Yəni yüz minlərlə qurban ola bilərdi".

O, Azərbaycanın elm xadimlərinin faşizm üzərində qələbəyə verdiyi yüksək töhfəni də qeyd edib.- "Beləliklə, böyük azərbaycanlı alim Yusif Məmmədəliyev "Molotov kokteyli" kimi maddəni icad etdi. Bu barədə az adam bilir, amma bu həqiqətdir. Düşmən üçün kabusa çevrilən məşhur "Katyuşa" və digər silahlar gecə-gündüz Bakı fabriklərində istehsal olunurdu".

İlham Əliyev vurğulayıb ki, Azərbaycan ölənlərin xatirəsini ədəbiləşdirir və müharibə veteranlarına qayğı göstərir.

Göründüyü kimi Ermənistan adlı dövlət faşizmin təcəssümü kimi tanınan ölkələrin siyahısındadır və hər cür lənətə layiqdir. On illər ərzində biz yaradıcı insanlar II Dünya müharibəsinin azərbaycanlı qəhrəmanlarına çoxlu sayda yazılar və kitablar həsr etmişik. Bu kitablar bizim illərlə apardığımız araşdırmaların nəticəsi olaraq ərsəyə gələrək oxucuların ixtiyarına verilmişdir. Tarixin yaddaşından silinməkdə olan, öz həqiqi qiymətini ala bilməyən bu qəhrəmanlar bizim xalqın unudulmaz övladlarıdır və bəşəri ideyalar uğrunda vuruşub bu məhəbbəti qazanmışdır. Bu qəhrəmanlar həqiqətən də gənc nəsillər üçün bir örnək yeridir. Növbəti yazılarımızda bu sahədə gördüyümüz işlər barədə və qarşımıza çıxan çətinliklərdən söhbət açılacaqdır.

## II Dünya müharibəsinin qəhrəmanları dövrü mətbuatda və əsərlərdə

Bu gün kütləvi informasiya vasitələrində II Dünya müharibəsində igidlik və əsgəri rəşadət göstərmiş azərbaycanlı qəhrəmanlar haqqında çox az materiallara rast gəlinir. Sanki onlar unudulmuş, yaddan çıxmışdır. Əslində belə deyildir. Sadəcə, müasir yazarların böyük qismi o dövrün qəhrəmanları haqqında nəsə yazmağı artıq şey hesab edirlər. Bundan ötrü özlərinin "qızıl" vaxtını sərf etməli, axtarışlar aparmalı, yada, sadəcə onları sevərək bu əziyyətə qatlaşmalıdırlar. Bununla belə, nadir hallarda olsa da, belə materiallara rast gəlmək mümkündür. Bu yazılar adətən, artıq illər ərzində tanınmış qəhrəmanlara həsr olunur. Lakin, öz layiqli qiymətini almamış, yaddan çıxmış qəhrəmanlar da olmuşdur ki. əslində onların qələbəyə verdiyi töfhələr də yazılarda öz əksini tapmalı,

ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Bu həm də yetişən gənc nəslin vətənpərvərlik və hərbi - vətənpərvərlik tərbiyəsinə də böyük bir töhfə olardı. Bu kitabda Böyük Vətən müharibəsinin qəhrəmanları haqqında apardığımız araşdırmalar əsasında qənaətə gəldiyimiz fikirlərimiz, müşahidələrimiz, tapıntılarımız, kütləvi informasiya vasitələrində dərc olunmuş yazılar yer alıb.

İndi azadlıq və demokratiya işığında dünyanın bir sıra mətbu orqanları Hitlerin və hitlerçilərin mənfur simasını qəhrəman obrazında dirçəltmək istəsələr də və buna təkrar-təkrar cəhd etsələr də, onların bu istəyi onların timsalında yüzlərlə qəhrəmanın, faşizmin dünyada kökünü kəsmiş, onun ağalığına son qoymuş və faşizmi məhv etmiş igid oğulların adının böyüklüyü qarşısında kölgədə qalır. Bu igidlər ölməz, unudulmaz qəhrəmanlardır. Onların yenilməz ruhu qarşısında dünya hələ də baş əyir.

Milyonlarla insan üçün "yeni dünya" nə qədər cəzbedici və maraqlıdırsa, o dövrün qəhrəmanlarının uğrunda öldüyü və ya sadəcə mübarizə apardığı ideyalar da bir o qədər maraqlı və cəzbedicidir. Vətən, torpaq, xalq anlayışı həmişə insanları vətənpərvərliyə çağıran anlayışlar olub. İnsanlar əsrlər boyu bu ideyalar uğrunda çarpışıb, mübarizə aparıb və yeri gələndə öz şirin canlarını belə əsirgəməyiblər. Onlarla millətlərin nümayəndələrini bu cəbhədə-faşizm əleyhinə mübarizə meydanında birləşdirən əsas ideya da Vətən, torpaq, xalq anlayışından daha üstün, daha qiymətli dəyərlər - bəşəriyyəti bu müharibənin səbəbkarlarından, istilaçılarından xilas etmək olub. Elə bu səbəbdən də, II Dünya müharibəsinin bitməsindən 80 il ötsə də, həmin mübarizənin qalibləri olmuş şanlı əsgərlərin adı hörmətlə anılır. Onlar hələ bundan sonrakı onilliklər ərzində də yetişən

gənc nəsillərin tapındığı yer, qəhrəmanlıq və şücaət simvolu olacaqlar.

Onların gördüyü işlər, bəşəriyyət naminə göstərdiyi xidmətlər unudulmazdır. Onlara verilən qiymət və münasibət həmişə dəyişilməz olaraq qalacaqdır.

## Uzun işin uzun təfsilatı-Biz axı niyə beləyik?!.

Yazdıqlarımız yazılar, irəli sürdüyümüz təşəbbüslər niyə cavabsız qalır? Bunun görəcəyimiz, böyük əhəmiyyət daşıyan-həyatımızın bir hissəsi olan, düşüncəmizə hakim kəsilən mühüm məsələlərə nə dərəcədə mənfi təsirləri vardır?

Biz həqiqətən də vətənpərvər xalqıq. Bunu əvvəllər də sübut etmişik, 44 günlük Vətən müharibəsində də sübut etdik. Vətəndaş şüuru daha pik nöqtədə özünü biruzə verəndə vətənpərvərlik hissləri günün vacib tələbatına çevrilir.
Başqa sahələrdə olduğu kimi jurnalistikada da görülən işlər hər bir insanın daxili mənəvi aləminin göstəricisidir. Etmtv. news portalında da gedən yazılar bizim mənəvi aləmimizi, düşüncələrimizi əks etdirir. Portal vətənpərvərlik tərbiyəsinin aşılanması yolunda var gücü ilə çalışır, öz səhifəsində vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinə geniş yer ayırır. Bu səbəbdən vətənpərvərlik tərbiyəsi ilə bağlı yazılar, vətənpərvərlik və hərbi-vətənpərvərlik ruhunda videomateriallar, kitablar hazırlanaraq, oxuculara təqdim edilir. Amma bəlkə də heç kim bilmir ki, bu sayt tək bir nəfərin, yəni mənim çiyinlərim üzərində yaşayır, fəaliyyət göstərir. Çünki.. mənəvi aləmimiz yalnız bizi düşündürən məsələdir. Digər "jurnalistlər" üçün başqa mənəvi tələbat mövcuddur və bu planda onlarla bizim fikirlərimiz üst-üstə düşmür.

Bu gün söhbət atdığımız addımların mütərəqqi xarakteri ilə yanaşı, bizə göstərilən pis münasibətin görəcəyimiz, yaxud gördüyümüz işlərə öldürücü təsirindən gedəcək.
Bu, elə bir sahədir ki, qısa cümlələr, məlumatlar ilə izhar etmək mümkün deyildir. Uzun işin qısa təfsilatı ilə oxucular söhbətin məhz nədən getdiyini anlamaya da bilər. Bu, elə bir ağrılı

sahədir ki, hazırladığımız onlarla yazılar belə işin əsl mahiyyətini açıqlamaqda acizdir. Çünki… vətənpərvərlik tərbiyəsi ilə bağlı bir çox işlər həmişə bu sahəni təmsil edən insanların məsuliyyətsiz əməlləri ilə yarımçıq qalmış olur. Onlarda bu istək nə üçün yoxdur? – sualı isə başqa söhbətin mövzusudur.

Saytımızda gedən “Gəncə müxbirləri üçün “Qızıl Dana” yazısı da böyük rezonans doğurdu. Dediklərinə, yazdıqlarına görə doyunca gülüblər. Amma iş təkcə gülüşdə, özü də öldürücü gülüşdədirmi? Bu, bizim də təmsil etdiyimiz cəmiyyətin mənəvi aləminin hansı səviyyədə olduğunun göstəricisidir. Yazıda adı çəkdiyimiz insanın mənəvi boşluğu və bundan doğan faciədir. İş tək bir dəfə aldanmaqla bitmir. Onu bu gün də aldadırlar. Bildiyimizə görə həmin “qrup” yenə də iş başındadır. Bu dəfə başqa formada və formatda. Amma onun bu işdən xəbəri yoxdur və olmayacaq da. Çünki, Ostap Benderin “bacısı uşaqları” öz hədəfində yanılmır və müasir Koreykonun yenə də onlara pul buraxacaqlarına əmindirlər.
Traqik komediyadırmı? Həm də ağlamalı və gülməli! Yaşayarıq, görərik!

2019-cu ildə Böyük Vətən müharibəsinin azərbaycanlı qəhrəmanları haqqında kitab üzərində işləyirdim. Apardığım araşdırmalar zamanı bir çox həmyerlimizin tarixdə iz salan qəhrəmanlıqları barədə məlumatlar əldə etdim. Bu məlumatlar kitabda da öz əksini tapıb. Söhbət Brest qalasının gədəbəyli müdafiəçilərindən gedirdi. Yazılarımda bildirirdim ki, bu qəhrəmanların igidliyini ermənilər öz adlarına çıxır, onların adları tarixə salınmalıdır, əbədiləşdirilməlidir. Analitik yazılar hazırlayırdım, 80 il bundan əvvəl olmuş hadisələr barədə faktlarla yazılar verirdim, insanlar bəlkə də bu mövzuya

dəfələrlə müraciət etdiyimə görə məni qınayırdılar da. Vətənpərvər azərbaycanlı kimi Gədəbəy İcra hakimiyyətinə, rayon Təhsil Şöbəsinə, Təhsil Nazirinə… kimlərə, kimlərə müraciət etməli olmuşdum. Mədəni dildə desəm… məni başdan eləmək üçün hansı addımlar atmadılar. Gədəbəyin İcra başçısına yaxın adamlarından birinə zəng etdirdim, məktub hazırlayıb ondan bu işdə yardımçı olmasını xahiş etdim. Hələ də bir cavab yoxdur. Istərdik, niyə cavab verilmədiyini açıqlasın. Başçı olduğunu bir anlıq unutsun, fikirləşsin ki, gördüyümüz iş elə onun rəhbəri olduğu rayona aiddir, bu işə yardımçı olsaydı, onun başı daha da uca, alnı daha da açıq olacaqdı. Onda Gədəbəy Təhsil Şöbəsi də müəllif ilə belə təhqiramiz formada davranmazdı. Biz cənab başçının əleyhinə deyilik, hətta ona hörmətimiz də sonsuzdur. Bununla belə, atdığı addımın hansı gözəl bir işə maneəçilik etdiyini ona bu yolla başa salmağa məcburuq!

Brest qalasının azərbaycanlı qəhrəmanları barədə araşdırmalarıma çoxlu sayda yazılar həsr olunub. Onlardan birini sizlərə təqdim edirik:

Gədəbəyin Təhsil Şöbəsinin müdiri, cənablar cənabı Murad bəy! Brest qalasına gedib muzey-kompleksdə arxivdə işlədiyimizi biləndə "o kitablara ehtiyacımız var, həm də satışını təşkil edib, sizə yol xərcinə dəstək olarıq" deyib, o kitabları düz il yarım Təhsil Şöbəsində saxlatdırdı, axırda biz… demək olar ki, yalvarıb kitabları geri ala bildik. İl yarımdan sonra! Onda heç pandemiya üfüqdə də görsənmirdi… Həyasızlığın dərəcəsinə bax, hələ bir deyirmiş ki, bu kitabda Gədəbəyə aid bir sətir belə yoxdur.Əlbəttə, kitabı açıb heç içinə də baxmayıb. Neynir ki, baxmağı. Onun mənəvi təlabatı ilə uzlaşmır yəqin!

Təyyarəyə bilet pulunu verdik kitabın yeni dərcinə və qaldıq yol pulusuz…Həmin yeni il qabağı Brestə gedə bilsəydim, görəcəyimiz iş yarımçıq da qalmazdı. Muzeyə direktor keçmiş bir erməni balasının Brest Qalasında fəaliyyət göstərən muzeydə bizim igidlərinn göstərdiyi qəhrəmanlıqları öz erməni babalarının adlarına çıxan aylarda müəllif Ruhulla Zahidov da Gədəbəy rayon Təhsil Şöbəsində ələ salınırdı…İndi onlar bizə hansı azərbaycançılıqdan, vətənpərvərlikdən söhbət aça bilər? Dünya bir ola, onsuz da onlara inanmaq istəməzdim. Necə deyərlər, aşıq gördüyünü çağırar!

Sən saydığını say, gör fələk nə sayır- deyiblər. İş elə gətirdi ki, Gədəbəy Təhsil Şöbəsinin bəyənmədiyi kitab məşhurlaşdı, hətta xarici dövlətin səfirliyi səviyyəsində bu kitabdan istənildi… Vətənpərvərlik tərbiyəsi ilə bağlı araşdırmalarıma, vətənpərvərlik tərbiyəsindəki xidmətlərimə görə Respublika Veteranlar Təşkilatının xüsusi mükafatı, medal ilə təltif edildim. Amma Gədəbəy rayonunun İcra başçısı cənab İbrahim Mustafayev onsuz da bilməyəcək ki, o işdən ötrü ki, müəllif ondan kömək gözləyirdi və heç insan yerinə də qoyulmadı, Azərbaycanın Belarusdakı səfiri, çox hörmətli Lətif Qəndilov tərəfindən səfirlik səviyyəsində məsələ qaldırılıb və elə kitabda və yazılarımda haqqında həyəcan təbili çaldığım igid gədəbəylilərə Brest qalasında xatirə lövhəsinin qoyulması barədə yaxın günlərdə şad xəbərlər eşidəcəyik. Müəllif kimi işimizi və missiyamızı yenə də davam etdirəcəyik, yenə də vətənpərvərlik hisslərimizi ən yüksək formada biruzə verəcəyik, amma bilirik, vətənpərvərlik hissi hər kəsə verilən xöşbəxt cəhətlərdən deyil və Gədəbəy rayon Təhsil Şöbəsinin rəhbərliyi də bu hisslərdən məhrumdur. Əgər bəhanələri varsa, buyursunlar, əleyhimizə nə qədər desən gop-yalanlar yazıb

göndərsinlər. Mən portal rəhbəri kimi bu yazını da həvəslə dərc edərəm.

Bu, yalnız deyə biləcəyim əhvalatın yalnız bir hissəsidir. Bəs ötən yazıdakı Süleyman bəyin bu yazıya nə aidiyyatı var?.. Həmin dövrdə o da zəng etdiyim insanlar sırasındaydı. Zəng vurub xahiş edirdim ki, kitablarımın geri alınmasına kömək etsin, bu kitablar Belarusun və Rusiyanın Azərbaycandakı səfirliklərinə təqdim ediləcəkdir… İnsan axırda heç zənglərimə belə cavab vermirdi. Başı qarışmışdı Ostap Süleyman Berta Mariya Bender Bəyin bacısı uşaqlarına… Benderin bəxtinə bax, tərəfdaşları nə çoxdur elə…

Bizlər isə hələ də xeyirxah işimizi davam etdirmək və Brest şəhərinə gedib araşdırmalarımıza son nöqtə qoymaq üçün maddi vəsait axtarırıq…

## Gəncə müxbirləri üçün "Qızıl Dana"- İlf və Petrov tramvayda gedirdilər

2 il bundan öncə Gədəbəy rayon Təhsil Şöbəsində qəribə, eyni zamanda traqikomik bir hadisə baş vermişdi. Gəncəni təmsil edən yalançı jurnalistlər Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Gədəbəy rayon Komitəsinin sədri Süleyman bəy ilə möhkəm "toqquşmuşdular". Səbəb- fırıldaqçı jurnalistlərin ona saxta media mükafatını pul müqabilində "sırıma"sı olub.

Onlar "AzTv. News" saytının eyni adlı telekanala məxsus olduğunu iddia edir, qabaqcadan öz qurbanlarını seçir və onların tamahkarlığından, savadsızlığından, şöhrətpərəstliyindən və sadəlövhlüyündən (vəzifə adamlarının əksəriyyətinə xas olan xüsusiyyətlərdir, elə deyilmi?) istifadə edərək, pul qazanırdılar. Həmin dövrdə biz Etmtv.news olaraq onlar haqqında araşdırıcı yazılar hazırlayırdıq. Qəribə də olsa,

fırıldaqçıların qurbanına çevrilmiş bu insanların heç biri öz səhvini başa düşmür, hətta, bizdən inciyirdilər də. Onların içində təhsil işçiləri də vardı, səhiyyə işçiləri də, məmurlar da. Hamısı da rəhbər işçilər idi. Necə deyərlər, su axırdı, çuxurunu tapırdı.

Qısa desək, özgə vaxtı savadlı olduğunu hər cür biruzə verən Süleyman bəy qaçır Gədəbəy rayon İcra hakimiyyətinin başçısının yanına ki, bəs sabah saat 12-də AzTV-də mənə yüksək media mükafatının təqdim olunması göstəriləcək…
Dalısı həm gülməlidir, həm də ağlamalı!.. Başçı da düz 12-də oturur televizorun qarşısında. Bir saat, iki saat… nə isə, Süleyman bəy deyilənə görə başçıdan möhkəm təpki alır… Bu hadisə bir müddət Gədəbəydə, eləcə də Gəncə də gülüş hədəfinə çevrilir.

Çox güman ki, nə Süleyman bəyin, nədə ki, bir çox indiki müxbirlərin xəbəri olmadığı Ostap Bender kimi bir əsər qəhrəmanı var. "12 stul" və "Qızıl Dana" adlanan əsərlərin qəhrəmanlarının müasir dövrdəki prototipləri olan insanlar indi də vardır və həmişə də olacaqdır. Onu istənilən dövrdə oxusan, "sanki, bu dövr üçün yazılmışdır", demək mümkündür. Əsəri ölməz edən cəhətlərdən biri də elə budur.

İlf və Petrov- sovet satirik yazıçılarıdır. Onlar "12 stul"(1928) və "Qızıl Dana" (1931) kimi məşhur əsərlərin müəllifləridir. Hər iki əsər "böyük kombinator"-fırıldaqçı Ostap Benderin sərgüzəştlərinə həsr olunub. Bu əsərlər illər ərzində onlarla xarici dillərə tərcümə olunub və dünyada tanınmış ədəbiyyat inciləridir.

Bəs Ostap Bender kimdir və Gəncənin məşhur fırıldaqçı "zurnalist"lərinə hansı dərəcədə bağlılığı vardır. Sadəcə, onlar

ilə Böyük kombinatorun əməllərində və istəklərində çoxlu sayda oxşarlıqlar vardır, vəssalam.

Aşağıda bu məşhur əsər haqqında verdiyimiz məlumatlarda siz gündəlik həyatda rastlaşdığınız "müxbir"lərə aid olan çoxlu sayda əlamətləri sezəcəksiniz. Bu müxbirlərə Azərbaycanın hər yerində rast gəlmək olar.

Ostap Bender (özü-özünü adlandırdığı kimi - Ostap Süleyman Berta Maria Bender Bəy, yaxud Bender-Zadunayski, sonrakı romanlarda isə Ostap İbrahimoviç Bender) xarici görkəmcə cazibədar, bacarıqlı, təşəbbüskar, xarakterli bir fırıldaqçıdır, məqsədinə çatmaq üçün qanun çərçivəsində fəaliyyət göstərir və həmişə də istəyinə nail ola bilirdi. Həmmüəlliflərin dili ilə desək, "Bender, əhalini pulları ilə birləşdirməyin 400 nisbi qanuni yollarını bilirdi".

Sovet həyatının müəyyən elementləri "Qızıl Dana" əsərində geniş bir satira ilə təqdim ediib. Əsərdə Bender milyoner Koreykonu izləyir, onun milyonlarını ələ keçirtməyi və beləliklə də böyük bir sərvət qazanmağa ümid edirdi. Bender pulu ələ keçirir, amma tezliklə SSRİ-də xərcləyə bilməyəcəyini aşkar edir. Rumıniya sərhədini keçərək, ölkədən qaçmağa çalışarkən, onu itirir. Daha doğrusu, sərhədçilər onu tutub, var-dövlətini əlindən alır.

Bender təhsillidir, analitik düşüncəyə sahibdir, enerjilidir-bir uğursuzluğa düçar olanda nikbinliyini qoruyar, vəziyyəti yenidən qiymətləndirməyi bacarırdı və müstəsna təşkilatçılıq qabiliyyətinə malik idi. Onu əhatə edən insanlar ilə manipulyasiya etməyi və ya sadəcə onları nəyəsə məcbur etməyi üstün tuturdu.

Bircə "savadlı" sözündən başqa əsərdəki fırıldaqçılara aid olan bütün əlamətləri Gəncənin "müxbirləri"nə də aid etmək

olar. Savad onlar üçün əlçatmaz röya kimidir. Əvəzində başqa digər üstün cəhətlərə malikdirlər. Əgər Bender sağ olsaydı, mütləq onları "qanadı altına alardı". Bəlkə də onlar Ostap Benderi, nə bilmək olar?..Koreykonun öz sərvətini ustalıqla gizlətmək bacarığı isə indiki məmurlarda yoxdur. Onlar öz sərvətini, daha çox nümayiş etdirmək bacarığı ilə seçilirlər…

Ostap Benderin əsərdə işlətdiyi ifadələr elə indi də öz aktuallığını qoruyub saxlamaqla, günümüzün oxşar reallığını əks etdirir və zərb-məsəl kimi istifadə edilməkdədir.

-"Bəlkə pulumu saxladığım mənzilin açarını da sənə verim?" ("Mojet bıть, tebe дать ещё ключ от квартиры, где деньги лежат?") – əsassız istəklərə bir töhmət olaraq deyilir.

-"Güclü olun. Qərb bizə kömək edəcək." ("Крепитесь. Запад нам поможет.") – vəziyyətin ümidsiz olduğuna dair ironik bir eyham.

-"Səhər pul, axşam stul." ("Утром деньги, вечером стулья.") – əvvəlcədən ödəməyə dair zarafatlı bir ipucu.

-"Boğulan insanlara kömək etmək vəzifəsi, boğulan insanların öz əllərindədir, bizim işimiz deyil"-Qeyd edək ki, bu sitat Rusiyanın xarici sərmayəçiləri cəlb etməyə çalışarkən, ölkə kapitalının ölkədən çıxarıldığı situasiyada deyilib.

-"Buzlar sındı, cənab münsiflər heyəti!" ("Лёд тронулся, господа присяжные заседатели!") – çıxılmaz vəziyyətdən, qeyri-müəyyənlikdən və ya durğunluqdan sonra bir şeydə irəliləmənin başlanacağını elan etmək.

-"Zəhmət olmasa, alqışlamayın. Mən Qraf Monte Kristo ola bilmədim. Gərək Jek müdiri olmağa çalışam. ("Pridetsya переквалифицироваться в управдомы ») – böyük planların çökməsi kimi fikirlərə eyhamdır…

# Brest qalasının azərbaycanlı qəhrəmanları- onlar haqqında nə bilirik?!.

**Brest Qalasının qəhrəmanlıq dolu müdafiəsində canlarını qurban vermiş igid həmyerlilərimizə həsr olunur.**

Qəhrəmanlıq hansı dövrdə və hansı şəraitdə göstərilirsə göstərilsin o, mahiyyətcə elə ən ali və nəcib hərəkət olaraq qalacaqdır.Tarixin bütün səhifələri bu növlü, lakin müxtəlif şərait və məkanda baş vermiş qəhramanlıqlarla doludur.Bu, ibrət götürmək üçün şanlı səhifələrdir.

1941-ci il iyun ayının 22-də müharibə elan etmədən Sovet torpağına soxulmuş faşist qoşunları elə ilk gündən müxtəlif millətlərin təmsilçiləri olan sovet əsgərlərinin müqavimətinə rast gəldilər. Böyük Vətən müharibəsinin elə ilk anlarında Brest qalasında başlanan qəhramanlıqla dolu bu mübarizə minlərlə naməlum və məlum əfsanəvi əsgəri rəşadətə və şücaətə təkan verdi.

II Dünya müharibəsinin qəhramanlarının heç də hamısı yaddaşlarda qalmayıb.Onların çoxu adsız həlak olub.Tarixdə onlar naməlum əsgər adlandırılırlar. Bir çox hissəsi isə təvazökarlıqdan göstərdiyi şücaətlər haqqında danışmamış, əsgəri rəşadət tarixçələrini adi əsgər borcu sanmışdır. Lakin, müəyyən hissəsi sonralar xatirələrdə yenidən canlanmış və onların göstərdiyi şücaətlər insanlara bəlli olmuşdur.

Brest qalasında gedən döyüşlərdə çoxmillətli döyüşçülərin göstərdiyi qəhrəmanlıq artıq tarixə düşmüşdür. Bu döyüşçülərın arasında Azərbaycanın igid oğullarının göstərdiyi əsgəri rəşadət və şücaət xüsusi yer tutur.

**Müharibənin başlandığı gün**

Faşist artilleriyasının birinci yaylım atəşi guruldayan zaman Brest qalası sakit, şirin yuxuda idi.Təkcə, çayın sahilindəki

kolların arasında uzanmış sərhəd gözətçiləri və qalanın həyətindəki gecə növbətçiləri hələ qaranlıq olan səmanın qərb tərəfində parlaq bir alov görüb getdikcə yüksələn qəribə bir fit səsi eşitdilər. Bir an sonra yüzlərlə mərmi və minanın partlayış gurultuları torpağı titrətdi.

Bu, dəhşətli bir mənzərə idi. Şirin xəyallar içində yuxuya getmiş döyüşçü və komandirlər qəflətən odla ölüm içərisində yuxudan dik atılıb oyandılar.Onların çoxusu özlərinə gəlmyə macal tapmamış, ətrafda nələr baş verdiyini dərk etmədən, elə ilk saniyələrdəcə həlak oldular.

Partlayışların parıltılı alovunun deşib keçdiyi qalın tüstü və toz örtüyü qalanı bütünlüklə bürüdü. Evlər uçur və yanır, insanlar alov içərisində, xarabalar altında həlak olurdular. Qalanın şimal hissəsində komanda heyətinə məxsus evlərin və mərkəzi adadakı sərhəd komendaturası binası yanında ağlını itirmiş yarıçılpaq uşaqlı qadınlar çığıraraq həyətdə vurnuxur, mərmi qəlpələri ilə yaralanıb yıxılırdılar. Kazarmalarda qana boyanmış taxtaların üstündə yaralılar inildıyir, silahlı və silahsız döyüşçülər arasıkəsilməz, getdikcə artan artilleriya atəşi və bombardmandan sığınacaq axtararaq ,tələsik pilləkənlərlə aşağıya, zirzəmilərə qaçırdılar. Bu qarışıqlıq kazarmalarda komandirlərin olmaması ucbatından daha da artırdı.Şənbə və bazar günlərini komandirlər öz ailələri ilə keçirirdi, döyüşçülərlə yalnız bir neçə yüksək rütbəli zabitlər, serjant və starşinalar qalmışdı. Düşmən qəfil hücumun bütün üstünlüklərindən istifadə etməyə tələsirdi. Sol sahil kolluqlarındakı toplar hələ atəşi davam etdirir, 45-ci piyada diviziyasının qabaqcıl hücumçu - avtomatçı dəstələri isə artıq rezin qayıq və pantonlarla Buq çayını keçib Brest qalasına - Qərb və Cənub adalarına soxulurdular.

Rəsmi sənədlərdə Brest qalasının müharibənin ilk dəqiqələrində qarşılaşdığı vəziyyət belə təsvir olunur. Qala müdafiəçiləri müharibənin amansız, ağlasığmaz qəddarlığı ilə üz-üzə, demək olar ki, əliyalın qalmışdı. Lakin qalanın müxtəlif yerlərində müdafiə ocaqları yarandı və əsgərlər azsaylı komandirlərin rəhbərliyi altında hücum edən düşmən qoşunlarına qarşı son damla qanınadək mübarizəyə başladı. Xolm darvazası adlanan yerdə belə müdafiə ocaqlarının birinə polk komisarı Yefim Fomin başçılıq edirdi və bu dəstənin üzvlərinin böyük hissəsini azərbaycanlı döyüşçülər təşkil edirdi.

Alman topları hələ də qalanı atəşə tutur, alman təyyarələri havadan müdafiə ocaqlarını sıradan çıxarır,düşmən piyadaları bütün sahələrdə hücumunu davam etdirirdi. Ardı-arası kəsilməyən bombardmanlardan sonra, düşmən orada bir canlının belə qalmadığını düşünürdü. Amma bir neçə dəqiqə keçdikdən sonra pulemyot və tüfəng şaqqıltıları yenidən eşidilirdi. Almanlar top və minaatanlarla iyunun 30-dək qalanı döyəclədilər…

Komisar Fominin bacarıqlı rəhbərliyi ilə dəstə müdafiəni rəşadətlə davam etdirirdi. Onun Xolm darvazası yanında müdafiə mövqeyi tutmuş dəstəsində onlarla azərbaycanlı qəhrəmancasına vuruşurdu. Onlardan biri də əslən Gədəbəyin Çaldaş kəndindən olan Xəlil Haqverdiyev idi.Onun qəhrəmanlığı “Hünər” kitabında geniş təsvir olunur. O, qalanın müdafiəsində misilsiz rəşadət göstərmiş, adı qalanın döyüş tarixinə düşmüş yeganə azərbaycanlılardan biridir. Brest qalasında onun məzarı üstündə memorial lövhə qoyulmuşdur.

-“Xəlil Haqverdiyev və yoldaşları sahildə əlverişli mövqe tutub faşistlərin körpüyə doğru hərəkətini mətinliklə

saxlayırdılar.Uzaqdan düşmən tankları göründü, arxalarınca da çoxlu piyada gəlirdi.Tanklardan biri irəli çıxıb almanların hücumunu surətləndirdi. Komisar Fominin "geriyə" əmrindən sonra döyüşçülər ara-sıra atəş açmaqla körpüyə tərəf süründülər.Tankdakılar pulemyotdan atəş açır,igid əsgərləri biçib-tökürdülər.Xəlil ən yaxşı döyüşçülərin həlak olduqlarını görüb qəzəblənirdi. O, fikirləşib əlverişli yer axtarırdı. Muxavetsin sahil qayalığını seçdi və sürünüb orada gizləndi.Tank bərabərinə çataçatda Xəlil əlindəki qumbaranı onun tırtılı altına atdı.Partlayış zərbəsindən tank yerində silkələnib dayandı, sonra alovlanıb yanmağa başladı.Tankçilar xilas olmaq üçün qüllədən çıxanda igid eloğlumuz ikinci qumbaranı düz onların üstünə tulladı.

Geriyə çəkilən Haqverdiyev körpünün faşistlər tərəfindən tutulduğunu gördü.İkinci tank döyüşçülərimiz üzərinə od yağdırır,onları biçib tökürdü. Xəlilin qəfildən tankın iki addımlığında görünməsi faşistləri çaş-baş saldı. Bircə anda tank irəli sıçradı və elə onda da dəhşətli gurultu qopdu.Xalqımızın məğrur oğlu Xəlil Həmzə oğlu Haqverdiyev düşmənə ölüm töhfəsini öz əlləri ilə "bəxş etməyi" üstün tutdu." - Məmməd Kazım özünün "Hünər" kitabında onun qəhrəmancasına həlak olduğu anları belə təsvir edir.

Qalanın müdafiəsində azərbaycanlı döyüşçülər komisar Fominin ən sədaqətli və yaxın silahdaşları olmuş və həmin dəstənin özəyini təşkil etmişlər.-"Qala divarlarının yaxınlığında münasib yer seçmiş Nəbi Məmişov pulemyotla düşmənin qarşısını saxlayır, müdafiəçilərin qalaya çəkilmələrinə şərait yaradırdı. Necə oldusa pulemyot susdu. Ənvər Mansurov dostunun torpağa düşmüş başını qaldıranda onun

üzünü qan içində gördü.Tez pulemyotun arxasına keçdi.Bütün nifrət və qəzəbi ilə pulemyotun tətiyini basdı.

-Al,alçaq,bu Xəlilin payı,bu Nəbinin payı,bu Qaçayın payı…Haradansa Allahverdi İmanov da özünü çatdırdı. Pulemyotun üstünə düşüb partlayan top mərmisi onun sözünü eşidilməz etdi.Top mərmisi Ənvərlə,Allahverdi ilə yanaşı onlarca digər gənc ömrünün də şirin ahəngini kəsdi.”- kitabda qeyd edilir.

Bu mübarizədə komissar Yefim Fomin ayağından yüngül yara alsa da,qalaya sağ-salamat qayıtdı. Həmyerlilərimizdən Mixail Rudanovski, Dadaş Dadaşov, Xəlil Məmmədov, Qəmbər Teymurov,Aslan Qafarov,Musa İsmayılov,Muxtar Məmmədov və başqaları döyüş meydanından özlərilə xeyli silah gətirmişdilər.Qənimət hitlerçilərdən alınmışdı.

Almanlar böyük dəstələrlə körpüdən keçməyə başlamışdılar. Komissar narahatlıqla Dadaşovu çağırıb dedi:- Serjant, körpünü partlatmaq lazımdır.

Nəqliyyat rotasının əsgəri Aslan Qafarov yaxında olduğundan verilən tapşırığı eşitdi.

-Parkın qarşısında yararsız bir top var,bəlkə işə yarayar - dedi. 3-4 dəqiqə keçməmiş topu uçulmuş qala divarı yaxınında atəşə hazırladılar.Cəmi 3 mərmi vardı. Birinci və ikinci atəşlə hədəfi vurmaq mümkün olmadı.Üçüncü atəşdə körpü taxta və metal parçalarına dönüb, havaya sovruldu. Körpü ilə birlikdə neçə-neçə hitlerçi də həyata həmişəlik vida dedi.

Müdafiənin doqquzuncu günü isə vəziyyət tamamilə dəyişdi. Düşmən aviasiya ilə qalanı ağır tonnajlı bomba ilə atəşə tutdu.Şiddətli artilleriya atəşlərindən sonra faşistlər onsuz da sayı və qüvvələri tükənməkdə olan qala müdafiəçilərinin üzərinə hücuma keçdilər.Komisar Fomin

başda olmaqla onlarca qəhrəman yaralı vəziyyətdə düşmənin əlinə keçdi.Onların içərisində Muxtar Qədirov,cəsur döyüşçü Xəlil Məmmədov, Alay Quluyev və başqaları da vardı.

Brest qarnizonunda taleyi bu günədək müəmmalı qalan yüzlərlə döyüşçülər var. Muzeydəki arxiv sənədləri, yazılı xatirələr onların bir çoxlarının hətta əsirlik şəraitində də özlərini mərd və dəyanətli apardıqlarından xəbər verir. Belə igidlərdən biri də Gədəbəy rayonunun Rəsullu kəndindən əsgəri xidmətə getmiş müəllim Xəlil Məmmədov idi. Əsirlərin dindirildiyi vaxt o bir nəfər satqının komisar Yefim Moiseyeviç Fomini ələ verdiyini görür.Faşist zabiti bayıra çıxan kimi Xəlil satqının üzərinə atılır və boğazından yapışıb boğur. Bu əhvalat "Brest qalası" bədii filmində də əks olunmuşdur. Heyf ki, "Brest qalası" kitabının müəllifi S.S.Smirnov öz kitabında bu əsgərin kimliyi haqqında bir söz deməmiş, qəhrəmanın adı naməlum qalmışdır. Ümumiyyətlə, sanki bu kitabda azərbaycanlıların adının çəkilməsinə veto qoyulmuşdur. Daniyal Abdullayevdən başqa Brest qalasının qəhrəmanlıqla dolu müdafiəsində canlarından keçmiş və ya sadəcə igidliklə vuruşmuş bir azərbaycanlının adı belə çəkilmir. Biz bu məlumatlarla yalnız sevimli jurnalist, sovetlət dönəmində milli televiziyada "Hünər" verilişinin aparıcısı olmuş Məmməd Kazımın eyni adlı əsərindən tanış ola bilirik. Onu da diqqətinizə çatdıraq ki, bu qeydlər rəsmi sayıla bilər və sovetlər dönəmində nəşr olunmuş kitabdandır.

Brest qalasında, Xolm darvazalarından bir qədər aralıda kazarmanın güllələrlə dəlmə-deşik edilmiş divarına mərmər lövhə vurulmuşdur.Lövhədə polk komisarı Yefim Fominin burada hitlerçi cəlladların əlindən ölümü cəsarətlə qarşıladığı yazılmışdır.

Əzablı əsirlik həyatının iradəsini qıra bilmədiyi bakılı həkim Muxtar Qədirov Byala-Podlyaska düşərgəsində neçə-neçə yaralını və xəstəni yenidən həyata qaytarmışdı.

Eloğlularımızdan bir neçəsi də müharibə faciələrinin təlatümlü dalğalarından xilas olub doğma yuvalarına qayıda bilmişdilər.

Müdafiənin sonuncu günü Daniyal Abdullayevlə Boris Mixaylovski həmin dəhşətli gecədə yaralı vəziyyətdə çayda xeyli üzürlər.Faşistlərin tələblərinə baxmayaraq təslim olmaq istəmirlər. Axır hitlerçilər özlərini suya salıb üstlərinə tökülüşür, onları əsir alırlar.

Gədəbəyin Novosaratovka kəndindən hərbi xidmətə gedən Boris Mixaylovski Minsk yaxınlığında qatardan düşüb qaçır və partizanlara qoşulur.1943-cü ildə döyüşdə həlak olur.

Müharibədən sonra Daniyal Abdullayev Balakən rayonunda, Alay Əliyevlə, Musa Əliyev isə Gədəbəydə əmək həyatına qayıdırlar.

Musa Əliyev Brest ətrafında fəaliyyət göstərən ilk partizan dəstəsinin yaradıcılarından biri idi.Mixail Çernyak ilə Musa Əliyev bu dəstəni olduqca döyüşkən partizan dəstəsi kimi məşhurlaşdırmışdı.

Daniyal Abdullayev S.S.Smirnovun məşhur “Brest qalası” kitabında adı çəkilən iki azərbaycanlıdan biridir. Heyfslər ki, digər qəhrəman həmyerlilərimiz üçün bu kitabda yer ayrılmamış, hətta Mixail Çernyakın adını daşıyan dəstənin yaradıcılarından birinin Musa Əliyev olduğu və Fomini satmış qızıl əsgərin məhz azərbaycanlı Xəlil Məmmədov tərəfindən öldürüldüyü göstərilməmişdir. Halbuki, adı çəkilən hər iki hadisə kitabda öz yerini almışdır.

Müharibədən sonra dostları keçmiş silahdaşları Mixail Platonoviç Rudanovskinin Şəki rayonunun Orconikidze adına kolxozdan tez-tez sorağını alırdılar.
Sultan Əzizov da müharibədə şərəfli döyüş yolu keçdi. Kobrin,Bobruysk,Qomel,Kursk,Oryol şəhərləri uğrunda vuruşdu. Müharibəni Brandenburq darvazası qarşısında başa vuran eloğlumuz, cəbhədən qvardiya mayoru rütbəsində, bir çox orden və medallarla qayıtdı. Xalqımızın dinc quruculuq və əmək həyatında yüksək vəzifələrdə çalışan Sultan Əzizov iş yoldaşlarının dərin hörmətini, ehtiramını qazanmışdı.

Xəlil Həmzə oğlu Haqverdiyev qalanın həyətindəki mərmər lövhə üzərində əbədiyyət tapdı. 1980-ci ilin əvvələrində "Belarusfilm"in yaradıcı heyəti Azərbaycana səfər edərək qəhrəman eloğlumuz haqqında "Brest qalasının qəhrəmanları" seriyasından sənədli film çəkmişdir. Gədəbəyin Çaldaş kəndindəki doğma məktəb və rayon mərkəzindəki bir küçə Xəlil Haqverdiyevin adını daşıyır…

# Brest qalasının azərbaycanlı qəhrəmanlarının adları oxuculardan necə gizlədildi?.. Bu riyakarlığın erməni səbəbkarı

Böyük Vətən müharibəsindən 80 il ötüb. Amma tarixin bu səhifəsi ilə bağlı yenə də filmlər çəkilir, kitablar yazılır. Məlum və naməlum qəhrəmanlar anılır. İndinin özündə də bu, insanlar üçün ən maraqlı mövzulardan biridir.

Bu mövzuya AZƏRTAC-da 29.01.2021-ci il tarixdə dərc olunmuş tarixli ”Brest qalası uğrunda döyüşən azərbaycanlıların xatirəsinin əbədiləşdirilməsi məsələsi müzakirə edilib” başlıqlı materialda da toxunulmuşdur. Sevindirici haldır ki, Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov qalanın azərbaycanlı qəhrəmanları barədə “Brest Qala-Qəhrəman” Memorial Kompleksinin rəhbərliyi qarşısında məsələ qaldırmış, muzeyin direktorundan alman faşistlərinin SSRİ-yə hücumunun 80 illiyi ilə əlaqədar tədbir keçirilənədək azərbaycanlı qəhrəmanların xatirəsinin əbədiləşdirilməsi işinin sürətləndirilməsini xahiş etmişdir.

Onu da bildirək ki, Brest qalasının müdafiəsində çox sayda azərbaycanlı iştirak etsə də, Brest qalasında xatirə plitələrinin üzərində adı yazılmış və muzeydə şəkli qoyulmuş yeganə həmyerlimiz Haqverdiyev Xalid **(**əslində Xəlil - müəllif**)** Qəmzə oğludur. AZƏRTAC-ın xüsusi müxbiri Emil Hüseynlinin yazdığına görə “onlarla bağlı rəsmi olaraq yalnız bir fakt məlumdur.” Əslində bu, belə deyildir. Brest qalasının onlarla məlum azərbaycanlı qəhrəmanları vardır və onlar haqqında məlumatlar hələ sovetlər dönəmində belə kitablarda öz əksini tapmışdır. Müasir dövrdə də bu qəhrəmanlar

haqqında qiymətli məlumatları öz yazılarında və kitablarında bölüşən müəlliflər vardır. Sadəcə, tarixin bu səhifəsinə maraq göstərən yazarlar azlıq təşkil etdiyindən, insanlar bu qəhrəmanlar haqqında dolğun məlumatlara malik deyillər. Ortaya çıxarılan yazılar isə, ən yüksək mövqe tutsa belə, həmin yazarların bu mövzu barədə savadsızlığı və məlumatsızlığını özündə əks etdirmişdir. Qəhrəmanın adını, üstəlik yazımızda adı çəkiləcək erməni döyüşçünün soyadını düzgün yaza bilməyən jurnalistlərimizin bu mövzu ilə bağlı məlumatsızlığı insanda ikrah doğurur.

Yazının müəllifinin qeyd etdiyi kimi, "Bununla əlaqədar 2017-ci ildən başlayaraq səfirlik muzeydə dəfələrlə görüşlər keçirib və burada döyüşən digər azərbaycanlılar barədə araşdırmalar aparıb. Muzeyin plitələrində 7 ermənin adının olması səfirlikdə sual doğurub. Aparılmış araşdırmalar nəticəsində məlum olub ki, Brest qalasının tarixini yazan Sergey Smironovun (əslində Smirnov-müəllif) məsləhətçilərindən biri burada cəmi iki gün döyüşmüş Samvel Motivasyan (əslində Matevosyan-müəllif) olub. O, xatirə plitələrinin üzərinə 7 ermənin adının yazılmasında böyük rol oynayıb. Brest qalasından bir qədər aralıda guya 200 erməninin burada döyüşdüyünə dair xatirə xaçkarı qoyulub."
Əlbəttə ki, bu araşdırmalar dəyərli tarixçilərimiz və yazarlarımız tərəfindən aparılıb və bizlər də bu araşdırmalardan bəhrələnərək, Brest qalasının azərbaycanlı qəhrəmanları barədə yazılara imza atmışıq. Bununla belə, mənim də yaxından tanıdığım və dərin hörmət bəslədiyim Emil Hüseynli AZƏRTAC kimi nüfuzlu bir media qurumu üçün hazırladığı yazıda bu nüanslara dərindən diqqət yetirmirsə,

digər müəlliflərin də hansı səhvlər buraxdığını göz önünə gətirmək çətin deyildir.

Brest qalası haqqında yazı hazırlayarkən müəlliflər bu Qəhrəman - Qala haqqında dərin məlumatlara malik olmalıdırlar. Bu, qəhrəmanlar haqqında hansısa məsələ qaldıran insanlara da aiddir. Azərbaycanın Belarusdakı səfiri cənab Lətif Qəndilovun azərbaycanlı qəhrəmanlar barəsində qaldırdığı məsələ onun vətənpərvər ürəyindən xəbər verir və günümüzün reallığı ilə uzlaşır.

-“Bununla əlaqədar səfirlik və səfirliyin hərbi attaşeliyi ölkəmizin arxivlərində araşdırma aparıb, nəticədə 44 azərbaycanlının bu qalada döyüşdüyü barədə məlumat əldə edib. Görüşdə mədəniyyət ocağının rəhbərliyindən onların şəklinin asılması və xatirə plitəsinin üzərinə adlarının yazılması üçün muzey tərəfindən böyük araşdırmaların aparılması istənilib.

Hələlik səfirlik tərəfindən Brest qalasında döyüşən Daniyal Abdullayev, Nəsir İsgəndərov və Ağamirzə Nəzərov barədə daha ətraflı məlumat toplanaraq muzeyə təqdim edilib. Səfirliyin ilkin məlumatına görə, 1941-ci ildə yeni çağırışçılarla birlikdə Brest qalasında 80 azərbaycanlının olduğu güman edilir.”- Emil Hüseynlinin hazırladığı yazıda bildirilir.

Onu da qeyd etmək yerinə düşərdi ki, cənab səfir 3 qəhrəmanımızın adının xatirə plitələrində yazılması ilə bağlı hazırlıq işlərinin müharibənin başlanmasının 80 illiyi ilə bağlı tədbir keçiriləndək başa çatdırılmasını xahiş edib və muzeyin rəhbərliyi də bu istiqamətdə işləri sürətləndirəcəklərinə söz verib.

Amma, niyə məhz 3 azərbaycanlı qəhrəmanımızın adının xatirə plitəsində yazılması nəzərdə tutulur? Bu haqda və qəhrəman qalanın azərbaycanlı qəhrəmanları barədə apardığımız araşdırmalara “öz igidlərimiz” tərəfindən hansı manelər göstərildiyi barədə növbəti yazılarımızın birində məlumat verməyə çalışacağıq.

“Brest qalası” kitabı ətrafında söz-söhbətlər bu gün də bitmir. Bu kitabda şox hadisələr təhrif olunub, qəhrəmanların adları oxuculardan gizlədilib. Onların içində azərbaycanlı qəhrəmanlar çoxluq təşkil edir. Bəs bu riyakarlığın erməni səbəbkarı Samvel Matevosyan kimdir? Onun haqqında bəzi məlumatları sizinlə bölüşək.

Bu günki söhbətimiz həm də tarixin təhrif olunmuş və ya gizlədilmiş hadisələrindən, yazıçı məsuliyyətsizliyi, erməni riyakarlığı və hiyləsindən gedəcək.

Samvel Minasoviç Matevosyan 1912-ci il avqustun 11-də (24 avqust) Rusiya imperiyasının Qars bölgəsindəki Qarabağ kəndində anadan olub. 1918-ci ildə Matevosyanın ailəsi Vladikavkaza köçüb. 1935-ci ildə Matevosyan Moskvadakı Əlvan Metallar İnstitutunu fərqlənmə diplomu ilə bitirib, dağ-mədən mühəndisliyi ixtisasını alıb. 23 fevral 1939-cu ildə Ermənistan SSR Kafan rayon hərbi komissarlığı tərəfindən ordu sıralarına çağırılıb və Brestdə yerləşən 6-cı Piyada Diviziyasının 84-cü Piyada Alayına göndərilib. Kiçik zabit Samvel Matevosyan II Dünya Müharibəsinin əvvəlində Brest qalasındakı siyasi rəhbərin müavini və bölmə komandiri idi.

22 iyun 1941-ci ildə alman qoşunları Sovet İttifaqına hücum edərkən ilk zərbəni Brest qalası da öz üzərinə götürdü. Onun başçılığı ilə (Guya ki… Amma, əslində bu hücum Gədəbəyin

Novosaratovka kəndindən olan starşina Boris Mixaylovski tərəfindən təşkil edilmişdi ) təşkil edilən ilk əks-hücum nəticəsində əsgərlər qalanın mərkəzinə keçən alman pulemyotçular dəstəsini məhv etdi. Müharibənin üçüncü günündə Matevosyan bud nahiyəsindən bir mərmi parçası ilə yaralandı və o, qalan yaralılarla birlikdə zirzəmiyə köçürüldü və 5 iyul 1941-ci ildə tutuldu .

Onu da qeyd edək ki, Samvel Matevosyanın iştirakçısı olduğu vəYefim Fominin başçılıq etdiyi müdafiə ocağı 30 iyun tarixində məhv edilmişdi və bütün sağ qalan müdafiə iştirakçıları almanlar tərəfindən əsir götürülmüşdü. Amma burada da erməni məkri öz rolunu sonacan oynamalı olub. Y.Fominin başçılıq etdiyi dəstənin bütün üzvləri 30 iyunda əsir götürülsə də, bu erməni əsir düşdüyü tarixi 5 iyul kimi göstərib. Elə bu məlumatın özünü onun yalanlarının ən başlanğıcı saymaq olardı. Amma yazıçı nədənsə onun bu yalanının üstündən sükutla keçməli olub.

“Brest qalası” kitabında qeyd edildiyi kimi, Matevosyan, Brestin cənubdakı hərbi şəhərciyindəki əsir düşərgəsinə salınıb. Payızda yaraları sağalanda düşərgədən qaçıb və partizan dəstəsinə qoşulub. Döyüşlərdən birində ağır yaralanıb və sağalana qədər partizanlar tərəfindən bir kəndli ailəsində saxlanılıb. Bir müddət sonra, o yerli polislər tərəfindən aşkar edildikdə, Ukraynanın Volın bölgəsindəki Lutsk şəhərinə qaçmaq və ayaqqabı artelində iş almaq məcburiyyətində qaldı. Yerli kommunistlər ilə əlaqə qurmağı bacardı (Sonralar bu tarixdə baş verənlər şübhə altına alınacaq və S. Matevosyan partiya sıralarından xaric ediləcək, orden və medalları da əlindən alınacaqdır).

1944-cü ilin fevralında Lutsk azad ediləndən sonra Matevosyan yenidən ordu sıralarına çağırılıb və zabit kurslarına göndərilib, sonra leytnant olaraq rota komandiri təyin edilib. Berlinin alınmasında iştirak edib. Döyüşlərdə iştirak etdiyi müddətdə daha üç dəfə yaralanıb. Müharibə qurtardıqdan sonra Matevosyan bir müddət əsirlikdə və işğal altındakı ərazidə qaldığına görə iş tapa bilmədi. Əlil olmasına baxmayaraq, geoloji kəşfiyyat ekspedisiyasına qəbul olmağa müvəffəq oldu və müharibədən əvvəlki peşəsinə qayıtdı. 1954-cü ildə ona Zod qızıl mədənlərinin bağlanması və qorunması tapşırığı verildi, lakin Matevosyanın səyləri sayəsində onlar perspektivli sayıldı və o həmin mədənin trest rəhbəri təyin edildi .

1954-cü ildə yazıçı Sergey Smirnov Brest qalasının müdafiəsi tarixini araşdırmağa başlayanda, qala müdafiəçilərindən tapdığı ilk şəxslərdən biri Samvel Matevosyan oldu (Bununla da S,Smirnovun kitabda bəzi gop və yalanlarla dolu erməni sevgisinin başlanğıcına start verildi). Elə həmin ilin avqustunda qala müdafiəsi iştirakçılarının ilk iclası keçirildi. 1955-ci ildə Smirnovun xahişi ilə Matevosyan partiya stajı saxlanılmaqla Kommunist Partiyası sıralarına bərpa edildi. Matevosyana Sovet İttifaqı Qəhrəmanı adının verilməsi üçün təqdimat yazıldı, lakin əsirlikdə və işğal olunmuş ərazidə olduğu üçün bu təqdimat rədd edildi .

70-ci illərin əvvəllərində Samvel Matevosyan Ermənistan SSR Nazirlər Sovetinin Əlvan metallurgiya istehsalı geoloji kəşfiyyat şöbəsinin müdiri idi. 1971-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə "Əlvan metallurgiyanın inkişafındakı böyük nailiyyətlərə görə" Samvel Matevosyan

Lenin ordeni və "Oraq və Çəkic" qızıl medalı ilə təltif olunaraq, Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Lakin ortaya bəzi nüanslar çıxır, bu erməni haqqında bir-birini təkzib edən şaiyələr bitib-tükənmək bilmirdi. Bu, o dövrlərdəki nəşrlərdə də öz əksini tapırdı. 1971-ci ildə Böyük Sovet Ensiklopediyasının yeni nəşrinin ikinci cildi çap edildikdə, Brest qalasındakı məqalədə deyilirdi:

Sovet xalqı Brest qalasının cəsur müdafiəçilərinin xatirəsini ehtiramla yad edir**:** Kapitan V.V. Şablovski, baş siyasi rəhbər N.V. Nesterçuk, leytenantlar – I.F. Akimoçkin, A.M. Kijevatov, A.F. Naqanov, kiçik siyasi rəhbər A.P. Kalandadze, müavini siyasi rəhbər S.M. Matevosyan …

Beləliklə, ensiklopediyada Matevosyan
ölü adlandırıldı ki, bu da onun
əsl Matevosyanın sənədlərini mənimsədiyi barədəşayiələrin ortaya çıxmasına imkan verdi. Anonim bir məktub Sov.İKP Mərkəzi Komitəsinə gəldikdə, Partiya Nəzarət Komissiyası, işi dinləmək üçün Ermənistana gedən komissiya üzvləri, Ermənistan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Demirçyan və komissiyanın sədri Arvid Pelşe tərəfindən şəxsən nəzarət edilən bir şəxsi iş açıldı. Bütün hallar müəyyənləşdikdən sonra məhkəmə bağlandı. Lakin araşdırma zamanı şəxsi bağ evinin tikintisi zamanı Matevosyanın tikinti materiallarını (çox ucuz qiymətə sənədləşdirildiyi üçün)topdansatış qiymətlərlə guya ki, 641 rubl 19 qəpiyə aldığı məlum oldu. Buna görə Matevosyan vəzifəsindən azad edildi və 6 ay sınaq müddəti ilə azadlıqdan məhrum edildi. Matevosyanın bağ evi müsadirə edildi. 1974-cü ildə Matevosyan Sov.İKP sıralarından xaric edildi və növbəti il Sosialist Əməyi Qəhrəmanı adından məhrum edildi. Gör nə

həyasız və əclaf imiş ki, hətta dostları və tanışları da ondan üz döndərdilər.

Bu hadisələrdən sonar yazıçı Sergey Smirnovdan bir neçə fəslin, o cümlədən Matevosyana aid fəslinçıxarılmasını istədikdə, o, bunu etməkdən imtina etdi, nəticədə "Brest qalası" kitabının bütün tirajı (təxminən 130 min nüsxə) məhv edildi (Gör onun erməni sevgisi necə güclü imiş). 1987-ci ildə Matevosyana qarşı qaldırılmış cinayət işi, cinayət tərkibinin olmaması səbəbindən rədd edildi. 1990-cı ildə Kommunist Partiyasına bərpa edildi. SSRİ dağılandan sonra Matevosyan Rusiyaya daimi köçdü. 1996-cı ildə Rusiya Prezidentinin fərmanı ilə Sosialist Əməyi Qəhrəmanı adı Matevosyan geri qaytarıldı.

15 yanvar 2003-cü ildə gəbərən Matevosyan Moskvada erməni qəbiristanlığında torpağa quylanıb.

"Brest qalası" kitabında bir çox hadisələr onun dilindən yazılıb, bir çox qəhrəmanlıq isə yalnız onun adı ilə bağlanılıb."Brest qalası" filmində də bəzi hadisələr məhz bu erməninin "xatirə"ləri əsasında yazılmışların əsasında lentə alınıb. Bununla da neçə-neçə məlum və naməlum qəhrəmanları kölgədə qoyub. Hərçənd, bu kitabı hələ uşaq yaşlarımdan əzbər bilən, bütün qəhrəmanları adı və rütbəsi ilə tanıyan insan kimi bildirirəm ki, şəxsən bu kitabda onun adı ilə təsvir edilən qəhrəmanlıqla onun heç bir əlaqəsi olmayıb. Sadəcə, o da bu hadisələrin içində olub. Müdafiənin 2-ci günü yaralanan bu erməni kazarmaların birinin zirzəmisində yaralıların arasında olub, bəlkə də orada gizlənib. Bir neçə gündən sonra, 30 iyunda müdafiə ocağı söndürüldükdən sonra o da digər yaralılar kimi əsir götürülüb. Amma, nədənsə, onun həyat tarixçəsində əsir düşdüyü gün 5 iyul kimi göstərilir.

Baxmayaraq ki, Y. Fominin dəstəsinin böyük hissəsini azərbaycanlılar təşkil edirdi, bəs bu adam hansı qəhrəmanlığı edib və niyə bu döyüşlərdə bir azərbaycanlının və onların göstərdikləri qəhrəmanlıqların adı çəkilmir. Aydındır ki, o hadisələrin gedişini öz adına çıxıb. Şahidləri, üstəlik azərbaycan əsilli əsgərləri bu kitab üçün yaraşdırmayıb və gələcək üçün özünü sığortalayıb. Bununla belə, 1974-cü ildə fırıldaqlarının üstü açıldı və layiqli cəzasını aldı.

Amma bu, rəşadətli, qəhrəman azərbaycanlı əsgərlərin adına da heç bir yenilik də gətirmədi. Sovetlər dönəmində onlardan yalnız biri - Xəlil Haqverdiyev tanınırdı. İndi bir çox azərbaycanlı tədqiqatçılar Brest qalası divarları önündə həyatını qurban vermiş azərbaycanlı oğulların adlarını tarix üçün açıqlamaqdadırlar. S. Smirnov öz kitabında qalada vuruşan çoxlu sayda azərbaycanlının olduğunu, lakin adlarını bilmədiyini və bundan təəssüfləndiyini yazır. “Hünər” kitabının müəllifi, qala müdafiəçilərinin uzun illər ərzində axtarışına çıxan hörmətli yazıçı-jurnalist Məmməd Kazım isə “əlindən gələni etsə də” bu işi gələcək yazarların üzərinə buraxdığını bildirmişdi. Məhz onun sayəsində azərbaycanlı oxucular qala qəhrəmanı olan həmyerlilərimizin adları ilə tanış ola bilmişdilər. İndi onlarla yazıçı onun bu işini davam etdirməkdədirlər.

S.S.Smirnovun erməni sevgisi bu qəhrəmanların adlarının tanınmamasına səbəb oldu. Yazdığı kitabda qələmə alınan hadisələrin bir çoxu azərbaycanlıların adı ilə bağlı olsa da o, bunu oxuculardan gizlədib.

Belə faktlar onlarcadır. Onlardan ikisiini diqqətinizə çatdıraq- Xəlil Məmmədov Gədəbəy rayonunun Çay Rəsullu kəndindəndir. Y.Fominin Xolm darvazası yaxınlığında təşkil

etdiyi dəstədə vuruşub. 30 iyunda əsir götürülərkən Y. Fomini satmış əsgəri öz əlləri ilə boğub öldürüb. Bu hadisənin kitabda da, filmdə də öz əksini tapmasına baxmayaraq, bu əsgərin kimliyi qəsdən gizlədilib.

Digər azərbaycanlı əsgər Gədəbəyin Böyük Qaramurad kəndindən olan Musa Əliyev Brest qalasında mühasirədən çıxdıqdan sonra Çernyak adına partisan dəstəsinin yaradıcısı, rota komandiri olub. Rəsmi mənbələrə görə onun başçılıq etdiyi rota düşmənin 2000-dən çox canlı qüvvəsini, çoxlu sayda hərbi sursat və texnikasını məhv edib. Kitabda Çernyak və adına olan partizan dəstəsindən geniş söhbət açılsa da, nədənsə M. Çernyak ilə kəndbəkənd gəzərək bu dəstəni yaradan Musa Əliyevin adı kitabda heç bir yerdə çəkilmir. Bunun əvəzində yazıçı “qəhrəman erməni” obrazının yaradılmasına diqqət çəkir…

Digər azərbaycanlı qəhrəmanlar haqqında növbəti yazımızda ətraflı məlumat verəcəyik.

## Azərbaycanlılar Brest qalasının müdafiəsində - II yazı

…Qalanın müdafiəçilərinin tapılmasında bizə Azərbaycan Milli Elmlər Akademiyası Milli Tarix Muzeyinin əməkdaşları tərəfindən köməklik göstərildi. Beləliklə, muzeyin şöbələrindən birinin müdiri, fəlsəfə doktoru Zərifə xanım Dulaeva bizi 1962-ci ildə Bakıda “Azgosizdat” tərəfindən 40.000 tiraj tirajla nəşr olunmuş kitab ilə tanış etdi. “Mühasirədə olan Brestdə” adlı bu kitabın müəllifi respublikanın tanınmış jurnalisti, “Bakınskiy raboçiy” qəzetinin müxbiri Lev Adolfoviç Polonsky idi və qeyd etmək lazımdır ki, Brest qalasını müdafiə edən insanların axtarışı onun təşəbbüsü ilə 1958-ci ildə başlamışdı. Ona bu məsələdə

əməli yardımı isə respublika gənclər təşkilatının o vaxtkı rəhbəri Nazim Məmməd oğlu Hacıyev göstərmişdi. Aydın Hacıyev öz kitabında bunu belə təsvir edir: (Nazim Hacıyev haqqında xatirələr və düşüncələr)": – "1958-ci ilin yayı idi … Lev Adolfoviç atasının həmyerlilərimizi tapmaq, tanımaq və tanıtmaq təşəbbüsünü necə dəstəklədiyini xatırlayır. Brest qalasının əfsanəvi müdafiəsində iştirak etmiş həmyerlilərimizin yeni adlarının tapılıb ortaya çıxarılması respublikamızın vətənpərvərlərini çox sevindirmişdi. Brest qalasının müdafiəçilərinin adları sırasında İmran Mehdiyev, Boris Mixaylovski, Nabi Məmışov, habelə sağ qalanlar Andrey Kastryulin, Muxtar Qədirov və başqaları da vardı. Bütün bu işlər Levn Polonskinin "Azərnəşr" tərəfindən çap edilmiş "Mühasirəyə alınmış Brestdə" kitabında öz əksini tapmışdır. Aydın Hacıyevin xatirələri isə Bakıda, 2009-cu ildə nəşr edilmişdir.

Yarım əsrdən çox bir vaxtda unudulmuş qala qəhrəmanlarının adlarını axtarıb tapdıq və əvvəllər qeyd olunan əsgər və komandirlər haqqında daha ətraflı məlumat əldə etdik. Belə ki, 84-cü piyada alayının hərbi həkimi Qədirovun (Kadırov) Bakıdan olduğu və Muxtar Məmməd oğlu olduğunu öyrəndik. Müharibə onu Cənubi Adadakı tibbi batalyonda öz növbətçi olduğu, vəzifə borcunu yerinə yetirərkən yaxaladı. Həmin vaxt növbətçi tibb bacısı belorusiyalı Şura Şakun idi. Atışma altında Muxtar Qədirov öz xidməti yerinə qayıtmağı bacardı və komissarı Forminə yaralıları müalicə etməyə hazır olduğunu bildirdi. Hərbi həkim, Komsorq Matevosyanın da hər iki ayağında yaralarını müalicə etdi. Çox qəribədir ki, o xatirələrində Matevosyan onu xoş sözlərlə xatırlamır.

Əvəzində yüngül yara almış başına sarğı qoymağa kömək edən veterinar Ağagulyanı xatırlamağı unutmur.

Hərbi həkim Qədirov yaralı əsgərlərlə birlikdə (onların arasında bud nahiyəsindən ağır yaralanan Qəmbər Teymurov da vardı) almanlara qarşı son çıxılmaz bir əks-hücumu təşkil etdi. Bir qrup döyüşçü ilə mühasirədən çıxmağa müvəffəq oldu, ancaq artıq qaladan xaricdə yaralanmış və huşsuz vəziyyətdə əsir götürüldü.

Əvvəlcə Byala Podlyaska əsir düşərgəsində, sonra Marburqda, daha sonra hərbi əsirlər üçün Varşava hərbi lazateritində oldu. Azərbaycan mühacirləri tərəfindən həkimi azadlıq müqabilində millətçi təşkilatların birində iştirak etməyə inandırmaq cəhdi göstərildi, lakin M. Qədirov razılığ vermədi. Onlar ikinci dəfə geri qayıdanda, qəti şəkildə onlarla görüşməkdən imtina edərək, xəstələrin arasında gizləndi. Bu epizod, 2003-cü ildə Rostov-na-Donu şəhərində nəşr olunan, "Hər şey belə olmuşdur" kitabında təsvir edilmişdir. Həmin kitabda digər azərbaycanlı həkimlərdən də bəhs olunur. Müharibənin sonunda Muxtar Məmməd oğlu Qədirov vətəninə qayıdıb və kənddə rayon həkimi işləmişdir.

Siyasi rəhbər Andrey İvanoviç Kastryulin, əslən Şamaxinsk rayonunun Yurt - Çuxur kəndindəndir. Bir çox nəşrlərdə onun 84-cü piyada alayının zabiti olduğu yazılır, amma bu, doğru deyil, çünki o, 84-cü piyada alayının 120 mm-lik minaatan batareyasının siyasi təlimatçı müavini idi. A.I. Kastryulin, 24 iyunda qalanın müdafiəsi üçün ortaq bir komanda yaratmaq üçün məşhur iclasda iştirak etmişdi. Qrupun başında o da, Komissar Fominin əmri ilə mühasirəyə alınmış dəstənin qaladan çıxmaq cəhdində iştirak etdi. Əsir

düşdü. Qaçdı, Slovakiyada partizan dəstəsində vuruşdu. Müharibədən sonra Bakı Pedaqoji İnstitutunu bitirib həyat yoldaşı ilə Şamaxaya qayıdıb, kənd məktəbində müəllim işini davam etdirdi. Brest qalasının müdafiəsi zamanı göstərilən qəhrəmanlığa görə Andrey İvanoviç Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir.

Əslən Şəmkir rayonunun Kiçik Qaramurad Dərya kəndindən olan qızıl əsgər Xəlil Məmmədov (Başqa mənbədə Gədəbəyin Kiçik Qaramurad kəndinin adı çəkilir) 84-cü Piyada Alayının 76 mm-lik arteleriya batareyasında xidmət **etmişdir.** Qala müdafiəçilərinin biri olmuş, nasistlərə qarşı süngü hücumlarında iştirak etmişdi. Müdafiə döyüşlərindən birində, iyunun 30-da almanlar tərəfindən əsir götürülmüş və artıq əsirlikdə, faşistlərə komissar Yefim Fomini nişan vermiş xaini öz əlləri ilə boğub öldürmüşdür.

Qızıl əsgər Allahverdi Ələkbər oğlu İmanov 333-cü Piyada alayının musiqiçisi idi. 1939-cu ilin dekabrında Bakıdan Qızıl Ordu sıralarına çağırılmışdı.

Qızıl əsgər Səfərov İbrahim Şirəli oğlu 1910-cu ildə Neftçala rayonunun Aşağı Qaramanlı kəndində anadan olmuşdu. 1939-cu ilin dekabrında əsgər getmişdi, 333-cü Piyada alayının musiqi vzvodunun əsgəri idi. İmanov və Səfərov düşmən hücumlarının dəf edilməsində və nasistlərlə çoxsaylı əlbəyaxa döyüşlərdə iştirak etmişlər. Almanlar tərəfindən məhv edilən hərbi mağazadan yaralılara, qadınlara və uşaqlara yemək daşıyıb verirdilər. Allahverdi, serjant Belarusiyalı Vasili ilə birlikdə, baş leytenant Potapovun əmri ilə mühasirədən çıxmaq üçün almanların mövqelərindəki zəif nöqtəni müəyyənləşdirmək üçün kəşfiyyat işində iştirak etdi. Bu reydlərin birində Vasili öldürüldü. Maraqlıdır ki, Petya

Klypa öz xatirələrinin heç birində 333-cü Piyada Alayının musiqi vzvodundakı böyük yoldaşlarının adını çəkməyib. Allahverdinin özü, iyunun 30-da baş leytenant Potapovun komandanlığı altındakı qrupla mühasirədən çıxmağı bacardı, lakin artıq qaladan kənarda, Brest bölgəsində faşistlər tərəfindən tutuldu. Döyüş zamanı İ.Səfərov da tutulub, əsir götürüldü.

Müharibədən sonra A.İmanov və İ.Səfərov vətənlərinə qayıtdılar.Serjant İ. Dadaşov**,** alay komissarı Fomin başçılığı ilə, düşmənin hücumunu dəf etmək və qala ərazisinə girən növbəti alman dəstələriinin məhv edilməsində iştirak etmişdi. Bir qrup döyüşçü ilə nasistlər tərəfindən tutulan 84-cü Piyada alayının klubuna hücum edənlər sırasında olmuş, 135-ci vermaxt piyada alayının bölmələrinin sonrakı ləğvində yaxından iştirak etmişdi. Dadaşov 23 iyun tarixində zirehli maşınların reydində birbaşa iştirak etmişdi və qabaqda gedən zirehli maşının qüllə pulemyotu arxasında durmuşdu (L. A. Polonskinin "Mühasirədəki Brestdə" kitabının materialları və "333-cü Piyada alayı" mövzusundan istifadə edilmişdir) .

Ancaq bu hücumda, maşının içərisində gizlənmiş erməni Matevosyan, öz xatirələrində onun haqqında nəsə heç bir şeyi xatırlamır**…** İyunun 23-də Dadaşov, sağ qalan silahdan və qalan üç mərmidən istifadə edərək, körpünü partlatdı və düşmənin hücumunu qarşısını aldı və bununla da dəstəyə verilmiş tapşırığın yerinə yetirilməsinə kömək etdi. O, komissar Fominin əmri ilə Üç arkalı darvazaya edilən hücumda da iştirak etdi. Serjant İ. Dadaşov 28 iyun 1941-ci ildə qalanın zirzəmilərinə sığınan yaralı döyüşçülər, qadınlar və uşaqlar üçün su çıxararkən Muxavets çayının sahilində həlak oldu.

(Truxin P.P. "Unudulmuş Alay". Truxinin 84-cü alayındakı döyüş yoldaşları və "Savaş" hərbi – vətənpərvərlik saytı).

Yevlaxdan hərbi xidmətə çağırılan serjant İmran Mehdiyev 84-cü piyada alayının 3-cü batalyonunda xidmət edib. Almanlara qarşı dəfələrlə əks-hücumlarda iştirak etmişdir. 1941-ci ilin iyun ayının 23-də Sablin ilə birlikdə zirzəmi üzərində bayrağı o qaldırmışdı**.** Mühasirədən çıxmaq məqsədi ilə almanların mövqelərindəki zəif cəhətləri müəyyən etmək üçün o və digər döyüşçülər Muxovets çayının dibi ilə o biri tərəfdə kəşfiyyat işlərində iştirak etmişdi. Mühasirədən çıxmağa çalışarkən Komisar Fominin təşkil etdiyi hücumda siyasi rəhbər Semyon Xnıkinin qrupunda iştirak etmişdi. 27 iyun 1941-ci ildə həlak olub. İmran Mehdiyevin son sözləri belə oldu: "Kastryulin, yadında saxlaa, Yevlaxdanam mən …". O,Andrey İvanoviç Kastryulin tərəfindən qəbristanlığın həyətində dəfn edilib. Bu qalada ikinci rəsmi dəfn idi, birincisi, iyunun 22-də Qızıl əsgər Xəlil Haqverdiyev idi.

Qırmızı Ordunun komandanlığına açıq bir radio mesajı ilə yayımlanan əfsanəvi radio operatorunun adı da məlum oldu. Mətni olduğu kimi veririk: "Mən bir qalayam … Mən bir qalayam …" - radio operatoru deyirdi, - "döyüşürük, kifayət qədər silahımız var, itkilərimiz azdır. Təlimatları gözləyirik…" Bu müraciətə belə də cavab alınmadı.

B**.N.** Mixaylovski**,** komissar Y.Fominin təşəbbüsü ilə 24 iyunda vahid müdafiə komandanlığının yaradılması ilə bağlı məşhur iclasın iştirakçılarından biri idi. İştirakçılarının tam siyahısı budur: alay komissarı Fomin, kapitan İvan Nikolaeviç Zubaçev, baş leytenant Semenenko, baş leytenant Potapov, leytenant Vinogradov (zirzəmi penceresinde karandaşla dayanır, əmrin mətnini diktəsi altında yazır), sərhədçi leytenant

Andrey Kijevatov, Skripkov, **Xnıkin, Andrey Kastryulin**, baş leytenant Ananiashvili, **starşina Boris Mixailovski**, siyasi kəşfiyyat zabiti. 30 iyun tarixinədək Boris həmişə komissar Fominin yanında idi, əslində onun ən yaxın köməkçisi və məsləhətçisi idi. Alman pulemyotçuları tərəfindən 30 iyun tarixində həlak olduğu düşünülürdü, amma əslində, geri dönərkən yolda bombardmana düşmüşdü. Bu vaxt Samvel Matevosyan, 24 İyunun səhəri, hər iki ayağından yaralı halda qazamatın zirzəmisində yaralıların arasında idi. Mixaylovskinin bir dostu, 1963-cü ildə Minskdə nəşr olunan "Qəhrəmanlıq Müdafiəsi" kitabındakı xatirələrində, Mixaylovskinin 22 iyun 1941-ci il tarixində almanlarla əlbəyaxa döyüş zamanı öldüyünü bildirir.

Sonra Tiraspol darvazasından qalaya girən nasist hücumçu dəstəsi, zərbələr altında ikiyə bölündü və 84-cü Piyada Alayının kazarmalarından adlayaraq, starşina Boris Mixaylovskinin komandanlığı altında rabitə rotası tərəfindən məhv edildi. Hücumda rabitə rotasının siyasi rəhbərinin köməkçisi Aleksey Korobov da iştirak edirdi. Almanların bu ilk məğlubiyyəti əsassız olaraq Matevosyana aid edilib. Yeri gəlmişkən, göstərilən vaxtda Komissar Fominin komandanlığı altında 84-cü Piyada alayının bir qrup döyüşçüsü artıq Ağ Sarayda idi, onların arasında Komsomol Matevosyan da vardı. Mixailovskinin rabitəçiləri sağ qalan radio stansiyaları ilə birlikdə, almanların ilk kolonunun məğlubiyyətindən sonra onlara qoşuldular. Boris Fominə Alman dəstəsinin məğlubiyyətinin nəticələri və xilas edilmiş radiostansiyalar barədə hərtərəfli məlumat verdi. Ətraflı bir yoxlama ilə yalnız birinin işə yararlı olduğu ortaya çıxdı. Komisar, starşinaya radio ilə daha yüksək komandanlıqla əlaqə qurmağı

tapşırdı. Sonralar nəşr olunan kitablarda bu faktlar sadəcə təhrif olunub.

İyunun 30-da komisar Y.Fomin ağır artelleriyanın atəşi nəticəsində yaralı halda almanlar tərəfindən əsir götürüldü və 84-cü atıcı alayının kazarmaları qarşısında güllələndi. Elə həmin gün ağır yaralanmış Boris Mixaylovski də almanlar tərəfindən götürülmüşdü. Sonra əsirlikdən qaçdı və S.Orjonikidze adına partizan dəstəsini yaratdı. Sonra o, Pinsk birləşməsinin Suvorov adına partizan dəstəsinin komissarı oldu. 1943-cü ildə dəstənin qərargahına soxulan Ukrayna millətçiləri tərəfindən xaincəsinə öldürüldü. Boris Nikolayeviç Mixaylovski ölümündən sonra Qırmızı Ulduz ordeni və "1-ci dərəcəli Vətən müharibəsi partizanı" medalı ilə təltif edilmişdir.

Boris Nikolaeviç, Krasnodar diyarının Popoviçevskaya stanitsasından idi. Gədəbəyin orta məktəblərinin birində dərs deyib. 20 dekabr 1939-cu ildə Gədəbəy rayonundan Qızıl Ordu sıralarına çağırılıb. 1912-ci ildə anadan olub. Tarixçi – tədqiqatçı Rostislav Əliyev, görünür, L.A. Polonskinin kitabında göstərilən faktlarla da tanış deyildi və əsərlərində iyunun 22-də səhər almanlara ilk zərbə əmrinin Matevosyana aid olduğu bu əfsanədən istifadə etmişdi.

"Mühasirədə olan Brestdə" kitabı, sağ qalan müdafiəçilərin xatirələri əsasında və saxtakarlıqlar olmadan hazırlanmış və müdafiə qəhrəmanlarından birinin – Şamaxı vətəndaşı Andrey İvanoviç Kastryulinin gündəlik qeydləri əsasında yazılmışdır. Belə bir gündəliyin olması barədə fikiri müəllif özü yazdığı kitabda dəfələrlə oxucuların diqqətinə çatdırır.

Qızıl əsgər Qaraşov haqqında. Almanlar kazarmanın otaqlarına soxulmağa can atandaə düşmən əsgərləri məhv

edildi, qismən çıxışa doğru qovuldu. Qaraşov yaxın məsafədən əlindəki yüngül pulemyotdan atəş açaraq almanları geri çəkilməyə məcbur etdi. Bu döyüşdə Qaraşov ayağından ağır yaralandı, əsas arteriya zədələndi. Almanların növbəti hücumu zamanı o, hərbi həkim Muxtar Qədirovu ona çiynini söykəyərək hücuma aparmağa məcbur etdi. Digər tərəfdən başqa bir əsgər də Qədirovun çiyninə söykəndi. Beləliklə, əllərindəki silahlarla çıxışa doğru hücuma getdilər. Ayağa dura bilməyən əsgərlər də silahlarını hücuma gedənlərə verdi. Bu, mühasirəyə alınan əsgərlərin ümidsiz bir əks-hücum idi. 28 iyunda Qızıl əsgər Qaraşev həlak oldu.

Serjant Qaraye**v**in Nuxadan (Şəki) olduğu, ordudan əvvəl çoban işlədiyi, 84-cü Piyada alayının 3-cü batalyonunda xidmət etdiyi məlumdur. Nasistlərin hücumlarının dəf edilməsində, almanlarla əlbəyaxa döyüşlərdə fəal iştirak edib. Bu döyüşlərdən birində serjant N. Tarasovu olümdən xilas edib. Nədənsə, Tarasov “Qəhrəmanlıq müdafiəsi” kitabında nəşr olunan xatirələrində (Minsk, 1963) 1930-cu ildə eyni vaxtda əsgəri xidmətə çağırıldığı döyüş dostu barədə bunları unudub. Serjant Qarayev Muxovets çayından su götürərkən həlak olub.

Almanlar ilə döyüşlərdə mühəndis batalyonunun veterinar-texniki işçisi qızıl əsgər Qəmbər Teymurov da iştirak etmişdir. Həyatını təhlükə altına atan Qəmbər, yanan anbardan 5 qutu döyüş sursatı götürərək, əllərini yandırmışdı. Daha sonra bu epizod zirehli maşınları sursatla yükləyərkən Matevosyana aid edildi. Beləliklə, bu iş, başqasının, erməni Samvel Matevosyanın adına yazılaraq**, S. S.** Smirnovun “Brest qalası” kitabında təsvir edilmişdir. Gecələrin birində o, damdakı alman təxribatçıları ilə döyüşə atıldı. Onlar partlayıcı maddələri

bacalara atır və ardınca yanan fitilləri tullayırdılar. Teymurov bir bu zaman bir almanı məhv etdi, digərini isə ələ keçirməklə başqa bir partlayışın qarşısını aldı. Əsiri təhvil verərək, dindirilmənin nəticələrini öyrənmədən, nasistlərin daha bir hücumunun qarşısını almaq üçün hücuma atıldı. Qəmbər “Maksim” pulemyotundan atəş açaraq düşmənin qarşısını almağa kömək etdi. Elə burada, pulemyotun arxasında da həlak oldu. Alman təxribatçılarının bu ölüm faktını Rostislav Əliyevin istinad etdiyi Alman mənbələri də təsdiqləyir. (Almanlar rus və erməni tarixçilərindən daha insaflı mənbədir).

Kitabda müharibədən əvvəl Zəngəzurun Yuxarı Giratax məktəbində işləyən, 84-cü Piyada alayının 3-cü batalyonundan olan Qızıl əsgər Nəbi Məmməd oğlu Məmışevin adı da yer alıb. Onun üçün müharibə qalanın kimyəvi şəhərcik adlanan hissəsində başladı və daha sonra o, komisar Fomin qrupundakı həmkarları ilə yan-yana döyüşdü.

Qızıl əsgər Aleksey Korobov haqqında isə rabitə rotasının siyasi təlimatçısının köməkçisi olduğu məlumdur. Rabitə rotasının tərkibində, rotanın komandiri Boris Mixaylovskinin komandanlığı altında 22 iyun 1941-ci ildə səhər saat 5 radələrində qalanın ərazisinə girən alman kolonunun məhv edilməsində iştirak edib. Bu, qala müdafiəçilərinin ilk əks-hücumu və nasistlərin ilk məğlubiyyəti idi. Gələcəkdə Korobov alman hücumlarının dəfələrlə dəf edilməsində, o cümlədən əlbəyaxa süngü döyüşlərində iştirak etdi. Müharibə qurtardıqdan sonra Aleksey vətəni Azərbaycana qayıtdı.

Qızıl əsgər Yusif Atakişiyev, G. Qaffarov kimi, nasistlərə qarşı döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Milli Tarix

Muzeyində Yusif Atakişiyevin yaxınlarına göndərdiyi məktubun orijinalı qorunub saxlanılır.

Semen Xnıkin - siyasi rəhbər idi. İyunun 24-də qalanın birgə müdafiə komandanlığının yaradılması ilə bağlı iclasda iştirak etmişdir. Fominin əmri ilə mühasirədən çıxmağa çalışan qrupa rəhbərlik etmişdi. Bu əməliyyatda uğursuz bir cəhd nəticəsində qrup döyüşçülərin yarısından çoxunu itirdi. Sağ qalan Qızıl Ordu əsgərləri arasında Semyon əvvəlki müdafiə mövqeyinə qayıtdı və hərbi vəzifəsini sonadək yerinə yetirdi.

Qızıl əsgər Aslan Qafarov 84-cü Piyada Alayının nəqliyyat rotasında xidmət etmişdir. Aslanın təşəbbüsü sayəsində hərbi təlimlərdə iştirak etmək üçün müharibə ərəfəsində Brestə gələn bir bölməyə aid silah və sursat olan anbar aşkar edilmişdi. Bu anbarda PPD avtomatları və patronlar, yüngül pulemyotlar, rota və batalyon minaatanları var idi. Müdafiəçilər üçün bu tapıntı əvəzsiz idi. Minaların bir hissəsi, komissar Fominin əmri ilə, 333-cü alayın baş leytenantı Potapov dəstəsinə, müdafiədəki qonşulara verildi. Almanlar, müdafiəçilərin mövqelərinə növbəti hücum zamanı ağır avtomat və minaatan atəşinə məruz qaldılar və ağır itkilər verdilər. Aslan Qafarov Siyasi rəhbər Kastryulinin komandanlığı altında mühasirədən çıxan dəstədə idi. İyunun 29-da düşmən pulemyotunu məhv edərkən qumbara qəlpələrində həlak oldu.

84-cü alayın binalarının texnik-baxıcısı Morşnev Pyotr Qriqoryeviçin xatirələrində eyni rotadan olan başqa bir əsgər - Həsənov Aslanın adı çəkilir. (Rus hərbi saytından götürülmüş xatirələr, mövzu – Brest qalası, hissə 2, layihə iştirakçısı Yuri 32)

Burada həmyerlilərimizin Qalanın qəhrəmancasına müdafiəsinə verdiyi töhfələrə həsr olunmuş başqa bir əsəri də

qeyd etmək lazımdır. “Azərbaycanlılar Belarus uğrunda döyüşlərdə” adlı bu kitab, 2010-cu ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı tərəfindən dərc edilmişdir. Müəllif istedadlı tədqiqatçı ,mayor Nuridə xanım Həsənovadır.

Həmyerlilərimizin adlarını İnternetdə axtarmaq bir sıra yeni, hələ bilinməyən adların meydana çıxmasına imkan yaratdı.

Beləliklə, Dmitri Şerbinin saytında “Brest Qəhrəmanlarının məktubları ” Qızıl əsgər Qədir Ələkbərovun 15 iyun 1941-ci ildə qohumlarına göndərdiyi məktubun mətnini yerləşdirmişdi. Gədəbəydəndir. Bunun təsdiqi olaraq onun yazdığı məktubun orijinalı və fotoşəkili Azərbaycan Milli Tarix Muzeyinin fondlarında saxlanılır. Sonrakı döyüşlərdə iştirak etdi və 1942-ci ildə itkin düşdü.

Truxin Pavel Petroviç tərəfindən yaradılan “Unudulmuş Alay” saytı Qızıl Ordunun əsgəri Əbdurahmanov Məsi Mahmud oğlunun adını tapdı. 5 fevral 1940-cı ildə Ağdaşdan hərbi xidmətə çağrılıb. Müharibə başlananda 84-cü Piyada alayının 2-ci batalyonunun 6-cı rotasında xidmət edib. 1941-ci ilin dekabrında itkin düşüb. Ev ünvanı: Ağdaş rayonu. Padar kəndi. Komintern küçəsi, 11.

Sayt sayəsində Gədəbəyin Çay Rəsullu kəndindən olan qızıl əsgər Əliyev Musa Abbas oğlunun da 84-cü Piyada Alayında döyüşdüyü müəyyən edildi. Əsir düşdü, sonra baş leytenant Çerni ilə birlikdə qaçdı və partizan dəstəsinin yaradılmasında iştirak etdi. Dəstənin komandiri M. Çernyak idi. Komanda Belarusun Brest bölgəsinin Jabinski rayonunda fəaliyyət göstərirdi. Əvvəlcə vzvod, sonra rota (IMP-nin Belarus bölməsinin partiya təşəbbüsünün materiallarına əsaslanan

“Savaş” hərbi-vətənpərvərlik saytının məlumatları) komandiri idi.

OBD Memorialının saytından333-cü piyada alayının hava hücumundan müdafiə bölməsinin komandiri **Nəzərov** Ağamirza Əli oğlunun hərbi rütbəsini, adını, atasının adını da öyrənə bildik.

Qızıl əsgər İskəndərovla bağlı dolğun məlumatlar da əldə etdik – Gədəbəy rayonunun Kiçik Qaramurad kəndindəndir, 84-cü Piyada alayının rabitə rotasında xidmət edib.

Ə.Əliyev haqqında daha dolğun məlumatlar da toplanmışdır: 84-cü atıcı alayının əsgəri Əliyev Əhməd Məhərrəm oğlu Nuxa (Şəki) şəhərindəndir (Brest qalasının müdafiəçiləri, onların ailələri, həlak olmuş, həmçinin də sağ qalanların siyasından götürülmüşdür).

Həm sitadel, həm qala, həm də Brestin müdafiəsində iştirak edən bölmələrin foto albomlarında həmyerlilərimizin fotoşəkillərinin olması faktı şübhəsiz maraq doğurur. Belə ki, 84-cü Piyada Alayının albomunda Xəlil Haqverdiyev, Daniyal Abdullaev və Boris Mixaylovski**nin** şəkilləri var. Təəssüf ki, 333-cü piyada alayının albomunda, eləcə də 75-ci əlahiddə kəşfiyyat batalyonunun albomunda azərbaycanlı döyüşçülərimizin fotoları yoxdur.

Brest qalasının müdafiəsində həmyerlilərimizin misilsiz şücaətini populyarlaşdırmaq üçün Bakı şəhər Müharibə Veteranları Şurasının nəzdindəki Şöhrət Muzeyində, Bakı şəhər Müharibə, əmək, silahlı qüvvələr və hüquq-mühafizə orqanlarının veteranları məclisinin nəzdində, xüsusi olaraq stend hazırlanmışdır.

Brest qalası haqqında qısa bir tarixi məlumat vermək lazım olduğunu düşünürəm. XIX əsrin 30-cu illərində Polşada inşa edilmişdir. Bir neçə dəfə modernləşdirilib.

1939-cu ildə Qərbi Belarusiyanın Polşadan olan bu tarixi bölgəsi SSRİ-yə verildi. Qala Belarusiya Respublikasının Brest şəhərinin inzibati hissəsinə çevrildi.

Qala istehkam olaraq, SSRİ-nin qərb sərhəddindəki müdafiə xəttinin ümumi sxeminə daxil edildi və onun ərazisində fərqli birləşmələrdən ibarət hərbi qarnizon yerləşdirildi.

Və maraqlıdır ki, Adolf Hitler, əsgər və komandirlərin misilsiz qəhrəmanlıqlarını eşidərək şəxsən 26 avqust 1941-ci ildə Brest qalasının xarabalıqlarını ziyarət etdi. Bu səfərdə onu italiyalı diktator Benito Mussolini də müşayiət etdi.

1965-ci ildə Brest qalasına "Qala - Qəhrəman" yüksək adı verildi və 1971-ci ildən Memorial Muzey Kompleksi statusu qazandı.

Brest qalasını müdafiə edən əsgərlərin uşaqlarına, nəvələrinə, qohumlarına, dostlarına müraciət edirəm, qəhrəmanlarımız haqqında bildiyinizi redaksiyamıza bildirin. Qəhrəmanlarımızı adla xatırlamalıyıq.

## Günəşli vadinin serenadası? Xeyr…

“Günəşli vadinin serenadası!” Bu yazını hələ bir neçə il bundan əvvəl, 2019-cu ilin 29 oktyabrında dərc etmişik. Bu yazı biz yaradıcı insanların əməyinə, ürəyinə verilən (daha doğrusu verilməyən) dəyərə həsr olunub. Bu, müasir cəmiyyət deyəndə onun mənasını tam, yaxud ümumiyyətlə anlamayan insanlara bir yaradıcı insanın etirazıdır.

Qəhrəmanların təbliği ilə məşğul olmalı olan idarə və təşkilatlar, Təhsil Şöbələri, Mədəniyyət İdarələrində çalışan insanların yazıçıların əməyinə, şəxsiyyətinə, həyatda tutduğu mövqeyə cinayətkar yanaşması bu yazıda öz əksini tapmışdı. Düşünürdük ki, bunu oxuyandan sonra həmin insanlar, adları çəkilməsə də utanar, xəcalət çəkər, vicdanı oyanar və əslində onların görməli olduğu işlə heç olmasa görüntü xatirinə maraqlanar. Cəmiyyətə hansısa bir açıqlama verər, işində yeniliklər yaradar, dövlətin onlara maaş və geninə-boluna imtiyazlar verdiyi sahədə ciddi addımlar atar. Amma… heyf ki, onların əslində cəmiyyət adlandırdığı vəzifəli, imkanlı, imtiyazlı və s. insanların toplusu bu mesajı da qulaqardına verdi. Bircə GDU-nun rəhbərliyindən başqa. Məhz bu təhsil ocağında rəhbər vəzifədə çalışanlar, başda rektor Yusif Yusibov və millət vəkili Pərvin Kərimzadədən, Gəncədə fəaliyyət göstərən “Novosti Qyandji” qəzetindən başqa heç kim qəhrəmanlar haqqında yazdığımız kitablara və bu yolda çəkdiyimiz əməyə qiymət vermədi.

Gəncə və onun yetişdirdiyi qəhrəmanlar haqqında kitablar Gəncədən başqa hansı rayonda desən qəbul edildi, satışa çıxartdığımız kitablar alındı. İnsanlar bizə öz təşəkkürünü bildirdi.

Ürək dağlayan münasibəti kiməsə keçdik, kiməsə bağışladıq, yalançı vədlərə inandıq. Amma ürəyimizdə həmişə bilirdik-gördüyümüz iş müasir dövrdə böyük əhəmiyyətə malik olsa da, həmişə üstündən xətt çəkilib, ört-basdır edilib, sanki bizi diri-diri basdırıblar. Bunun da öz dərin səbəbləri, bu səbəblərin doğurduğu amillər var. Və… bütün bunlar cəmiyyətimiz üçün utandırıcıdır. Çünki…bu, bizə cinayətkar yanaşmadır.

Bu səbəblər və amillər barədə cəmiyyətin ən böyük şəxslərinə dəfələrlə yazmışıq, sorğular göndərmişik, məktublar hazırlamışıq… Heyhat, onlardan hələ ki, bir normal münasibət görməmişik, bir normal cavab almamışıq. Heç gözləmirik də. Bilirsiniz niyə? Çünki, ən ali və ülvi hisslərdən. bəşəri ideyalardan, milli düşüncədən mərhum insanlardan ibarətdir məktub yazdığımız bu adamlar. Həyatımız özü bunu sübut edir. Şəmkirin sabiq icra banditi, Şəmkir Regional Mədəniyyət İdarəsinin baş qulduru, elə Gəncənin özündə dövlətin dəmir yumruğunu görən, insanlıq hisslərindən məhrum neçə-neçə insancıqları nə qədər misal çəkmək olar? Bu gün vəzifə başında oturan insanların əksəriyyəti bu gündədir. Nə xalqına qiymət verər, nə xalqının qəhrəmanlarına. Zaman-zaman bunlar haqqında yazmışıq. Daha yazmaqdan yorulmuşuq. Nə xeyiri var ki? Kimin üçün yazırıq ki? İnsanların çoxu heç yazdıqlarımıza "layk" vurmağa belə qorxurlar. Bu da ayrı bir söhbətin mövzusudur.

Üstündən 2 il keçəndən sonra "yenə davam edir 37". Sual yenə də açıq qalır:-Müasir cəmiyyət! O nədir? Yeməlidir, içməlidir, gülməlidir, nədir bəs? Əgər bunlardan biri deyilsə, onda biri tapılıb bu cəmiyyətin nə olduğunun tam açıqlamasını versin və bizlər də sakitləşək, tam qərara gələk ki, sən demə

gördüyümüz işlər tamam başqa xalqın nümayəndələri üçün imiş, dövlətimizi aldatmaqda da haqlı imişlər.

Və yenə də deyirik: - Müraciət etdiyimiz məmurların əksəriyyəti bu gün də bəhanə dolu şirin dilləri ilə günlərlə vaxtımızı alır, bütün əsəblərimizlə oynayır, bununla da görəcəyimiz işin mahiyyətini aşağılamaqla bir çox prosesləri "tormozlayırlar". Yazılarımızın qayəsi vətənpərvərlik, qəhrəmanlıq, milli-mənəvi dəyərlər olduğundan bu insanların niyə belə mövzular ətrafında söhbətlərdən yan qaçması, gördüyümüz işə heç bir reaksiya verməməsi bizim üçün qaranlıq qalır. Sanki, gördüyümüz bu işlərin həyatımızda heç bir əhəmiyyəti yoxdur. Onların nəzərində iş yalnız rüşvət almaq, qohumbazlıq – yerlipərəstlik etmək, milləti və dövləti aldatmaq, yaxşı işlərin ayağı altına kötük atmaq və sairdən ibarətdir…Yenə də bildiririk:- nə qədər ki, onlar yaradıcılığımız altına təkər, kötük… atmaqla məşğul olacaqlar, bizlər də onların obrazını yaratmaqla məşğul olacağıq. Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov haqqında kitab yazdıq-əllərindən gələn pislikləri etdilər. Onun haqqında film çəkdik- hansı maneələrlə qarşılaşmadıq ki?!. Film alayarımçıq qaldı, Gəncə və Şəmkirdə bir vətənpərvər, qəhrəmansevər tapılmadı ki, bu qəhrəman haqqında bir xoş söz desin, işimizə heç olmazsa, yardımçı, mənəvi dəstək olsun. Hər iki bölgədə bütün məmurlar "başçıya de, sonra gəl" dedi. Sanki başçılar onlara hansısa qadağa qoymuşdu (Bəlkə də qadağa qoymuşdu, nə bilək ki).

Velikiy Novqoroda gedib qəhrəmanın qızını tapdıq. Bütün respublika bunu bildi, əməlimizi təqdirəlayiq saydı. Gəncə və Şəmkirdə "başçıya de, gəl!" deyənlər bu dəfə də əməlimizə bir reaksiya vermədi. Hər il 9 May qələbə günündə qəhrəmanın

qəbiri üstünə gül-çiçək qoyub qarşısında baş əyən məmurlar bu dəfə də əməllərinə sadiq qaldılar. Riyakarlıq – vəssalam! Bunun başqa adı yoxdur! Nə Gəncədə, nədə ki, Şəmkirdə Regional Mədəniyyət İdarələri bu işlərin heç birinə reaksiya vermədi. Sanki, bunlara aid məsələ deyildi. Üstəlik Gəncədə İsrafil Məmmədovun adını daşıyan məktəbin direktoru bizi şərlədib tutdurmaq istədi. Şəmkir Təhsil Şöbəsi ondan da pis sifət göstərdi, ev muzeyin direktoru min cür hoqqadan çıxdı… daha nələr, nələr…

Niyə reaksiyavermәli idilər ki? Onların başı dövlətin mədəniyyət siyasətinin əsaslarını dağıtmağa, talançılığa, rüşvətxorluğa və s. qarışmışdı. Dövlətimiz onların işinə layiqli cavab verdi. Onlar dırnaqla ət arasından iylənmiş irin kimi çıxarılıb atıldılar. Qəhrəmanın ev muzeyinin əbədi müdiri isə hələ də iş başındadır. İnanıram, onu qəhrəmanlığın təbliğindən başqa nə desən maraqlandırır. Elə deyisə, cavab yazsın, biz də onun əməllərinə savadlı cavab hazırlayaq.Amma inanmıram ki. bu cavab ola. Jurnalist yazısı “muzeyə təşrif buyuranların başını qatmaq” deyil.

Həmin dövrdə Ümumdünya Azərbaycanlıları İttifaqının sədri olmuş, özünə Frenk Elkaponi kimi iyrənc ad götürmüş Füzuli Məmmədov tərəfindən Velikiy Novqorodda İsrafil Məmmədovun heykəlinin ucaldılması xəbəri ildırım surəti ilə respublikaya yayıldı. Bu da bizim xidmətimiz idi (Hərçənd, o da “fıs” çıxdı.Rusiyada yaşayan azərbaycanlıları və yerli hakimiyyət orqanlarını aldatdı və həmvətənlərimizi pis vəziyyətdə qoydu). Daşdan səs çıxdı, Gəncəli və Şəmkirli məmurlardan səs çıxmadı. Bir-iki məmurla yazışıb bu xəbərə münasibətini öyrənməyə çalışdıq. Sadə insanlardan başqa bir məmurdan reaksiya ala bilmədik.

## Böyük qəhrəmanlığın izi ilə

İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunur!

Bu yaxınlarda yazıçı-jurnalist Ruhulla Zahidov Velikiy Novqorod şəhərinə olan işgüzar səfərdən qayıdıb. Publisistin bu səfərinin məqsədi – ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun, bizim həmyerlimizin, qəhrəmanlıq və şücaət göstərdiyi yerlərdə olmaq, onun qızlarını tapmaq, Velikiy Novqorod və Gəncə şəhərləri arasında dostluq əlaqələri yaratmaq idi. Axı, İsrafil Məmmədovun şəxsiyyəti qəhrəmanlıq rəmzi olan Gəncə və Velikiy Novqorod kimi əfsanəvi şəhərləri hal-hazırda da bir-birinə bağlamaqdadır. Bundan əlavə, həmyerlimizin göstərdiyi əsgəri şücaəti imkan daxilində gənc novqorodluların diqqətinə çatdırmaq üçün gözəl fürsət idi.

Rusiyaya səfərindən bir az öncə Ruhulla Zahidov müəllifi olduğu "İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov" adlı kitabını nəşr etdirmişdi, bu isə onun Rusiyaya səfərə hərtərəfli surətdə hazırlıqlı getdiyinə dəlalət edirdi. Bundan əlavə, o həm də "Qəhrəmanlar ölmür" sənədli filmin müəllifidir.

Kitabın və filmin müəllifi haqqında bəzi fikirlərimizi xüsusilə qeyd etmək istərdik. Baxmayaraq ki, Zahidov 1965-ci ildə anadan olub, o, Böyük Vətən müharibəsi mövzusu ilə çox maraqlanır. Bu mövzu onu tamamilə özünə cəlb etmişdir. O, tanınmış xarici və sovet yazıçılarının müəllifi olduğu yüzlərlə kitabları və onlarla sərkərdənin yazdığı xatirələri və memuarları oxuyub. Bu müharibədən bəhs edən yüzlərlə filmləri izləyib, demək olar ki, müharibə haqqında bütün mahnıları əzbər bilir. Ruhulla müəllim peşəkar

jurnalist təhsilini Ukraynanın Lvov şəhərində və Bakı Dövlət Universitetində alıb. O, vətənpərvərlik, hərbi-vətənpərvərlik və müharibə mövzusu üstünlük təşkil edən 25-dən artıq kitabın müəllifidir.

Onu da qeyd edək ki, Ruhulla Zahidov bu səfərinin bütün xərclərini özü çəkmişdir. Hərçənd, o, qəti şəkildə bunun nəzərə çatdırılmağının əleyhinədir.

-İsrafil Məmmədovun öz adını əbədiləşdirdiyi və xalqımızın adına əbədi şöhrət gətirdiyi yerlərə, Velikiy Novqoroda getməsəydim, bunu özümə bağışlaya bilməzdim,- Ruhulla Zahidov deyir.

Mənə çox adamlar bu səfərlə bağlı kömək edəcəyinə söz vermişdi, lakin bir nəfərdən başqa (onun adının anonimliyini saxlamağı bizdən xahiş etdi) heç kim bu addımı atmadı. Lakin iş bunda deyil. Əsası odur ki, qəlbən görmək istədiyimiz bu işi həyata keçirə bildik.

28 iyulda Gəncədən Sankt-Peterburqa təyyarə reysi ilə uçduq, oradan isə avtobusla Velikiy Novqorod şəhərinə yollandıq. Bu şəhər həqiqətən də Velikiy (Böyük, ulu) adını daşımağa layiqdir. Bu şəhərin zəngin və şöhrətli keçmişi vardır. Və İsrafil Məmmədov da əsgəri rəşadəti məhz burada göstərmişdir.

Əvvəlcə, şəhərin Veteranlar Şurasını axtarıb tapdım. Onlarla bəxtim gətirdi.Şuranın sədri- Pilyavskaya Nina İvanovna çox səmimi insan idi. Bütün işlərdə o mənə ürəklə, səmimi qəlbdən kömək etdi. İsrafil Məmmədovu burada yaxşlı tanıyır, onun xatirəsini hörmətlə yad edirlər. Mən qəhrəmana həsr etdiyim kitabı veteranlara bağışladım.

Mən yerli azərbaycanlılardan ibarət diaspora üzvləri ilə də əlaqə yaratdım. Xüsusilə də diasporanın sədri Elşad Qurbanov

ilə dostlaşdıq. O bütün işlərini bir kənara qoyub mənimlə axtarışa çıxdı. Diaspora sədri bu işdə həqiqətən də çox köməklik etdi. Məhz onun sayəsində mən qəhrəmanın qızı Qalinanı tapıb görüşə bildim.Ona və Novqorod veteranlarına “çox sağ olun”- deyirik!

Mənim əsas məqsədimdən biri- qəhrəmanın qızlarını tapmaq idi. Məndə onlar haqqında olan məlumatların az qala 40 illik tarixi vardı. Bu illər ərzində heç kim onunla əlaqə saxlamamışdı. İndi isə onların 76 yaşı olmalı idi. İndi sağdırlarmı, -ürəyimdən keçirtdim.Əkiz bacılardan biri-Qalinanın Riqa şəhərində yaşadığını bilirdim. Digəri -Svetlana, Novqorodda yaşayırdı. Çox çətinliklə də olsa, onun yaşadığı binanı axtarıb tapa bildik. Onun 2016-cı ildə həyatdan köçdüyünü öyrəndik. Bununla belə, başqa bir işdə bəxtimiz gətirdi. Demə, Qalina Riqadan bacısının evinə köçübmüş. Mənə qəhrəmanın qızı ilə görüşmək qismət oldu. Özümü təqdim edəndə Qalina bir azca təəccüb hissi keçirtdi. Axı, uzun illər ərzində vətəni Azərbaycandan heç kim onunla maraqlanmamışdı, qohumlarından da bir xəbər-ətər yox idi. Və birdən… kimsə qəhrəmanın qızlarının axtarışına çıxıb!

-Həə, heç diaspora da bu illər ərzində bizim varlığımızdan nədənsə xəbər tutmayıb, -onun səsində narazılıq və inciklik aydın sezilirdi.

Mən onun atasının xatirəsinin vətəndə əziz tutlduğunu və onun yadigarı olan qızlarının Gəncə şəhərində və doğma Qapanlı kəndində unudulmadığını sübut etmək zorunda qaldım. Sözlərimə sübut kimi yazdığım kitabı ona təqdim etdim. Bu kitabda atası haqqında geniş məlumatlar vardı, kitabda onun və ailə üzvlərinin çoxlu sayda şəkilləri yer almışdı. Dövlətimizin başçısının Böyük Vətən müharibəsi

veteranları ilə görüşləri zamanı çəkilən şəkillərə baxdıqca, bu insanlara olan hörmət və izzəti , hər il 9 May Qələbə bayramının atasının məzarı yanında qeyd edildiyini bidikdə, onun sifətinin necə sevincə boyandığı aydın sezilirdi. O, atası ilə fəxr edirdi. Özünü, sözün əsl mənasında, neçə illər ərzində əlaqlərinin üzüldüyü xalqının bir sevimli övladı olduğunu hiss edirdi. Bu hissləri təsvir etməkdə acizəm.

Getdikcə Qalinanın bizə olan münasibəti dəyişdi, bizə daha doğma münasibət bəsləməyə başladı.Aramızda qarşılıqlı isti münasibət yarandı.”Bizimlə vətənə gedərsinizmi? Biz sizin bütün xərclərinizi ödəyərik, -sualına yox, cavabını verdi,- Yaş o yaş deyil!

-Əmim oğlu Qabildən sonra mənim Gəncə ilə olan bütün əlaqələrim qırılıb,- Qalina bildirdi…

Mən onun doğmalarının hələ də onları axtardığını bildirdim, zəng vurub bibisi oğlu Füzuli ilə danışdırdım. Qalina bu zəngə çox sevindi.

Biz Qalina ilə söhbət edərkən onun, bizdən gizlətməyə çalışsa da,həyacanlandığını, bu söhbətin onun qəlbində dərin iz buraxdığını, gözlərinin azca yaşardığını sezirdik. Biz dost kimi ayrıldıq və yenə də onun ziyarətinə gələcəyimizə söz verdik. O, bizi gözləyəcəyini bildirdi.Mən ona Gəncədə 9 May Qələbə gününün necə təntənəli keçirildiyini özündə əks etdirən və atası haqqında çəkilmiş sənədli filmin kompakt-diskini bağışladım.- Mümkünsə, bu filmi rus dilinə tərcümə edin ki, mən də atam haqqında deyilən o xoş sözləri eşidim. - Qalina bizdən xahiş etdi.

Missiyamın ikinci hissəsi qəhrəmanın rəşadət göstərdiyi Pustınka kəndini ziyarət etməkdən ibarət idi. Lakin nədənsə mənə bu səfəri təxirə salmağı məsləhət gördülər və müxtəlif

səbəblər gətirdilər. Bunun əvəzində mən Novqorodda yerləşən Döyüş Şöhrəti Zalına baş çəkdim.Geniş zallardan ibarət böyük bir binada yerləşir.Novqorodluların öz tarixlərinə necə hörmətlə yanaşdığına hörmət hisslərim daha da artdı. Kaş bizdə də belə olaydı, -bir anlıq ürəyimdən keçdi. Burada Böyük Vətən müharibəsi ilə bağlı çoxlu sayda eksponatlar yerləşdirilib. O dövrün yadigarı olan silahlar-əsl toplar, avtomatlar, pulemyotlar!.. Novqorod uğrunda gedən döyüşlərdə qəhrəman adını almış insanların portretləri asılmış stendlər! Heyf, onların arasında İsrafil Məmmədovun bircə şəkili belə yoxdur! Bu məni və diaspora üzvlərini çox mütəəssir etdi. Azərbaycanlılar öz narazılığını gizlətmədilər.Muzey işçisi İsrafil Məmmədov haqqında heç bir informasiyalarının olmadığını, əgər belə məlumatlara malik olarlarsa, ayrıca guşənin yaradılacağına söz verdilər. Biz də öz növbəmizdə bu məlumatları mütləq onlara göndərəcəyimizə söz verdik. Onu da bildirim ki, mən İsrafil Məmmədov haqqında şəkillərdən və yazılı məlumatlardan ibarət informasiyanı diaspora sədrinə göndərsəm də, hələ də bu məlumatlar muzeyə təqdim olunmamışdır…

Muzeydə maraqlı bir mübahisə də yarandı. Muzeyin əməkdaşları İ. Məmmədov haqqında maraqlananda biz onun göstərdiyi qəhrəmanlığı ətraflı təsvir etməyə, tarixlər və faktlar gətirməyə çalışdıq. Muzeyin əməkdaşı olan qadın qeyd etdi: “Dostlar,sizin dedikərinizə düzəliş etməyə məcburam. Novqorod sentyabr ayında işğal edilib. Siz isə noyabrda gedən döyüşlər haqqında danışırsınız.” Mən cavabında dedim:- Şəhərin sentyabr ayında sol sahil hissəsi işğal olunmuşdu, sağ sahil hissəsində isə qanlı döyüşlər gedirdi. Bu aylarda şəhər uzun, qanlı döyüşlər aparırdı.” Bir az mübahisə etdik. Digərləri

də qoşuldu.Onlardan biri dedi:-“Bilirsiniz, azərbaycanlı qonaqlar tam haqlıdırlar. Sadəcə, onlara afərin! Onlar bizim tariximizi biz mütəxəssislərdən də yaxşı bilir!”

Bizim missiyamız ilə maraqlanarkən onlar həqiqətən də ürəkdən təəccübləndilər.Onlar təəccübünü gizlətmədilər.- “Düşünürük ki, azərbaycanlılar bu işdə həqiqətən də bizə nümunə ola bilərlər, -onlardan biri qeyd etdi. Biz onların bu sözlərinə çox sevindik.

Müharibə haqqında yazdığım kitabı görəndə Novqorodlular bizə daha hörmətlə yanaşmağa başladılar.”Novosti Qyandji” qəzetinin 9 May 2016-cı il buraxılışını görəndə, onlar əvvəlcə əyalət şəhərində rus dilində çıxan dövlət qəzetinin fəaliyyət göstərdiyinə və Böyük Vətən müharibəsinin tarixinə belə maraq göstərdiyinə inanmadılar və düzü, təəccübləndilər. Mənim haqqımda orada məqalənin dərc edildiyini və kitablarım haqqında məlumatları oxuyanda , onlara nisbətən Azərbaycanda bu müharibənin daha çox öyrənildiyini qeyd etdilər.

Velikiy Novqorodda mən çox maraqlı görüşlər keçirtdim, yaxşı insanlar ilə tanış oldum.Rus xalqının geniş ürəyə, zəngin mənəviyyətə malik olduğuna bir daha şahid oldum.Çox mülayim, istiqanlı, sadə və ürəyiyumşaq xalqdır.Mənim buraya nə üçün səfər etdiyimi biləndə hər bir kəs əlindən gələn köməkliyi göstərməyə çalışırdı.Bu qəzet vasitəsilə mən rus xalqına öz təşəkkürümü bildirirəm! ( Bu qəzetdə çıxan müsahibəni Novqoroda göndərməyi planlaşdırıram).

Mənim Novqoroda olan səfərim diqqətdən kənarda qalmadı. Rusiya azərbaycanlıları ittifaqının mətbuat katibi Anar Həsənov mənim “Brest qalasının azərbaycanlı qəhrəmanları”, “Yaltanın azad edilməsi” və s. kimi

layihələrimlə çox maraqlandı və İsrafil Məmmədov haqqında filmin yeni formatda çəkilməsi ideyası ortaya çıxdı. Maraq varsa, bircə, qərara gəlmək və işə başlamaq qalır.

Mənim qarşımda məqsəd var idi və mən bu məqsədləri həyata keçirmək üçün işə başlamışam. İstərdim ki, Gəncədə və Qapanlı kəndində İsrafil Məmmədovun adını daşıyan məktəblər Velikiy Novqorod şəhərindəki bir məktəblə dostlaşsın, xalqlarımız arasında sovetlər birliyində olduğu kimi dostluq dövlət səviyyəsində bərpa olunsun. Yaxşılıq heç vaxt yaddan çıxmır.Və istərdim ki, bizim gənclər, istərsə də rus və digər xalqları təmsil edən gənclər olsun, öz tarixlərini unutmasınlar.

(Məqalə rus dilindən tərcümə olunmuşdur.)

Mahir İsayev, "Novosti Qyandji" qəzeti, 1-17 sentyabr, 2019-cu il.

## Mədəniyyətimiz varlığımızdır

Feysbook səhifəmizdə paylaşım Gəncənin bir sıra mədəniyyət işçiləri tərəfindən top-tüfənglə qarşılandı. Gözlənilən idi. İllər ərzində gördüyümüz mənzərədən, bizə və işimizə olan münasibətdən gəldiyimiz qənaət yalnız budur:- Bütün gücümüzlə əmək sərf etdiyimiz kitablar, qaldırdığımız məsələlər yeni dövrün məmurları tərəfindən qəbul olunmur. Çünki, onların öz iş prinsipi, tutduqları vəzifələrdə niyyət və məqsədləri vardır və bütün bunlar vətəndaşların, yaradıcı insanların istək və niyyətləri ilə çox vaxt üst-üstə düşmür. Səsini qaldıran bütün yaradıcı insanlar onların "dəyənəyi"nin qorxusu altında yaşamalıdır.

Bu, əvvəllər də belə olub, indi də belədir. Dəyişən nədir? Demək olar ki, heç nə.

Şəmkir Mədəniyyət Şöbəsi, indi isə Regional İdarə haqqında bu vaxtacan 3 tənqidi məqalə yazmışıq. Onlardan biri Mədəniyyət Nazirliyinin rəsmi qəzetində dərc olunmuşdu. Məni yazıma görə nədə ittiham etmirdilər. Hətta Mədəniyyət nazirinin bir müavini məndən soruşmuşdu:- Sənə verilən pulu niyə qəbul etməmisən? Bu səlahiyyətli mədəniyyət xadimini başa sala bilmirdim ki, mən ümumiyyətlə niyə kimdənsə rüşvət almalıyam ki?

Bu adam daha o vəzifəni tutmur. Adını da çəkmək istəməzdim.Həmin dövrdə Mədəniyyət Naziri kimi çalışan Polad Bülbüloğlu bizi şəxsən qəbul etmiş, yazdıqlarıma hörmətlə yanaşdığını bildirmişdi. Həmin müdir çox keçmədi ki, vəzifəsindən uzaqlaşdırıldı. Üstündən 15 ildən çox keçdi, şöbə regional idarəyə çevrildi, yenə də yaradıcılığa münasibətdə heç nə dəyişmədi. İdarənin indi bandit kimi vəzifəsindən uzaqlaşdırılan rəisi Höccət Əsədullayev və onun

işbaz mədəniyyət işçisi Seymur adlı bir şəxs bizim ünvanımıza nələr yazdırmırdılar, bizi nədə ittiham etdirmirdilər. Onların … daşıyanları da geri qalmırdı. Söyüş və təhqirin sayı-hesabı yox… Halbuki, qlobal bir məsələyə toxunmuşduq, idarədən kömək və dəstək gözləyirdik. O məsələdən ötrü ki, birbaşa dövlətin mədəniyyət siyasətinin tərkib hissəsi sayılırdı, birbaşa onların vəzifə səlahiyyətlərinə daxil idi. İstəmədilər, çünki, Şəmkir Regional Mədəniyyət İdarəsinin əslində tutmalı olmalı xəttinin düşmənləri idilər və ora da çalıb-çapmağa gəlmişdilər. Höccət Əsədullayev DTX tərəfindən saxlanıldı. Aydın oldu ki, bu insan idarəyə rəhbərliyi dövründə yalnız çapqınçılıq ilə məşğul olub.İndi Seymur bəy də DTX tərəfindən saxlanılıb.

Üstündən bir müddət keçəndən sonra İdarəyə yeni rəis təyin olundu. Düşündük ki, yeni təyinatla bu insan sağlam istək nümayiş etdirəcək. Yox, bu rəis də cinayət əməlləri ilə köhnə müdiri kölgədə qoydu.İşlədiyi bu 5-6 ay ərzində nələr etməyibmiş…

Ora əlbəttə ki, yeni müdir təyin olunacaq,amma, nəsə dəyişəcəkmi? Yenə də sual altındadır. Fikrimizi bildirəcəyik, yenə də başlayacaqlar bizi topa tutmağa. Bilirsiniz niyə? Çünki, əllərindən yaltaqlanmaqdan başqa bir iş gəlmir, özlərini müdiriyyətin gözünə soxmaqdan başqa bir işə yaramırlar. Onlar üçün hansı qlobal məsələlərin qaldırılmasının,bu məsələləri qaldırmış insanların şəxsiyyətinin, onun işinin məğzinin onlar üçün heç bir əhəmiyyəti yoxdur.Ona görə də ora təyin olunan müdirlərin heç birinin Şəmkir rayonunun Qapanlı kəndində İsrafil Məmmədovun adına orta məktəbin və məktəbin yaxımlığında heykəlinin olmasından və ümumiyyətlə qəhrəmanın bu rayondan olmasının heç xəbəri olmayıb. Bir Mədəniyyət İdarəsinin əvəzində qəhrəmanın və qəhrəmanlığın

təbliğini aparan yazıçı-jurnallist illərlə onların şərinin qorxusu altında yaşayıb. Gedib uzaq Rusiyanın Velikiy Novqorod vilayətində tapdığım Qalina İsrafil qızı Məmmədova Gəncə və Şəmkirin ictimaiyyətindən hələ də bir telefon zəngi gözləyir… Ölün, yerə girin, xəcalət çəkin!

Bu hadisələr həsr etdiyim yazının linkini də əlavə edirəm. Maraqlananlar oxuyub onların savad və qabiliyyətinin “dərinliyi”nə şahid ola bilər.

Amma yox, yazıçı günahkardır, bunları dövlətin onlara verdiyi maaşı rahat yeməyə qoymur!

Bu barədə dəfələrlə yazmışıq, məsələ qaldırmışıq,səlahiyyətli insanlara, başçılara məktub yazmaqdan artıq barmaqlarımız “mazol” olub. Hansı müstəviyə çıxsaq da, hələki, normal düşüncəyə söykənən bir məktub oxumamışıq. Əvəzində yalnız düşmənin yaza biləcəyi şərhləri oxuyuruq.

Onu da bildirək ki, Şəmkir Regional Mədəniyyət İdarəsinin bizə sifariş verdiyi, müəllifi olduğum kitablar hələdə mətbəədə durmaqdadır. Hələ də mətbəəyə bu kitablara görə pul borcluyuq…

Qayıdırıq Gəncə Regional Mədəniyyət İdarəsinin əməkdaşlarının feysbook səhifəmizdə edilən paylaşıma yazdıqları şərhlərə. Halbuki, onların təmsil olunduğu idarə haqqında paylaşımda bir cümlə də yoxdur. Sadəcə bilirlər ki, növbəti dəfə onladan və “yenilməz rəhbərlikdən” də nəsə yazıla bilər.Demək bu yazıların qarşısının alınmasını indidən vacibbir məsələ hesab edirlər. O yazılarda nə yazılacaq. Hansı məsələlər qaldırılacaq, dövlətə hansı xeyir gətiriləcək, onları maraqlandırmır. Əlbəttə ki, bu şərh yazanların hamısına aid deyil. Onların bir çoxu öz işi ilə həmişə hörmətə layiq olublar.

Hamısı qeyrətlidir, vətən təəssübü çəkir, yazır-yaradır, bircə bizdən başqa. Başımıza nə oyunlar gətirmirlər, işimizə hansı maneəçilik törətmirlər… İçlərində bir yaradıcı insan yox, sağlam düşüncə tərzi yox, sadəcə yarınmağı bacaran bu insanlar heç söhbətin nədən getdiyini belə anlamaqda çətinlik çəkirlər. Onlar üçün heç fərqi də yoxdur. Sadəcə kimdənsə tapşırıq alıblar, vəssalam. Bütün insani qanunlar ayaq altına atılıb. Bu paylaşıma ziyalı şərhləri yazanlar da oldu. Onlara təşəkkürlər.

Yazmaq istədiyim bəzi məqamlar Gəncə regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətova göndərdiyimiz məktubda da qeyd olunub. Məktubun elektron versiyasının linkini sizlərə təqdim edirik:

**Muzeylər bizə nə üçün lazımdır? Təkcə kiminsə maaş alması üçünmü?**

16 mart İsrafil Məmmədovun doğum günü idi. İnternetdə, vikipediyada yazılanlara inansaq, qəhrəman məhz bu gündə anadan olmuşdur. Həmin gün qəhrəmanın 100 yaşı qeyd olunmalı idi. Lakin qeyd etmədilər. Dedilər 30 May tarixində qeyd ediləcək. Lakin, bu da baş vermədi. Mədəniyyət İdarəsi Təhsil İdarəsinə ümid oldu. Muzey Mədəniyyət Nazirliyindən razılıq gözlədi. Onlar Müdafiə Nazirliyindən cavab gözlədi… Nələr, nələr oldusa, heç kim nədənsə, bu tədbirə qol qoymadı. Sanki, bu muzey Mədəniyyət Nazirliyinin deyil, kiminsə, başqa əlaqədar təşkilat və qurumların razılığı əsasında 100 illiyi keçirtməli idi. Əgər qəhrəmanın adını belə ucuz tuturlarsa, insanları niyə aldadırlar ki? Muzeyi bağlasınlar, vəssalam!

Bir muzey ki, qəhrəmanın məhz hansı tarixdə dünyaya gəldiyini aydınlaşdıra bilmirsə, o muzeyin səmərəli fəaliyyəti də şübhə altında olmalıdır. Onun adını daşıyan məktəblərdə

təşkil olunmuş guşə və stendlərdə bu tarix 30 may kimi göstərilir. Nə muzey işçiləri, nədə ki, adını daşıdığı məktəblər onun doğum tarixi ilə bağlı dəqiq məlumata malik deyillər. Bununla heç maraqlanan da yoxdur. Belə bir təəssürat yaranır - xalqımızın bu əfsanəvi oğlu, Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı, Gəncəmizin əbədi fəxri – İsrafil Məhərrəm oğlu Məmmədov artıq yaddan çıxarılmışdır? Bəlkə, bizə artıq belə əfsanəvi qəhrəmanlar lazım deyildir?

Çoxları deyə bilər- bizim Qarabağ şəhidlərimiz vardır. Bu , bizim müharibə olmamışdır. Əlbəttə ki, bu, yalnış fikirlər olardı. II Dünya müharibəsi də xalqımızın tarixinin ayrılmaz hissəsi olaraq qalır. Bu müharibədə xalqımız 350 mindən çox itki vermişdir. Və minlərlə ailələrdə bu müharibədən qayıtmamış atalar, əmilər, dayılar anılır. İnsanların gözü hələ də bu qəhrəmanların getdiyi yoldadır.

**Qalina İsrafil qızı Məmmədova:-Son 35 ildə Azərbaycandan heç kim bizimlə maraqlanmamışdır. Sanki, biz heç həyatda yox imişik…**

Müasir şəraitdə cəmiyyətimizin həyatında vacib dəyişikliklər gedir. Müstəqillik qazanmış Azərbaycan daim inkişafa can atır. Bunu həyatımızın bütün sferalarında hiss etməkdəyik. İnkişaf perspektivlərini təyin edən və onun həyata keçirilməsində böyük rola malik olan bir çox vacib amillər mövcuddur ki, onlar həyatımızın ayrılmaz – tərkib hissəsi, həyat meyarıdır. Bunların arasında yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsi həmişə cəmiyyətimizin diqqət mərkəzində saxlanılan vacib məsələlərdən biri olaraq qalacaqdır.

Biz böyüklər uşaqlara yaşadığımız şəhərin tarixi keçmişi, adət-ənənələri, qonaqpərvərliyi, abidələri, gözəl insanları,

ziyalıları, qəhrəmanları ilə öyünməyi və fəxr etməyi öyrətməyə borcluyuq. Hərbi-vətənpərvərlik tərbiyəsi də vətənpərvərlik tərbiyəsinin tərkib hissəsi kimi vacib tərbiyəvi üsullardan biridir. Təhsil ocaqlarında, xüsusilə də orta məktəblərdə çalışan pedaqoqlar bu sahədə gərgin iş aparmalı, vətənə məhəbbət, doğma diyara məhəbbət hisslərini formalaşdırarkən şagirdlərdə bu hissləri alovlandırmaq üşün bütün vacib metod və üsullardan istifadə etməyə çalışmalıdırlar. Bu məqsədlərə çatmaqla, tərbiyəvi işi onları əhatə edən sosial həyatla əlaqələndirir, təlim-tərbiyə prosesinin məzmununu, özündə əxlaqi-mənəvi, vətəndaş və vətənpərvər keyfiyyətlərini daşıyan, vətənimiz üçün nümunəvi insanların yetişdirilməsinə yönəldirlər.

Vətənpərvər vətəndaşların yetişdirilməsində qəhrəmanlara həsr olunmuş muzeylərin də böyük rolu vardır. Bu muzeylərin biri də Gəncə şəhərində fəaliyyət göstərən, Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun ev muzeyidir. Muzey yarandığı gündən yeniyetmə və gənclərin, ziyalıların, şəhər əhalisinin daim ziyarət etdiyi sevimli bir məkan olub və indi də böyüməkdə olan gənc nəslin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində böyük rola malikdir Bu səbəbdən muzey bu gün də öz əhəmiyyətini itirməmişdir. İsrafil Məmmədovun bir qəhrəman və vətənpərvər kimi həyatı Gəncəlilərin yaddaşından silinməmiş, insanların şüurunda dərin iz buraxmışdır. O, gənclərimizə həmişə bir nümunə, xalqımızın fəxri və qüruru kimi qalacaq, Vətənimiz onun adı ilə həmişə fəxr edəcəkdir.

Müasir cəmiyyətdə muzey tək elmi-maarifləndirici müəssisə deyildir, həm də şəxsiyyətin inkişafı və təlim-tərbiyəsində böyük rol oynayan mədəniyyət ocağıdır. Muzeydəki

eksponatlar gənc nəslin intellektual düşünmə qabiliyyətini artırır. Buradakı hər bir ekspozisiya onlara bilik verir, onları düşündürür, vətənpərvərlik hissini alovlandırır. Onlar qəhrəmanlara, onların keçdiyi döyüş yoluna, həyatına qiymət verməyi öyrənirlər. Bu ekskursiyalar zamanı uşaqlar qəhrəmanın göstərdiyi şücaət, qəhrəmanlıq, igidlik, Vətənə olan sonsuz məhəbbəti haqda geniş təsəvvürlərə mailk ola bilirlər. Həmçinin muzeydə şəkilləri yer almış, şəhərimizin fəxri sayılan digər veteranlar haqqında qəzet və yazılarla, II Dünya Müharibəsinə aid olan eksponatlarla tanış olmaq imkanını da əldə edir, qəhrəmanın şəxsi əşyaları, həyatı və döyüş yolunu əks etdirən foto şəkillərlə tanış ola bilirlər.

İllər ərzində muzeyin bazasında müxtəlif ekskursiyalar təşkil olunub. Hal-hazırda da burada əmək və müharibə veteranları ilə görüşlər təşkil olunmaqdadır. Muzeydə təşkil olunan bu tədbirlərin və bu görüşlərdən alınan təəssüratların gənc nəslin vətənpərvərlik tərbiyəsində rolu əvəzedilməzdir və onların təlim-tərbiyəsinə bir tövhədir. Böyük Vətən Müharibəsi qəhrəmanlarına həsr olunmuş eksponatlar öz əhəmiyyəti ilə hərbi-vətənpərvərlik tərbiyəsində sonsuz mövzudur. Muzeyə təşrif gətirmiş insanlar qəhrəmanın yaşadığı dövrə səyahət edir, müxtəlif hadisələri tutuşdurur, təhlil edir, qəhrəmanın göstərdiyi rəşadəti və qəhrəmanlıqla dolu döyüş yolu haqqında informasiyaya malik olur, əsl sənədlərlə əyani tanış ola bilirlər.

Vətənpərvərlik tərbiyəsi haqqında danışarkən onu da xüsusilə qeyd etmək lazımdır ki, müharibə şəraitində yaşayan ölkəmizdə bu tərbiyə həmişə önə çəkilməli, gənclərimizin bu ruhda tərbiyə olunması günün vacib tələbinə çevrilməlidir. Bu gün görülən işlər sabah mütləq öz sevindirici nəticələrini

verəcəkdir. Vətənpərvər, işgüzar, sağlam ruhlu və əqidəli gənclər yetişdirməklə biz stabil cəmiyyətin qurulmasına və inkişafına da töhvə vermiş oluruq.

Bununla belə, muzeydə hər şey ürəkaçandırmı?

Apardığımız araşdırmalar belə bir qənaətə gəlməməyə imkan verir. Kiçik bir məkanda bir neçə işçisi olan muzey qəhrəmanla bağlı heç bir iş görmək iqtidarında və həvəsində olmadığını həmişə ortaya qoyub. Məsələ ilə bağlı verdiyimiz suallar da muzeyin əslində elmi işçiləri sayılan, lakin həqiqətdə diletant səviyyəsində belə biliyi olmayan işçilər tərəfindən həmişə cavabsız qalıb. İsrafil Məmmədovun həqiqətdə doğum gününün hansı aya və günə təsadüf etdiyini belə aydınlaşdıra bilməyən muzey direktoru Eldəniz Babayev və onun 7 işçisi, əlbəttə ki, qəhrəmanın ailəsinin, qızlarının sonrakı taleyi barədə də heç bir məlumata malik olmayacaqdır. Aydın məsələdir ki, onlarla sıx əlaqə saxlamaq, onların həyatı və taleyi barədə hər bir məlumata malik olmaq, elmi araşdırmalar aparıb bu məlumatları muzeyə təşrif gətirənlər ilə bölüşmək muzeyin elmi işçisi və fond müdirinin birbaşa vəzifəsidir. Amma bu vəzifə borcu, deyəsən, illərlə muzeydə boş-boşuna oturub (yada günlərlə işə gəlməyərək) yalnız maaş günlərini gözləyən işçilər üçün əlçatmaz və lüzumsuz bir vaxt itkisi kimi görsənir. Bu işi görmək istəyən insanların hamısı onların "gözünün düşməni"dir. Şəxsən mən İsrafil Məmmədovun 100 illiyi ilə əlaqədar sənədli film çəkmiş, kitab yazmış insan kimi onlardan yazıçı üçün lazım olan heç bir məlumatı ala bilməmişəm. Bunun əvəzində arxamızca min bir şaiyələr danışılıb, bizə bu işdə köməklik göstərə bilən bütün insanları bezdirib qaçırıblar, İsrafil Məmmədovun 100 illiyi ilə bağlı kitabın yazılıb ərsəyə gətirilməsində min bir maneələr yaradılıb.

Müzey işçisi olmaq təkcə bu məkana gəlib-getməklə bitmir. İsrafil Məmmədovun ev muzeyində işə yarıtmaz fəaliyyət sözün əsl mənasında öz işinə cinayətkar yanaşmadır. Havayı maaş almaqla, aylarla işə gəlməyərək dövlətə illərlə külli miqdarda ziyan vurulmuşdur. Bu məsələ gündəmdə olmalı, Mədəniyyət Nazirliyi muzeylə bağlı təxirəsalınmaz işlər görməlidir. Bunun əvəzində nə görürük, qəhrəmanın 100 illiyi ilə əlaqədar muzeydə təşkil olunan “Dönməz iradə” adlı seminarda Eldəniz Babayev Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-metodiki və İxtisasartırma Mərkəzinin direktoru Asif Usubəliyev tərəfindən fəxri fərmanla təltif edilib.

Muzey fəaliyyəti təkcə ora təşrif buyuran, qəhrəman haqqında müəyyən bilgilər almaq istəyən insanlara rabitəsiz cümlələr ilə fantaziya dolu əhvalatlar danışmaqdan ibarət deyildir. Onlar burada öz savadını, biliyini biruzə verməli, onları dinləyən insanlara dəqiq məlumatlar verməli, məhz bu yolla muzeyi ziyarət edən insanlara dərin hörmətini nümayiş etdirməlidirlər.Əks təqdirdə, savadlı insanların əksəriyyəti özünü təhqir olunmuş hesab edirlər. Gəncə kimi böyük şəhərdə muzeyə belə münasibət qəhrəmansevərlər üçün həqarət, bir təhqirdir. İllər uzunu qəhrəmanın şəkillərinin asıldığı guşə İkinci mərtəbədə yerləşən mənzilin “kanalizasiya suyu”nun hücumuna məruz qalmışdır. Otağa girən insanların diqqətini ilk cəlb edən bu şəkillərin asıldığı məkandan gələn ürəkbulandırıcı qoxudur.

Ürək bulandıran təkcə bu deyildir. Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı kimi tarixə düşən İsrafil Məmmədovun qızlarının taleyi ilə maraqlanmayan Ev – muzeyin rəhbərliyi,

onun yaxın qohumları, sözün əsl mənasında xəcalət çəksə yaxşıdır.

Söz arası: Bunu etmək heç də çətin deyilmiş. Sadəcə zəhmətə qatlaşıb onun yanına getmək, axtarıb tapmaq lazım imiş.

Necə ki, biz etdik! Velikiy Novqoroda, qəhrəmanın artıq 40 ilə yaxın bir dövr ərzində yaddan çıxarılmış qızlarının axtarışına çıxmaqla, uzun, ağır, lakin şərəfli bir yol keçdik. Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun qızı Qalina Məmmədovanı uzun axtarışlardan sonra tapdıq və müsahibə aldıq. İlk anlarda inanmadı, sanki onunla pis zarafat edildiyini düşündü. Artıq gözləri yaşaranda, biz necə bir gözəl işə qol qoyduğumuzu anladıq.

Qalina Məmmədovanın "Bizimlə vətənə getmək istərdinizmi? Biz sizin bütün yol xərcinizi ödəyərik" sualina cavabı - Yox, yəqin ki, məni orda heç kim gözləmir. Mənim heç nəyə ehtiyacım yoxdur. Yaxşı təqaüd alıram. Bu mənə bəs edir. Lazım olsaydı, qohumlarım, bizi xatırlamalı, əziz tutmalı olan insanlar bizimlə bu illər ərzində maraqlanardılar!..

Və biləndə ki, orda həqiqətən də onları axtarıb tapmaq istəyi ilə alışıb-yanan insanlar var, sözün düzü, kövrəldi və məmnuniyyətlə söhbəti davam etdirdi…

# Uzaq Rusiyadan kənd məktəbinə məktub: Atam İsrafil Məmmədovu belə hörmətlə andığınız üçün sizə öz minnətdarlığımı bildirirəm

Şəmkir rayon Qapanlı kənd tam orta məktəb Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun adını daşıyır. Bu yaxınlarda Qapanlı kənd məktəbin kollektivi adından redaksiyamıza məktub daxil olmuşdu.Məktubda gördüyümüz işlərin məktəbin kollektivində qəhrəmanın qızının taleyi barədə yeni yazılarımızın işıq üzü görməsinə maraq yaratdığı vurğulanırdı.“Biz onunla əlaqə yaratmaq, onunla tez-tez məktublaşmaq istərdik. Qoy hörmətli Qalina xanım bizim sevimli qəhrəmanımız İsrafil Məmmədovu unutmadığımızı, onun adını hörmətlə, daim uca tutduğumuzu, gənc nəslin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsini onun və Azərbaycanımızın digər qəhrəman oğullarının timsalında apardığımızı bilsin.” - məktubda bildirilirdi.

Etmtv. news portalı məktəb kollektivinin məktubunu Velikiy Novqorod vilayətində fəaliyyət göstərən Azərbaycan diasporasına ünvanlamış və məktubun Qalina Məmmədovaya çatdırılmasını xahiş etmişdi. Diaspora rəhbəri Elşad Qurbanov bizim xahişimizlə hörmətli Qalinanın qonağı olmuşdur. Onu da bildirək ki, Şəmkir rayon Qapanlı kənd tam orta məktəbinin bir qrup müəllim və şagirdi adından bizə olan müraciətdə Velikiy Novqorod məktəblərinin biri ilə dostluq əlaqəsi yaradılması üçün vasitəçi olmaq xahişi ilə də müraciət edilib.

-İstərdik məktəbimiz Velikiy Novqorod şəhərinin hansısa bir orta məktəbi ilə dostluq əlaqələri yaratsın. İnanın ki, məktəbimizin kollektivi belə bir dostluğa çox şad olardı. Mümkünsə, təklifimizin Velikiy Novqorod şəhərinin yerli

hakimiyyət orqanlarına çatdırılmasında bir vasitəçi olasınız, bu işdə bizə həqiqətən də yaxından köməklik edəsiniz. – məktubda deyilirdi.

Azərbaycan diasporası müraciətin Velikiy Novqorod şəhərinin rəhbərliyinə çatdırılması işində Şəmkir məktəblilərinə dəstək olacağına və bu işdə də onlara lazımi köməkliyin göstəriləcəyinə söz vermişdi.

Etmtv. news-un redaksiyasına bu məsələ ilə bağlı Qapanlı kəndindən növbəti məktub daxil olmuşdu.

-“Şəmkir rayon İsrafil Məmmədov adına Qapanlı kənd tam orta məktəbin kollektivinə bu yaxınlarda Rusiyanın Velikiy Novqorod şəhərindən bir məktub gəlib. Bu məktubun gəlişi bu təhsil ocağının rəhbəri olaraq məni və kollektivimizi çox sevindirdi. Elimizin-yurdumuzun qəhrəman oğlu Azərbaycanın ilk Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədovun yeganə sağ qalan yadigarı olan qızı Qailna İsrafilovnadan idi bu məktub. İsrafil Məmmədovun qəhrəmanlıq salnaməsini araşdıraraq, neçə-neçə əsərlər yazan, onun qızı Qalina İsrafil qızını nə əziyyətlər bahasına axtarıb tapan, bizim salamımızı və məktubumuzu ona çatdıran siz olmusunuz, Ruhulla müəllim. Bu sizin sayənizdə oldu. Buna görə sizə öz minnətdarlığımızı çatdırır, məktəbimizin kollektivi və şagird kontingenti adından sizə öz təşəkkürümüzü bildiririk. Allah sizing kimi insanları var eləsin, bütün bunlar sizin sayənizdə oldu. İllərdi ki. Qəhrəmanımızın övladları barədə bizim heç bir məlumatımız yox idi. Sizin sayənizdə onlar haqqında məlumat ala bildik. Qalina xanımın tənha yaşaması, yaxınlarının rəhmətə getməsi bizi çox kədərləndirdi. Çox istərdik. O tənha qalmasın…

Hörmətlə. Tacirə Əliyeva. Şəmkir rayon Qapanlı kənd tam orta məktəbin direktoru.” - məktubda deyilirdi.

Qalina Məmmədovanın kənd məktəbinə ünvanladığı həmin məktubu sizə təqdim edirik:

**Hörmətli Tacirə müəllimə! Salam!**

-"Sizin mənə ünvanladığınız məktubu Velikiy Novqorodun Azərbaycan diasporasının sədri Elşad Qurbanov çatdırdı. Məni tez-tez xatırladığınız üçün sizə çox minnətdaram. Sizin və başçılıq etdiyiniz kollektivin şagirdlərinə, ilk azərbaycanlı Sovet İttifaqı qəhrəmanı,Şəmkir rayon Qapanlı kənd tam orta məktəb Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun adını daşıyır. Bu yaxınlarda Qapanlı kənd məktəbin kollektivi adından redaksiyamıza məktub daxil olmuşdu.Məktubda gördüyümüz işlərin məktəbin kollektivində qəhrəmanın qızının taleyi barədə yeni yazılarımızın işıq üzü görməsinə maraq yaratdığı vurğulanırdı."Biz onunla əlaqə yaratmaq, onunla tez-tez məktublaşmaq istərdik. Qoy hörmətli Qalina xanım bizim sevimli qəhrəmanımız İsrafil Məmmədovu unutmadığımızı, onun adını hörmətlə, daim uca tutduğumuzu, gənc nəslin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsini onun və Azərbaycanımızın digər qəhrəman oğullarının timsalında apardığımızı bilsin."- məktubda bildirilirdi. Etmtv. news portalı məktəb kollektivinin məktubunu Velikiy Novqorod vilayətində fəaliyyət göstərən Azərbaycan diasporasına ünvanlamış və məktubun Qalina Məmmədovaya çatdırılmasını xahiş etmişdi. Diaspora rəhbəri Elşad Qurbanov bizim xahişimizlə hörmətli Qalinanın qonağı olmuşdur.Onu da bildirək ki, Şəmkir rayon Qapanlı kənd tam orta məktəbinin bir qrup müəllim və şagirdi adından bizə olan müraciətdə Velikiy Novqorod məktəblərinin biri ilə dostluq əlaqəsi yaradılması üçün vasitəçi olmaq xahişi ilə də müraciət edilib.

-İstərdik məktəbimiz Velikiy Novqorod şəhərinin hansısa bir orta məktəbi ilə dostluq əlaqələri yaratsın. İnanın ki, məktəbimizin kollektivi belə bir dostluğa çox şad olardı. Mümkünsə, təklifimizin Velikiy Novqorod şəhərinin yerli hakimiyyət orqanlarına çatdırılmasında bir vasitəçi olasınız, bu işdə bizə həqiqətən də yaxından köməklik edəsiniz.-məktubda deyilirdi.

Azərbaycan diasporası müraciətin Velikiy Novqorod şəhərinin rəhbərliyinə çatdırılması işində Şəmkir məktəblilərinə dəstək olacağına və bu işdə də onlara lazımi köməkliyin göstəriləcəyinə söz verdi.böyük təşəkkürümü bildirirəm.

Bir çox qərb siyasətçiləri 1941-1945-ci illər müharibəsinin həqiqətlərini təhrif etməyə, həmin müharibənin qəhrəmanlarını müasir insanlara başqa cür çatdırmağa çalışırlar. Buna görə də hal-hazırda böyüməkdə olan gənc nəsli vətənpərvərlik və hərbi-vətənpərvərlik ruhunda və əsl qəhrəmanların nümunəsində tərbiyə etmək çox vacibdir.

Bu yeni ildə Sizə və başçılıq etdiyiniz məktəbin bütün kollektivinə və şagirdlərinizə aydın səma, sağlamlıq və işlərinizdə uğurlar arzulayıram!

**P.S.** İndi isə özüm haqqında bir az – bu yanvar ayında mənim 77 yaşım tamam olacaq. Bu yaşa və ötən fevral ayında tibbi əməliyyat olunmağıma baxmayaraq, yenə də özümü yaxşı hiss edirəm.

Mən 45 il ailəmlə birlikdə Latviyada yaşamışam. Həyat yoldaşım – həkim, mən isə mühəndis kimi çalışmışıq. Qızım Yuliya 1968-ci ildə anadan olub. Hal-hazırda oğlu ilə birlikdə İngiltərədə yaşayır. Oğlum Vladislav 1976-cı ildə anadan olub, 2008-ci ildə dünyasını dəyişib. Bundan bir il sonra həyat

yoldaşım Vladimir 68 yaşında vəfat edib. Tək-tənha qaldığım üçün 2010-cu ildə əvvəllər yaşayıb-böyüdüyüm Velikiy Novqorod şəhərinə, köçməli oldum. Burada mən əkiz bacım – Svetlana İsrafil qızı Məmmədova ilə yaşayırdım. Çox heyf ki. o da 2016-cı ildə vəfat etdi və mən həyatda həqiqətən də tənha qaldım.

Həyatımı qısaca belə təsvir etməyə çalışdım…

**Hörmətlə, Qalina İsrafilovna.”**

**P.S.** Etmtv. news olaraq bu məsələni daim diqqət mərkəzində saxlayırıq. İnanırıq ki, gördüyümüz işlər bu sahədə gənc nəslin vətənpərvərlik tərbiyəsinə böyük töhvələr verəcəkdir. Bu işlərin həyata keçirilməsində bizim də əməyimizin olduğu sevindirici haldır.

## Hər kəsin öz səngəri var - Uzun işin qısa təfsilatı

**Ötən yazılarımızda informasiya müharibəsinin rolu, mahiyyəti, aparılma üsulları və bu işdə “maneə səddi” haqqında məlumat verdik. Bu yazımız gördüyümüz işə maneələr törədən, bu işdə mənfi tərəfdən xüsusilə fərqlənən insanlara həsr olunur.**

Əvvəlki yazıları oxuyan insanlar artıq İnformasiya müharibəsinin mahiyyətinin və məqsədinin məhz nədən ibarət olduğunun fərqinə vardılar. Bu müharibə xalqımızın və dövlətimizin uca adının qorunması və bu adın göylərə ucaldılması üçündür. Bütün xalqlar bizim haqq işimizin məhz nədən ibarət olduğunu anlamalı və düşmən təbliğatının yalanlarına uymamalıdır. Bundan başqa, xalqımızın övladlarının bəşəriyyət və hansısa ölkə üçün gördüyü işlər də bu mübarizədə əvəzolunmaz bir təbliğat sistemidir. Bu sistemdə Azərbaycan xalqını təmsil edən mədəniyyət və incəsənət xadimləri, alimlər, sərkərdələr, qəhrəmanlar… xüsusi

diqqət və ehtirama malikdirlər. Onlar vətənimizin qürur yeri olmaqla, bəşəriyyət qarşısında xidmətləri olan insanlardır. Böyük Vətən müharibəsinin azərbaycanlı qəhrəmanları da bu sıraya aiddir. Demək, onların təbliği elə Azərbaycanımızın təbliği deməkdir.

Yazıçı-jurnalist kimi xalqımızn tarixinə düşən qəhrəmanlar haqqında yazdığım kitablar cəmiyyət tərəfindən hörmətlə qarşılanıb. Bu kitablarda yer alan mövzular dövlət televiziyalarının çəkdiyi iki sənədli filmdə önə çəkilib. Orada təsvir olunan hadisələr ölkə mətbuatında dəfələrlə öz əksini tapıb. Sevinirik ki, gördüyümüz iş öz bəhrəsini verib, demək tutduğumuz mövqe düzgün olub, günün tələbinə cavab verib.
Bununla belə, vətənpərvərlik tərbiyəsində böyük rol oynayan bu nəcib işimizdə bizə həddən artıq maneələr törədən insanlar olub. Onların sayı bir-iki deyil. Hər kəsin əməlinin təsviri cilid-cilid kitabların mövzusudur. Biz yalnız onların bəzilərinin ikrah doğuran əməllərinə qiymət verməyə çalışacağıq.

2 il bundan əvvəl başladığım bir işə həmyerlilərimin sosial şəbəkələrdə göstərdiyi emosional münasibəti məni ağrıdırdı. II-ci Dünya müharibəsində igidlik göstərmiş azərbaycanlı qəhrəmanlar haqqında hazırladığım yazılara tarix müəllimləri, pedaqoqlar da daxil olmaqla, çox adam mənfi reaksiya göstərirdi. Başa salırdım, onlara faşizmin əsl mahiyyətini açıqlayan cavablar yazırdım, tarix müəllimlərinə öz şərəfli işinə ləkə gətirməməyi tövsiyə edirdim, onlara erməni faşizmini göz qabağına gətirməklə, ata-babalarımızın gördüyü müqəddəs işin mahiyyətini başa salırdım. Bir gün ilk azərbaycanlı Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədov haqqında hazırladığım kitabı dərc etdirdim. Orada vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinin

aparılmasına həsr olunmuş yazılara da üstünlük verilmişdi. Qəhrəmanın Gəncə şəhərində fəaliyyət göstərən ev-muzeyində, İsrafil Məmmədovun Gəncə şəhərində adını daşıyan 27 saylı məktəb-liseydə qəhrəmanın təbliği ilə bağlı aparılan işlərdən bəhs edən yazılar hazırladım. Amma çox adam bilmirdi ki, həmin vaxt muzeyin və məktəb- liseyin rəhbərliyi tərəfindən yazara hansı təzyiqlər vardı, işimizi gözdən salmaq üçün hansı təbliğat aparılırdı, maneələr göstərilirdi. Çox iyrənc olaylara əl atılırdı. Nə muzey, nədə məktəb bu təbliğatın aparılmasında maraqlı deyildilər, çünki, dərindən maraqlandıqda, onalrın bu işdə nə savadı, nədə ki, həvəsi olduğu ortaya çıxırdı. Muzey əksəri gop olan uydurulmuş əfsanələrlə dolu çıxışları ilə yadda qalmışdı, elmi işçilər ümumiyyətlə bu işlə məşğul olmaq iqtidarında deyildilər. Və bir yazar tapılıb onların yalançı fəaliyyətini üzə çıxarırdı. Bütün bunlar “Muzeylər bizə nə üçün lazımdır” başlıqlı məqalədə öz əksini tapmışdı və tanınmış media qurumları tərəfindən də dərc edilmişdi. Onların biabırçı “fəaliyyəti” barədə mövzuya bir də qayıdacağıq. Tutduğu işlərin informasiya müharibəsində hansı mənfi, daha doğrusu cinayətkar rolunu diqqətinizə çatdıracağıq.

27 saylı məktəb-liseyin rəhbərliyinin tarixə düşən əməlləri isə heç vaxt yaddan çıxmaz. Onu Gəncə Təhsil İdarəsinin həmin dövrdəki rəhbərliyi ört-basdır etdi, bu iyrənc olayın nə ilə başa çatacağını anladılar və bizi də sakitləşdilər. Məktəbin rəhbərliyi qəhrəman haqqında hansısa yazının hazırlanmasının əleyhinə idi. Pedaqoqlardan kiminsə bununla bağlı müsahibə verməsini istəmirdi. Atdığımız ilk addım faciə ilə nəticələnəcək. böyük biabırçılığa səbəb olacaqdı. Bir qadın müəllimədən hazırladığımız yazı dərc

olunmamış qaldı. Arxamızca min şər danışdılar, sonra qorxmadığımızı görüb "jurnalist problem yaradır" deyə Təhsil İdarəsinin müdirini üstümüzə qaldırdılar. Məktəb direktoru həyat yoldaşını məni hədələmək üçün davaya yolladı, MTN və Polis İdarəsinə şikayət edəcəkləri, "üzümüzə duracaqları" ilə hədələdilər. düzü səhvlərini tez anlayıb, üzr istəməyə evə gəldilər, dilə tutdular. Kitabı hazırladığıma israrlı olduğumu biləndə yenidən hədələrə keçdilər. Bütün bunlar böyük bir detektiv romanın mövzusudur. Məktəb direktoru deyil, doğma qardaşım olsa belə, onun və ətrafının əməllərini iyrənc, pedaqoq adına yaraşmayan əməl sayıram. Məqsədləri nə idi, onlardan tərif dolu müsahibə hazırlayıb, məktəbin iş i haqqında gözəl sözlər deyib kitabda yer verən insandan nə istəyirdilər, niyə şərləməyə cəhd edirdilər, dava salırdılar-bu, hələ də mənə qaranlıq qalır. Məktəbin həyətində qəhrəmanın hələ sovetlər dövründən ucaldılmış heykəli niyə mazut rəngində boyadılaraq rənglənib? Niyə hələ də onlardan yazılmış kitabdan alıb (bu kitab şəhər əhalisinə pulsuz paylanmışdı) oxumayıblar? Niyə Etmtv. news-in qəhrəmana həsr etdiyi filmdə məktəbin çəkilməsinə icazə vermədilər?- bunu özlərindən başqa heç kim bilmir. Ürəklə deyirəm- məktəbin direktoru Kəmalə İsgəndərova həmin qəhrəmana düşmən münasibət bəsləyirdi. Qəhrəmanın nə ölkədə, nədə ölkə xaricində təbliğində maraqlı deyildi. Sanki, ona pataloji nifrət bəsləyirdi. Sual olunur – bir pedaqoq və məktəb direktoru kimi xalqımızın qəhrəmanlıq simvollarından biri olan və rəhbəri olduğu məktəbin adını daşıdığı qəhrəmana bu nifrəti hardan qaynaqlanırdı?

Onu da bildirək ki, qəhrəmanın qızlarının axtarışına çıxdığım Rusiyanın Velikiy Novqorod şəhərində Veteranlar

Şurasının sədrinin otağında İsrafil Məmmədovun şəkili asılmışdı. Bu şəhərdə əhali arasında apardığımız şifahi sorğu nəticəsində İsrafil Məmmədovu tanıyan onlarla insanlar tapıldı. Onlar qəhrəman haqqında müəyyən biliklərə və məlumatlara da malik idilər. Aralarında jurnalistlər, pedaqoqlar və ya sadə vətəndaşlar da vardı. Onlardan qəhrəmanın bu şəhərdə heykəlinin olmasına münasibətini öyrənməyə çalışdıq. Münasibət müsbət oldu. Bu şəhərin alman işğalından qorunmasında qanlı döyüşlərə atılan qəhrəmana olan hörmət hissi məni bir vətənpərvər kimi, əlbəttə ki, sevindirdi. Bu mənzərəni görəndə vətənpərvərliyin təbliği işini sözün əsl mənasında ələ salan muzey müdiri və məktəb direktoru, ümumiyyətlə, Gəncə şəhər Təhsil İdarəsi yada düşdü və mən bir anlıq qəhrəmanların təbliğinə böyük əmək sərf etməli olan insanlara görə xəcalət çəkdim. Elə Rusiyada fəaliyyət göstərən diaspora təşkilatlarına görə də. Utansalar və xəcalət çəksələr yaxşıdır. Amma inanmıram ki, onlar bu insani keyfiyyətlərə malik olsunlar. Gələn yazılarımızda Rusiya Azərbaycanlıları İttifaqı adlanan "girdirmə" bir diaspora təşkilatına həmin vaxt rəhbərlik etmiş, özünə Frenk Elkaponi kimi iyrən ad götürən Fizuli Məmmədovun adı çəkilən heykəllə bağlı Velikiy Novqorod şəhərinin meriyasını necə aldatdığı barədə geniş yazı ilə çıxış edəcəyik.

Keçmişinə hörmət qoymayan insanlar, xalqının bu gününə də biganə ola bilərlər. Əslində bu sahədə laqeydliyi ilə seçilən bu cür insanların, tutduqları rəhbər kreslosu əllərindən alınmalıdır. Təcrübədə isə başqa şey görürük.

Qəhrəman haqqında hazırlanan kitab, film böyük əziyyətlər bahasına başa gəlir. Hər şeydən əvvəl isə bu işdə böyük həvəs

tələb olunur. Fikirləşəndə ki, həvəslə başladığın işə hansı maneələr olub, bu, insanı çox ağrıdır.
İstənilən cəmiyyətdə yalan ayaq açıb yeriyir. Bu, Gəncədə də istisna deyil. Şəhərin fəxri sayılan bir tarixi şəxsiyyətlə bağlı cəmiyyətdə nə qədər riyakarlıqla qarşılaşsaq da, bu yoldan çəkilmədik. Heyf ki, oturduqları kresloda özlərini "allahın bacısı uşaqları" sayan məmurlar bu işin əhəmiyyətini dərk etməkdən uzaqdırlar. Uzaq səfərə çıxıb, qəhrəmanın qızını tapdıq, onunla əlaqə yaratmağı belə özlərinə sığışdırmadılar. Başlanmış böyük bir iş yarımçıq qaldı. Bu da neçə-neçə yazının mövzusu oldu, heyf ki, cəmiyyət bu hala bir reaksiya vermədi. Sanki, hər il qəhrəmanın məzarı önünə gül-çiçək düzən məmurların, təhsildə rəhbər işçilərin və digərlərinin bu işə heç bir aidiyyatı yox imiş.

Onu da bildirək ki, Velikiy Novqorod şəhərinin şagirdləri qəhrəmanın adını daşıyan məktəbin uşaqları ilə dostluq əlaqələri yaratmaq üçün cəhd etdilər. Vətənin təbliği işində bunun xalqımıza hansı ziyanı dəyə bilərdi ki? Təhsildə rəhbər sayılan insanların biganəliyi və laqeydliyi sayəsində bu işə də göz yumuldu. Rusiyaya səfərimiz, yaxud bu sahədə gördüyümüz işlər barədə silsilə yazılar hazırlayan, Gəncə şəhərində fəaliyyət göstərən rus qəzetindən fərqli olaraq, onlarla elə bir mərtəbədə oturan digər dövlət qəzeti isə bu işə ümumiyyətlə göz yumdu. Azərbaycanın təbliği deyəsən elə rus jurnalistlərə və pedaqoqlara daha çox sərf edirmiş! Gələn yazılarımızda biz bu mövzuya da qayıdacağıq.

**P.S.** Rus veteranlar və ünsiyyətdə olduğum onlarla rus əsilli insanlar mənim işimin nə qədər təqdirəlayiq olduğunu bildirəndə, insanların biganəliyi ilə bağlı keçirdiyim hisslər bir anlıq ötüb keçdi və mən xalqımın igid, qəhrəman

oğulları ilə bir daha fəxr etdim. Düşündüm ki, əgər bir neçə min nəfərə də öz qəhrəmanımızı sevdirə bilmişəmsə, demək, bu qədər insana vətənimi sevdirmiş oldum!

Cilid-cilid kitablarda yazılanları başa düşmək və onları həyata keçirtmək üçün sizlərdə birinci xalqına, dövlətinə və yaradıcılıq məhsullarına məhəbbət olmalıdı. Əgər bu sevgi yoxdursa, onda, sadaladıqlarımın həyata keçirilməsi üçün istəyiniz də olmayacaqdır. Bu istək onlarda yoxdur və olmayacaq da! Təhsil və Mədəniyyət İdarələrinin Mətbuat Xidmətlərində hansısa şairin, yazıçının yazdıqlarına adi oxucu qədər də diqqət yetirməyən, savadsız, yaradıcılıqdan xəbəri olmayan insanlar çalışır. Ömründə bir məqalə belə yaza bilməyən insanlar şairə, yazıçıya veriləcək dəyərin dərəcəsini özü təyin edir. Bu işdə yaradıcı insanların taleyi məhz bu savadsız kütlənin əlindədir. Onlar həmin dövlət qurumlarında möhkəm kök salmışlar və öz ”yerlərindən” ötrü də dayanmadan mübarizə aparırlar. Üstəlik savad dərəcəsi həmin vəziyyətdə olan idarə və təşkilat rəhbərlərinin istəyi də onların fikirləri ilə üst-üstə düşür. Belə olmasaydı cilid-cilid yazdığımız əsərləri (heç özlərindən yazılanları da) oxumayan insanların reaksiyası da gecikməzdi.

# Kim daha çox millətpərəstdir, Kim Qardaşyan, yoxsa, Fizuli Məmmədov?!.

Son dövrlər xaricdə fəaliyyət göstərən Azərbaycan diasporalarının işi barədə mətbuat səhifələrində gedən yazıların sayı fərqli dərəcədə artmaqdadır. Çox qəribədir ki, bu yazıların əksəriyyəti onların işinin əsasən mənfi cəhətlərini işıqlandırmağa həsr olunur. Belə bir mənzərə yaranır ki, xaricdə yaşayan həmvətənlərimiz öz vəzifə borcları ilə bağlı bütün işlərə sayqısızlıq göstərir, bu işlərə yalnız öz şəxsi maraqları prizmasından diqqət yetirirlər. Hər halda 44 günlük Vətən müharibəsi dövründə Rusiya kanallarında Azərbaycana qarşı yönələn verilişlərdə onlardan ( Anar Həsənovdan başqa) birinin də çıxışlarına rast gəlmədik.

Ortaya sual çıxır – Doğrudan da, vətənimizi xaricdə layiqincə təmsil etməli olan insanlar işlərini yalnız öz şəxsi maraqlarını güdməklə bitmiş hesab edirlər. Bəlkədə hansısa iş görülür, lakin təcrübədə bu, erməni təbliğatının qarşısını almaq üçün yetərli olmadı. Çünki, “meydan”da onların heç birinə rast gəlmədik. Ümumiyyətlə, diaspora nədir və o əslində hansı işləri ilk növbədə önə çəkməlidir?

Biz əvvəllər də diasporarın xaricdə yaşayan azərbaycanlıların həyatında rolunun nədən ibarət olduğu barədə yazılar vermişik. Əlbəttə ki, diaspora bizim nəzərimizdə vətəndən uzaqda həmvətənlərimizi bir yerə sıx toplayan, onların maraqları uğrunda əlindən gələni edən bir təşkilatdır. Onlar xarici dövlətlərin vətəndaşları olsa da, tarixi vətənləri Azərbaycandır. Harada yaşamaqlarından asılı olmayaraq, vətənimizə bağlıdırlar, onun bir parçasıdırlar, onunla nəfəs alırlar, doğma Azərbaycanı təmsil edirlər. Digər azərbaycanlılar kimi vətənimiz, torpağımız və dövlətimizlə

fəxr edirlər, ona layiq olmağı can atırlar. Bu səbəblərdən diaspora təşkilatları həmvətənlərimizlə bağlı bütün işlərdə qabaqda olmağa çalışmalı, bütün məsələlərdə onların yanında olmalıdırlar.

Elə mən də həmişə belə fikirləşmişəm. İnanıram ki, bu təşkilatlar Vətənimizin uca adı üçün əllərindən gələni edirlər. Bəs nə üçün informasiya müharibəsində ermənilərdən həmişə geri qalıblar və indi də xüsusi fəaliyyətləri ilə seçilmirlər?Bəlkə bu fəaliyyət ümumiyyətlə yoxdur? İnanıram ki, bu, olsa belə, bir çoxları üçün yalnız öz maraqlarına istiqamətləndirilmişdir.
Bir misal çəkməli olacağıq: 2019-cu ilin oktyabrın 20-də portalımızda Rusiya Azərbaycanlıları İttifaqının Mətbuat Xidmətinə istinadən "İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova Novqorod vilayətində heykəl ucaldılacaq" başlıqlı yazı vermişdik. Bu yazıda Rusiya Azərbaycanlıları İttifaqının prezidenti Fizuli Məmmədovun (Frenk Elkaponi) ilk azərbaycanlı Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədova Velikiy Novqorod vilayətində heykəl ucaldılması təşəbbüsü ilə çıxış etdiyi vurğulanırdı. Rusiya azərbaycanlıları İttifaqının prezidenti Fizuli Məmmədov və Təşkilatın Mərkəzi Aparatının üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasının müstəqilliyinin 28-ci ildönümünün qeyd edildiyi günlərdə Rusiyanın şimal-qərb regionlarında səfər etmişdilər. RAİ-nin vitse-prezidentləri Anar Həsənov və Mais Cəfərov da bu səfərdə iştirak edirdi. Nümayəndə heyəti səfərə Velikiy Novqorod vilayətindən başlamışdı. Moskvadan gəlmiş qonaqları Velikiy Novqoroddakı azərbaycanlıların diaspor təşkilatının sədri, Rusiya Azərbaycanlıları İttifaqının regional nümayəndəsi Elşad Qurbanov və digər həmvətənlilərimiz qarşılamışdı. Səfər mərçivəsində RAİ-nin nümayəndə heyəti

Parfino rayonu bələdiyyəsinin rəhbəri Elena Leontyeva ilə görüşdü. Həmin görüşün baş mövzusu Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun xatirəsinin əbədiləşdirilməsi ideyası olub. RAİ-nin prezidenti Füzuli Məmmədov Novqorod torpağında şücaət göstərmiş Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova heykəl ucaldılması təşəbbüsü ilə çıxış edib. İrəli sürülən təşəbbüs bələdiyyə rəhbərliyi tərəfindən dəstəklənib. Elena Leontyeva alman faşizmi üzərində qələbənin varislərinin ümumi tariximizə olan münasibətini yüksək qiymətləndirib. Yelena Leontyeva qeyd edib ki, Parfino rayonunun Böyük Vətən Müharibəsi Tarixi Muzeyində azərbaycanlı qəhrəman haqda geniş məlumat verilir.

Görüşdən sonra rayon rəhbərliyi RAİ-nin nümayəndə heyəti ilə bərabər Qəhrəmanı İsrafil Məmmədovun xatirəsinin əbədiləşdirilməsi üçün nəzərdə tutulmuş ərazilərə baxış keçirib. Qarşılıqlı razılığa görə İsrafil Məmmədova abidə Parfino rayonunun girişindəki ərazidə ucaldılacaqdı. Bu ərazidə abidə-tank və müharibədə həlak olmuş Parfino sakinlərinin adları həkk edilmiş xatirə lövhəsi var. Bu abidələr Parfino rayonunun simvolu hesab edilir. Füzuli Məmmədov sözügedən abidələrin bərpası və İsrafil Məmmədova abidə ucaldılmasını öz üzərinə götürdüyünü bildirmişdi. Bərpa işləri bitdikdən və abidə ucaldılandan sonra yerli hökumət bu yerdə Qəhrəmanlar xiyabanının açılışını etməyi planlaşdırırdı. Layihənin gerçəkləşməsi üçün müvafiq iş prosesinə artıq start da verilmişdi.

Bu razılaşmanın üstündən artıq 1 il ötür. Bu il ərzində tez-tez diaspora ilə əlaqə saxlayır, heykəlin və parkın vəziyyəti ilə maraqlanırdıq. İndi aydın olub ki, Fizuli Məmmədov parkın

təmiri və heykəlin hazırlanması üçün söz verdiyi 100.000 dollar vəsaiti bələdiyyənin hesabına köçürməyibmiş.

Velikiy Novqorod diasporasının rəhbəri Elşad Qurbanov ilə yazışmadan sitat gətiririk:

-Abidənin axırı necə oldu? Bir xəbər bilsəydim şad olardım.

**-Френк нас подвёл. Ушел из организации и меня опозорил . Отказался от проекта. (Frenk bizi pis vəziyyətdə qoydu. Təşkilatdan getdi və məni biabır etdi. Layihədən imtina etdi)**

-Deyilənə görə Velikiy Novqorod şəhərinin meriyasına 100 min dollar pul keçirmişdi. Pulu da geri aldı?

**-Никаких денег не было. Он не выходил на связь с администрацией области.(Heç bir pul olmayıb. O, vilayət rəhbərliyi ilə heç bir əlaqə saxlamayıb-yəni pulu köçürməyib- red.)**

Görəsən bu, həqiqətdirmi? Hər halda Elşad Qurbanov belə yazır. Onda belə çıxır ki, diasporaların əksəriyyətinin işi xalqımıza yalan danışmaq, aldatmaq və sairdən ibarətdir.Əgər Fizuli Məmmədov kimi şəxslər üçün Vətənin adı və çəkisi belədirsə, digər tanınmış diaspora üzvlərinin işinə də kölgə düşmüş olur. Mənim fikrimcə, onlar Kim Qardaşyan qədər də millətpərəst deyillər.

Onu da qeyd edək ki, qəhrəmanın şərəfinə abidə ucaltmaq ideyası da mənə məxsusdur. Fizuli Məmmədov da dəstəsi ilə birlikdə yalnız mənim Velikiy Novqoroda olan səfərimdən sonra bu şəhərə təşrif buyurmuşdu. Sonralar təşkilatın mətbuat katibi Anar Həsənov verdiyi müsahibələrin birində bu ideyanın ona məxsus olduğunu bildirmiş və bu, sosial şəbəkələrdə gülüşlə qarşılanmışdı. Çünki, bundan qat-qat qabaq respublika mətbuatı bu ideyanın məhz mənə məxsus olduğu haqda

məlumatlar dərc etmişdi. Mən də onun MüsavatTV-yə verdiyi müsahibəsinin altında şərh yazaraq, bəzi telefon danışıqlarımızı ona xatırlatmalı olmuşdum.

**P.S**. Belə halda başlıqda verdiyimiz suala Fizuli Məmmədovun cavab verməsini israrla gözləməli olacağıq. Bu sualın ona çatdırılması üçün bütün mümkün vasitələrdən istifadə edəcəyik. Əgər gücünü bizə göstərmək istəyəcəksə, idman zalına gedib, ştanq qaldırmasını məsləhət görərdik. Yox, özünü əsl azərbaycanlı sayırsa, bizimlə əlaqə saxlamaq və suallarımızı cavablandırmaq elə də çətin iş deyildir.

## Biz nə qədər vətənpərvərik?!.

Vətənpərvərlik mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürür kimi də hallanır. Burada vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir.

Bu il faşizm üzərində qələbənin 80 illiyi tamam oldu. Azərbaycan xalqının da tarixə qəhvəyi taun kimi daxil olmuş faşizm üzərində qazanılmış bu qələbədə öz payı vardır. 350 mindən çox igid oğul və qızını bu dəhşətli müharibədə itirmiş xalqımız hələ də bu qəhrəmanların xatirəsini əziz tutur. Xalqımızın Böyük Vətən müharibəsində qəhrəmanlıqla dolu mübarizəsi hərb tarixinə qızıl hərflərlə yazılmışdır. Və üstündən on illərlə vaxt keçsə də, bu mövzu öz aktuallığını bu gün də qoruyub saxlamışdır və müharibə şəraitində yaşayan bir xalqın gələcəyi sayılan gənc nəslin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində böyük önəm daşımaqdadır.

İllər ərzində bu mövzuda yazılar hazırlayan, kitablar nəşr etdirən yazar kimi bu işin müasir dövrdə necə bir gərəkli iş olduğunu anlayır və bizi hansı çətinliklərlərin gözlədiyini bildiyimiz halda yeni-yeni yaradıcı axtarışa çıxır və min bir əziyyətlə də olsa, istəyimizə nail ola bilirik. Çətinliklər çoxdur, manelər sonsuz, saysız - hesabsızdır, bu nəcib işdə bizə maneəçilik edənlər bir-iki deyil. Bununla belə, qarşımıza çıxan bütün çətinlikləri dəf etməyi artıq öyrənmişik. Neyləmək olar, insanların heç də hamısı bu müharibənin xalqımıza gətirdiyi

dəhşətləri, bu qələbəyə verdiyi tövhəni bilmir, adları tarixə düşən qəhrəmanları tanımır, yaxud tanımaq istəmir. Bəs bu işdə aparıcı rol oynamalı olan insanların, əsasən də məmurların qəhrəmanların təbliği işində yarıtmaz, çox vaxt isə cinayətkar münasibətinə kimlər öz qiymətini verməli, münasibətini bildirməlidir? Onlara kim "dur!" deyəcək. Doğrudanmı, bu hal elə həmişə belə davam edəcək? Bəlkə korrupsiya girdabına batmış bu məmurlar həmişə cəzasız qalacaq?

Bu sahədə yaradıcı işlərlə bağlı kimlərə məktublar ünvanlamamışıq, kimlərdən əməli dəstək istəməmişik? Baxmayaraq ki, bu dəstəyin içində bir dəfə də olsa, maddi yardım istəyi və çağırışı olmayıb, gördüyümüz işə can yandıran bir-iki insan istisna olmaqla, demək olar ki, bütün məmurlar bizləri min bir yalanlarla, yaxud dolayısı da olsa, "başdan etməyə" çalışıb. Onların içində İcra başçıları da var, Təhsil və Mədəniyyət İdarələrinin rəhbərləri də. Yadımıza gəlmir ki, hansısa Veteranlar Şurası bu işdə bizə kömək etsin. Heç cəhd etmirlər də. Sanki, bu rəhbər vəzifələrə təyinat alan insanlar vətənpərvərlik hissindən məhrum olanlar arasından seçilir. Yaxud da aylar ötdükcə onlarda bu hisslər həyatda sonuncu plana keçir. Bizə qəhrəmanlar lazım deyil? Bəlkə qəhrəmanlığın təbliği artıq lüzumsuz bir işə çevrilib?

Məmurların sənədlərdə önə çəkdiyi işlərin böyük hissəsi yerlərdə öz işinə məsuliyyətlə yanaşan insanların zəhməti və istəyi sayəsində ərsəyə gətirilmiş, həyata keçirilmiş işlərdir. Onların yalnız müəyyən hissəsi tarixi, əlamətdar və bayram günlərinə təsadüf edir ki, bu da, dövlət səviyyəsində həyata keçirilməkdədir. Gördüyü, yaxud görməli olduğu, bundan ötrü dövlətdən məvacib alan insanların həyata vəsiqə almış (yaxud kağız üzərində yer almış) işlərlə qürrələnməsi sadəcə,

gülüncdür! Amma bu sənədlər, onların guya ki, effektli işini önə gətirən faktordur. Kağız üzərində əksini tapan, bununla belə çoxu həyatda təsdiqini tapmayan effektli iş!

Fikirləşdik ki, qarşılaşdığımız, günlərlə deyil, aylarla vaxtımızı alan, yaradıcılığın-ərsəyə gətirilməli olan kitabların, videomateriallarin, insanların böyük marağına səbəb olacaq, onlarda qəhrəmanlara rəğbət yaradacaq yazıların qarşısına "kötük atan" insanların nifrətə layiq görülən əməllərini təsvir edən yazılara da vaxt ayıraq. Onların əməllərinin milli-mənəvi dəyərlərin, vətənpərvərliyin təbliği işinə vurduğu ziyankarlığa, bu işin törədə biləcəyi, yaxud törətdiyi fəsadlara həsr olunmuş yazılara da yer verək. Bu insanları tanıdaq. Yəqin ki, bu, oxucular üçün çox maraqlı olacaqdır. Bu yazılar sənədlər üzərində qurulacaqdır.

İlk yazımız Şəmkir Regional Mədəniyyət İdarəsinin bu işdə yarıtmaz fəaliyyətinə həsr olunub.

Onu da qeyd edək ki, Etmtv. news portalı adından çəkilişi planlaşdırılan "Şəmkir və Gəncə Böyük Vətən müharibəsi illərində" sənədli filminin ssenarisinin hazırlanmasında bizi maraqlandıran suallara cavab tapmaq ümidi ilə Şəmkir Regional Mədəniyyət İdarəsinə suallar ünvanlanan məktub göndərmişdik. Şəmkir rayon İcra Hakimiyyəti Başçısına ünvanladığımız məktuba cavabda işimiz təqdirəlayiq sayılsa da, adı çəkilən idarədən aldığımız cavablar ürəkaçan olmadı. Həmin məktuba yazdığımız cavabı oxuculara təqdim edirik. Beləliklə:

**Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Höccət Əsədullayevə**

Sizin 11.06.2020-ci il tarixli məktubunuzu aldım. Orada Şəmkir Regional Mədəniyyət İdarəsinin nəzdində fəaliyyət

göstərən mədəniyyət müəssisələrində milli-mənəvi dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə görülən işlər sadalanır. Əlbəttə ki, görülən bu işlər bizi yalnız sevindirir və biz, yaradıcı insanlar bunu həmişə alqışlamışıq. Bununla belə, məktubda qeyd etdiyiniz bəzi nüansların bizi sarsıtdığını çox təəssüf hissi ilə bildirməliyəm .
Əvvəlcə sizin qəhrəmanların və qəhrəmanlığın təbliği işi ilə bağlı bəzi məsələlərdə savadsızlığınıza və məlumatsızlığınıza əyani sübut olan kəlmələrinizə və məktubda mənə qarşı yer alan gizli hədələrə və gördüyümüz işə göstərilən rişğəndə rəğmən cavab verməməyi düşündüm. Lakin məktubunuzun sonunda mənə ünvanladığınız “əks sual”ınıza dəqiq və dürüst cavab istəyinizi nəzərə alaraq, bu məktuba cavab yazmağı qərara aldım.

İlk öncə onu da bildirməliyəm ki, mən yazıçı, jurnalistəm, yaradıcılığımda vətənpərvərlik və hərbi-vətənpərlik tərbiyəsinin aşılanmasını həmişə önə çəkmişəm. Düşünürəm ki, müharibə şəraitində yaşayan xalqımız üçün Böyük Vətən müharibəsi qəhrəmanlarının təbliği işi də çox önəmlidir və bu qəhrəmanlar dünyanın faşizm taunundan xilas edilməsində heç də digər xalqların nümayəndələrindən az rol oynamamışlar. Onlar bu gün də sevimli qəhrəmanlar olaraq qalmaqdadır. Bu sahədən yazdığım, müəllifi olduğum kitablardan sizin masanın üstündə də vardır və onları sizə şəxsən özüm təqdim etmişəm. Heyf ki, siz bu kitabları açıb oxumamısınız. Əks təqdirdə mənə -yaradıcı insana belə suallar ünvanlamazdınız. Əgər cavab istəyirsinizsə, onda onu sizə təqdim etmək bir şərəf məsələsidir. Necə ki, dövlətin sizlərə etibar etdiyi sahəni ləyaqətlə təmsil etmək də sizin üçün bir şərəf məsələsi olmalıdır.

Nəzərinizə çatdırım ki, məktubda Böyük Vətən müharibəsi iştirakçıları ilə bağlı sadaladığınız işlərin bir çoxu güman ki, sizin fanataziyanızın məhsuludur və görülübsə belə, yenə də Regional Mədəniyyət İdarəsi üçün yetərli sayılmamalıdır. Eyni zamanda ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun anadan olmasının 100 illiyi bu ilə yox, ötən 2019-cu ilə təsadüf edir. Ölkəmizin heç yerində bu yubiley dövlət səviyyəsində keçirilməmişdir. Deməк, Şəmkir Regional Mədəniyyət İdarəsində də bu yubiley ilə bağlı böyük həcmli tədbirlər həyata vəsiqə almamışdır. Bu səbəbdən, qəhrəmanın həyatının və döyüş yolunun təqdidatçısı olan bəndənizə məktubda verdiyiniz məlumatlar bizdə yalnız istehza doğurur. Ötən ilin dekabrında sizinlə ilk görüşümüzdə İsrafil Məmmədovun Şəmkir rayonunun Qapanlı kəndində abidəsinin olması məlumatının ilk dəfə məndən eşitdiyinizi (özü də yubileydən yarım il keçdikdən sonra) dediyinizi sizə xatırlatmağa məcburam. Regional İdarənin rəhbərinin bu barədə xəbəri yoxdur! Belə halda məktubunuzda qeyd olunmuş "Qapanlı kəndinə ucaldılmış abidəsi ziyarət olunaraq, gül dəstələri qoyulmuşdur" kəlmələrinə şübhə ilə yanaşmağa məcburuq. 30 may 2019-cu il tarixdə rəhbəri olduğum Etmtv. news portalının çəkiliş qrupu elə mənim yazdığım ssenari əsasında həmin kənddə qəhrəman haqqında sənədli film hazırlayırdı və bizlərdən heç kim onun abidəsi önünə gül-çiçək qoyduğunun şahidi olmayıb. Abidəyə aylarla, bəlkə də illərlə qulluq göstərilməmişdi. Toz-torpaqdan dəhşətli görkəmi vardı. Yalnız bizim israrla xahişimizdən sonra yerli insanlar bir nərdivan tapıb abidəni yuyub, toz-torpaqdan, quş peyinindən təmizlədilər. Onda insanların sizi hansı söyüş və tənqidlərə layiq gördüyünü eşidib-görsəydiniz. Qəhrəmanın abidəsinə

belə münasibət yalnız düşmənçiliklə ölçülə bilər. Siz qəhrəmana düşmənsinizmi?
Məktubu oxuyandan sonra belə qərara gəldik ki, ya sizin bu məktubun yazılmasından xəbəriniz yoxdur, yada Böyük Vətən müharibəsi haqqında heç bir anlayışa sahib deyilsiniz. Bunu sezmək və başa düşmək üçün elə də böyük savada malik olmaq tələb olunmur. Əks təqdirdə, siz ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovu Milli Qəhrəman adlandırmazdınız. Məktubunuzdan sitat – "İsrafil Məmmədovun, Mübariz İbrahimovun və digər Milli Qəhrəmanlarımızın…" Ən gülməlisi isə odur ki, bu sözlərdən sonra yer alan növbəti abzasda İsrafil Məmmədov ilk Azərbaycan Sovet İttifaqı Qəhrəmanı kimi qeyd olunur.

Özünüzdən kəşf etdiyiniz yeni titul yalnız sizin qəhrəman haqqında olan təsəvvürünüzü və biliyinizin səviyyəsini əks etdirir. Belə olan tərzdə sizin rəhbərlik etdiyiniz İdarədə qəhrəmanlığın təbliği ilə bağlı işlərin hansı səviyyədə həyata keçirildiyini göz önünə gətirmək də çətin deyildir. Belə halda "Şəmkir Böyük Vətən müharibəsi illərində" sənədli filminin çəkilişlərinə göstərdiyiniz tam biganəliyi, maneələri və Mədəniyyət Naziyliyi adından çəkilişə qadağa qoymanızı tam anlayırıq. Siz bunu istəmirsiniz, müsahibə verməkdən çəkinirsiniz və elə tabeçiliyinizdə olan işçilərin də bu sahədə olan məlumat, bilik və bacarığına da tam bələd olduğunuz üçün bu addımı atmağa qorxursunuz. Əgər belə deyilsə, əksini sübut etmək üçün hansısa addım atın. Biz buna şad olarıq.

Növbəti gileyimiz bizi dolayısı yolla hədələmək və gördüyümüz nəcib işə rişxəndlə yanaşmağınızdır. Sizə ünvanladığımız ."Ötən ilin iyul ayının sonunda Velikiy Novqorod şəhərinə səfər etdik və İ. Məmmədovun qızı

Qalinanı tapıb müsahibə aldıq. Bütün respublikada bu xəbər sevinclə qarşılandı. Əfsuslar olsun ki, "xahiş edirik onun qızlarını tapın" deyib telekanallara müsahibələr verən insanlar və eləcə də, Şəmkir Regional Mədəniyyət İdarəsi bu xəbərə heç bir reaksiya vermədi. Sizcə Mədəniyyət İdarəsi qəhrəmanın qızının tapılması xəbərinə niyə biganə qalmalı idi? Onunla əlaqə yaradılıb, heç olmazsa hal-əhvalını sormaq, idarənin işinin tərkib hissəsi sayıla bilərmi?" sualına verdiyiniz cavab bizi şoka saldı.

Məktubunuzdan sitat:- "Tək Düyərli kənd mədəniyyət evinin facebook səhifəsinin izləyiciləri (Qeyd: Yəqin "izləyicilərinin sayı" yazmaq istəmisiniz) 5000-ə çatıb. Sizə əks sualımız olacaq və sizin youtube kanalınızın cəmi 3 nəfər abunəçisi olduğu halda, yəqin ki, dəqiq və dürüst cavab verməyə çətinlik çəkməyəcəksiniz. Azərbaycan xalqı və mədəniyyəti üçün Qalina və Svetlana hansı dəyərli işlər görüblər?"

Bu sözləri bizə göndərdiyi məktubda qəhrəmanlığın təbliği ilə bağlı geniş işlər apardığını təntənə ilə önə çəkən Regional Mədəniyyət İdarəsinin rəhbəri yazıb?

Qeyd etməliyəm ki, abunəçilərin sayı bizim savad, bacarıq və intellektual səviyyəmizin göstəricisi deyildir. Bunu yazmaqla şəxsiyyətimizi aşağılamaq və gördüyümüz işin səviyyəsini heçə endirmək niyyətiniz vardır. Bundan əlavə, siz sosial şəbəkə, internet resursları və kütləvi informasiya vasitələrini də qarışıq salırsınız və bu sahədə də məlumatınız sıfıra bərabərdir. Bizim Youtube kanalımız başçılıq etdiyimiz portala yalnız köməkçi vasitədir və videoqalereya rolunu oynamaqdadır. Üstəlik Youtube kanalı bizim iş yerimiz deyildir və müxtəlif illərdə çəkdiyimiz filmlərin bir hissəsinin arxivi rolunu

oynayır. Bu, çəkdiyimiz filmlərin yalnız bir hissəsidir (bir çoxu isə respublikamızda fəaliyyət göstərən telekanallara məxsusdur və ssenari müəllifi də mənəm) və onların böyük əksəriyyəti televiziya və internet televiziyasında nümayiş olunmuşdur, ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır və demək, minlərlə baxıcı sayına malikdir. Biz kiminləsə abunə və ya izləyici yarışına da çıxmamışıq. Abunəçinin say azlığı da bu kanalın təzə yaranması ilə bağlıdır. İnşallah siz öz ambisiyanızı bir kənara qoyar və özünüzə əziyyət verib elə Şəmkirli qəhrəmandan, eləcə də Şəmkir rayonunun təhsil işçilərinin qəhrəmanlığın təbliği ilə bağlı apardığı işlərdən bəhs edən filmə də baxarsınız. Abunəçi də olsanız, say 4-ə qalxar. Həmçinin, sosial şəbəkələr, internet resursları və KİV haqqında da biliyinizi artırmaq yerinə düşərdi.

Qayıdaq mənə ünvanladığınız "əks sual"a. Bunun cavabı üzərində bir neçə gün düşünməli olduq. Sizin xahişinizi yerinə yetirmək zorundayıq. Düşündük, bəlkə də biz səhvik. Nəyisə düz etmirik. Ona görə də mədəniyyət sahəsində kifayət qədər tanınmış simalara, yaradıcı insanlara müraciət edib, onlara sizin yazdığınız cavaba münasibət bildirməyi xahiş etdik. Bu cavabların bir hissəsini sizə təqdim edirik:

-Bir Regional Mədəniyyət İdarəsinin rəhbəri yazıçı-jurnalistə təhqiramiz məktub ünvanlayıb. Sizcə yazıçı tərəfindən bu məktubun ictimailəşdirilməsi nə dərəcədə etik normalara cavab verərdi?

-Elə necə varsa o cür də verin. Müzakirəni oxucuya verin.

-Məktubda mənə ünvanlanan "əks sual"da deyilir**:** "Youtube kanalının cəmi 3 nəfər abunəçisi olduğu halda yəqin ki, bu suala dürüst cavab verməyə çətinlik çəkməyəcəksiniz. Azərbaycan xalqı və mədəniyyəti üçün Qalina və Svetlana (ilk

azərbaycanlı Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədovun qızlarını nəzərdə tutur) hansı dəyərli işlər görüblər?"

Sizcə, bu həqarətə necə cavab verilməlidir? Əslində onlar xalqımız və mədəniyyətimiz üçün kimdirlər?

-Elə onların varlığı özü bir xidmətdir bu xalq qarşısında. Çünki bu millətin tarixi və varlığı baxımından dəyərlidirlər.

-Sizcə bu kəlmələr onu yazan insanın hansı pis xüsusiyyət və cəhətlərini üzə çıxarir? Doğrudanmı Mədəniyyət İdarəsinin işində qəhrəmanın övladları ilə əlaqə yaratmaq artıq iş sayılır? Qanunla necə olmalıdır?

-Demək, Milli dəyər və bəşəri ideyalar onun üçün yoxdur.

-Hansı mənada yoxdur?

-Gənc nəslin tərbiyəsi və qəhrəmanların təbliği işinin, həmçinin, tanıdılma prinsipinin yoxluğu baxımından.

-Onlar məktubda İsrafil Məmmədovu Milli Qəhrəman adlandırırlar..

-Hələ bunlar Milli qəhrəmanla Sovet İttifaqı Qəhrəmanını ayıra bilmirsə, sözün bitdiyi andır…

Sizə yazdığım cavabda işinizin mənfi tərəflərini sübut edən onlarla fakt və sübutlar əlavə etmək olardı. Lakin, məktubu sizin təbirincə desək, "əks sual"la bitirməli olacağam:

– Soruşmaq ayıb və günah olmasın, axı Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyatın əks etdirildiyi videogörüntülər ölkəmizin bütün telekanallarında yayımlandı və siz də Mədəniyyət İdarəsinin tabeçiliyində fəaliyyət göstərən Musiqi Məktəblərindən hər ay 11.000 manat rüşvət aldığınızı etiraf etdiniz. Bəs niyə türmədə deyilsiniz? Və sizin daha hansı cinayətlərdə və korrupsiya əməllərində əliniz vardır?

# Həqiqət, ədalət və mədəniyyət yoxluğu - Bu çürük təfəkkürlə hara doğru gedirsiniz?..

Həqiqət -reallığın subyektiv dərk edilməsi, ədalət və düzgünlük termininin sinonimidir. Ani düşüncədə "həqiqət " subyektin hərəkətinə haqq qazandırır. O, həqiqətə uyğun gələn hər şeydir.

İnsan əldə etdiyi məlumatı təsdiqləmək, öyrəndiklərinin mahiyyətini, həqiqətini dərk etmək üçün müxtəlif vasitələrlə onun mənbəyinə can atır və ona yaxınlaşdıqca həqiqətin daha dərin qatları açılır. Kiçik mənbələrin kəşfi daha böyük mənbəyə yol aça bilir. Bu zaman fərqli dünyagörüşlərin, müasir dövrdə qloballaşan ideyaların qarşı-qarşıya gəlməsi qaçılmazdır. Bu isə əksər hallarda böyük mübahisələrə gətirib çıxarır. Neyləmək olar, qələm əhli üçün müxtəlif fikirlər, tənqidlər, təhqirlər və şər-böhtandan qaçmaq mümkünsüzdür. Bu, 100 il bundan əvvəl də belə olub, indi də belədir, belə görsənir ki, bu hal hələ onilliklər dövründə də davam edəcəkdir. Bu hal yalnız ədalətin tam hökm sürdüyü cəmiyyətdə öz həqiqi axarını tapacaqdır.

Bəs Ədalət özü nədir?Ədalət-mücərrəd mənalı sözlərdəndir. İnsanlar arasında mübahisəli məsələlərdə düzgün, qərəzsiz qərar verənlər ədalətli adlanırlar. Əxlaqi-hüquqi, həmçinin sosial-siyasi şüur kateqoriyasına aiddir. Bu hal insanın hansı mədəniyyətə malik olduğunun göstəricisi də ola bilər. Mədəniyyət isə həm də hər bir insanın az və ya çox dərəcədə əldə etdiyi bilik və vərdişlər, ictimai və istehsalat həyatı, savad və tərbiyəsi, yaradıcılıq və mənəvi-əxlaqi fəallığıdır. Eyni zamanda, buraya insan tərəfindən yaradılmış sərvətlər, o cümlədən maddi-mənəvi sərvətlər də daxildir.

Demək, ədalətli olmaq üçün tək formalaşmış vərdiş və bacarıqlar kompleksi bəs etməz. İnsan bu halda həm həqətpərəst, düzgün, vicdanlı və… mədəniyyətli olmalıdır. Bütün bu keyfiyyətlərə sahib insanlar təbiətin xoşbəxt insanlarıdır. Bəzən özləri də bilmədən yaşamaq, yaratmaq, insanlara, cəmiyyətə xeyir gətirmək istəyi ilə bu xəzinəni əməllərində, fikirlərində - düşüncələrində daşıyırlar.

Bütün bunların qarşılaşdığımız hadisələrin analizinə böyük aidiyyatı vardır.

Ötən ayın sonunda Gəncədə “Azərbaycan Nəşriyyatları” İctimai Birliyinin (ANİB) təşəbbüsü və təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə İctimai İştirakçılıq Məclisinin təşkilati dəstəyi ilə “Nizami Gəncəvi İli”nə həsr olunan I Gəncə Kitab Sərgisi keçirildi. Sərginin açılışında Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, deputatlar, yazıçılar və kitabsevərlər iştirak etdilər. 3 gün davam edən sərgidə ölkənin 30-dan artıq nəşriyyatı və 10-dan çox kitab evi iştirak etdi. Sərgidə məşhur şair və yazıçıların iştirakı ilə təqdimatlar, imza mərasimləri, şeir gecələri, uşaqlar üçün nağıl saatları, rəssamların, müxtəlif sənət nümayəndələrinin əsərlərindən ibarət sərginin təşkili və bədii proqramlar keçirildi. Bir sözlə, Gəncə sakinləri eşidib, bildikləri, əsərlərini oxuduqları bir çox şair və yazıçılarla canlı təmasda ola bildilər. Bu, əlbəttə ki, təqdirəlayiq bir tədbir idi və çoxlu sayda sevindirici anlarla yadda qaldı.

Bunula belə Gəncənin adı ilə bağlanan Kitab Sərgisinin şəhərimizə nə kimi yeniliklər gətirdiyini və gələcəkdə də hansı yeniliklər gətirəcəyini bilmək istədik. Kitab Sərgisində Gəncəni təmsil edəcək yaradıcı insanlar kimlər olacaq, onların hansı əsərləri gəncəli oxuculara təqdim olunacaq, tədbirdə

Bakıdan təşrif gətirmiş məşhurlar ilə birlikdə Gəncənin ədəbi mühitinin siması sayılan məşhurlardan kimlər biz yaradıcı insanları təmsil edəcəkdir? Bu haqda çoxlu sayda suallar mövcud idi, bununla belə, başçılıq etdiyim təhsil portalı üçün cavab almalı olduğumuz konkret insanları tapa bilmədik. Kimi dilləndirdiksə, hədə gəldi. Sizə cavab yazacağıq!

Onların nə yazacağını təsəvvürümə gətirirdim. Yaşadıq, gördük!

Əldə etdiyimiz məlumatları təsdiqləmək, öyrəndiklərimizin mahiyyətini, həqiqətini dərk etmək üçün müxtəlif vasitələrlə onun mənbəyinə can atdıqca və ona yaxınlaşdıqca həqiqətin daha dərin qatları açıldı. Kiçik mənbələrin kəşfi bu dəfə daha böyük mənbəyə yol açdı. Bu zaman fərqli dünyagörüşlərin, müasir dövrdə qloballaşan ideyaların qarşı-qarşıya gəlməsi isə qaçılmaz oldu.

Sərgi ilə bağlı bir çox müəmmaların aydınlaşdırılması cəhdi az qala fəlakətlə üzləşəcəkdi. Soruşduğumuz hər sözə görə hədələr, təhqirlər, nalayiq hərəkətlər-sanki, bu, kitab sərgisi deyildi, insanların söz soruşmaq haqqı yox imiş və Gəncənin simaları da elə bunlar imiş.Özlərini kitab sərgisinin elanlarnda "Gəncənin simaları" kimi təqdim edənlərin bəzilərinin sonda bacarıqlı olsalar belə, kobud, çürük təfəkkürlü, vətənpərvərlikdən və insanlıqdan uzaq hərəkətləri bizi dəhşətə gətirdi. Dövlət tədbirinin sona çatmasını gözləmək ümidilə müşahidəni davam etdirmək qərarına gəldik. Müşahidələr zamanı bir qrup insanın dövlət tədbirini öz maraqlarına tabe etdirməsinin şahidi olduq.

Gəncənin onlarla istedadlı yazarları onlara diqqət ayrılacağı ümidi ilə sərgiyə qatıldı. Əslində onlar heç yada düşmürdü, yalnız israrlı suallarımızdan çəkinib, onlara sərgidə öz

kitablarını satışa qoymaq üçün bir masa ayrıldı. Ondan bir gün qabaq isə "Gəncə yazarlarına məlumat vermişik"deyə bildirən tədbir təşkilatçılarından biri-İmamverdi Vəliyevin sözlərinin həqiqiliyini dəqiqləşdirmək üçün Azərbaycan Yazıçılar Birliyinin Gəncə bölməsinin sədri Xəzangül Hüseynovaya da zəng vurmalı olduq -"Bizim bu haqda məlumatımız yoxdur"- deyə cavab verdi. Əgər Gəncənin heç bir məşhur siması təqdim olunmayacaqsa, bəs bu sərgi kimin üçün təşkil olunub ki?- sualımıza "Gəncənin yazarlarını nə vaxt insan yerinə qoyublar ki?" cavabını aldıq. Onu da bildirək ki, həmin İmamverdi Vəliyev həm də Gəncədə Maarif Evi İctimai Birliyinin sədri kimi özünü bizə təqdim etmişdi və müəllifi olduğum "Gəncə Vətən müharibəsində" kitabını təhqiramiz formada üstümüzə tullamışdı. Bu kitabda kimi və nəyi bəyənmirsiniz?- sualıma kitabxana işçilərinin gözü qarşısında "voobşe, siz kimsiniz e, bu şəhərdə" sualını da mənə o vermişdi. Əlbəttə ki, şəhərin yazarlarını tanımaqda çətinlik çəkdiyini anladığımdan sərgidə nələrin baş verəcəyini də ani olaraq təsəvürümə gətirməli oldum.

Sərginin Gəncə İctimai İştirakçılıq Məclisinin təşkilati dəstəyi ilə və "Nizami Gəncəvi İli"nə həsr olunduğunu elanlardan bildiyim üçün Məclisin ünvanda yerləşdirilmiş 055 250 93 39 nömrəli telefon nömrəsinə zəng etməli olduq. Ordan da bir dəqiq cavab almaq mümkün olmadı. Müxtəlif bəhanələrlə başdan eləməyə çalışdılar. "Tədbirdə canlı müsahibə verərik"- dedilər. Tədbirdə sualımıza ikrahla və kobudcasına "Siz məsələyə qərəzli yanaşırsınız, müsahibə verə bilmərik"- cavabını aldıq. Üstümüzə hücum etdilər, hədə gəldilər… - Get, nə istəyirsən yaz!

Bu davranışı tədbirin təşkilatçılarının başında duran Müzadil Həsənovdan da eşitdik.-“Mən sizi tanımıram, kim olduğunuzu bilmirəm və bu səbəbdön də müsahibə vermək niyyətim yoxdur”- bu da illər ərzində məni tanıyan bir insanın, sərgidə özünü xeyriyyəçi, tədbirin təşkilatçısı, sərgidə öz kitabının gurultulu təqdimatını keçirən Müzadil Həsənovun cavabı. Əlbəttə ki, digərləri kimi onu da ədalətli olmağa, mədəniyyətli olmağa çağırdıq, telefonu qapatdı və zənglərimizə cavab vermədi. Suallarımız yenə də cavabsız qaldı… Əslində verəcəyimiz sualların bir cavabı da yox idi. Gəncə üçün nə iş görülmüşdü ki, cavab da veriləydi.

Bütün bu hadisələrin nə üçün törədildiyini yalnız sərgidə anlaya bildik. Gəncənin yazarları hansısa bir mafiya ilə qarşılaşıb, bu qruplaşmanın üzvləri qorxulu insanlardır, ətraflarına yığışan insanlar çoxdur və hamı da elə bilir bu adamların bir işi-gücü yoxdur, oturublar Gəncə Maarif Evində, hamıya da pul paylayırlar… Əslində hamı bu həqiqətləri bilir və arından-abırından da qorxaraq, susur.

Gəncənin hörmətli bir yazarı ilə telefon danışığımızda o mənə “qardaşım, onlar bir mafiyadır, pulları çoxdur, özünü onlardan gözlə” deməyi də bizi dayandırmadı. Artıq bilirdim ki, bunlarda ali-ülvi heç bir şey yoxdur. Olsaydı, onlar Gəncənin yaradıcı insanlarına hörmətlə yanaşardılar. İnsanların illərlə çəkdiyi zəhmətə belə təhqiramiz münasibət bəsləməzdilər. Lakin, bunları yazarların öz vicdanına buraxırıq. Kim ləyaqətinin tapdalandığını düşünürsə, özü haqq səsini qaldıra bilər. Amma bu, o qədər də inandırıcı görsənmir. Onlar yalnız yazdıqlarında cəsurdurlar.

Sonrakı günlərdə mənim sərgi ilə bağlı paylaşımlara yazılan şərhlər heç bir çərçivəyə sığan bir iş olmadı. Gəncə Maarif

Evinin təəssübkeşləri tərəfindən şər və böhtanlar, şəxsiyyət və ləyaqətimin alçaldılması, cəmiyyət qarşısında gözdən salınmaq üçün edilən cəhdlər! Onları ədalətə, mədəniyyətə, əxlaqlı olmağa dəvət etsək də, bir nəticə olmadı. Onu da qeyd edək ki, jurnalistin qarşıya qoyduğu məqsədlərə tam da olmasa, çatıldı. Özünü Gəncənin siması, müasir gənclik, yazar, hətta Qədim Gəncəli belə adlandıran şarlatan sürüsü həqiqətən də öz simalarını özləri bizə təqdim etdilər. Bizlərin on illərlə çəkdiyi zəhməti yerə vurmaq, heçə saymaq və bizi gözdən salmaqla onlar heç də erməni təəssübkeşlərindən geri qalmadılar. Əgər müasir gənclik belədirsə, vay Azərbaycanın halına! Sual olunur, siz kimə xidmət edirsiniz – erməni yazarlara, yoxsa vətənpərvərliyi və qəhrəmanlığı təbliğ edən milli, sağlam düşüncəli insanlara? Bu çürük təfəkkürlə hara doğru gedirsiniz, ağalarınız kimdir və sizləri kimlər maliyyələşdirir? Axı tanımadığınız insana, yaradıcılığından, həyat tərzindən, gördüyü işlərdən xəbərsiz olduğunuz insan barəsində belə əxlaqsız kəlmələri necə yazmaq olar? Əgər xəbərdarsınızsa,özünüzü görməməzliyə, arsız-abırsızlığa qoyursunuzsa, bu, ikiqat tərbiyəsizlik, əxlaqsızlıq, mənəviyyatsızlıqdır. Bu, şüurlu və məqsədyönlü şəkildə törədilən mənəvi terrordur!

İzahat verməli olduğum bir qurumda “Onları nə üçün məhkəməyə vermirik?” sualına belə cavab verdik- Onların əksəriyyəti cavandır. Onlara yazığım gəlir.Nə vaxtsa səhv etdiklərini anlayacaqlar.

Amma düşünürük-onların bir çoxu sağalmaz dərəcədə xəstə təfəkkürə malikdirlər. Sağalması illərlə çəkə bilər, Bəlkə də çox!..

Onu da qeyd edək ki, erməniliyin təbliği ilə məşğul olan dığa və axçilərlə bunların arasında heç bir fərq görülmür. Ermənilərin bizim əleyhimizə həyata keçirdikləri məqsədlər ilə bizlərə yazılan şər və böhtanların hansı məqsəd daşımasının arasında hansı fərqlər mövcuddur ki?

Ardı var…

**P.S.** Ardı yalnız ondan ibarətdir ki, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov yazıçı-jurnalistin aşağılanması, təhqir olunması və onun gördükləri işlərin heçə endirilməsi üçün tabeçiliyində olan işçilərə müvafiq tapşırıqlar vermiş və sosial şəbəkədə yazıçıya qarşı təhqir kompaniyası aparılmışdır. Bunu təsvir etmək üçün qələm belə acizdir. Azərbaycanlıya və azərbaycançılığa, insanlığa yaraşmayan işlərdir, elə deyilmi?

Layiqli qiymətlərini və cəzalarını aldılar.

## Ah, bu məktublar, məktublar…

Dünyanın heç bir yerində belə bir şey yoxdur ki, jurnalist əslində yazıb biabır edəcəyi şəxsi dilə tutsun, az qala yalvarsın ki, bu işi etməyin, yoxsa, sizə, adınıza, imicinə ziyan dəyəcəkdir. Və dünyanın heç bir yerində bizdəki kimi…. (adını özünüz qoyun) məmurlar yoxdur ki, "Araz aşığından ola, Kür də topuğundan". Pulludurlar, arxaları bərkdir-bunu bildik, bəs dövlətçilik məhfumu bunlara belə imtiyazlar veribmi?

Yazdıqlarımız müraciətlərə hələ ki, bir təşkilat və ya qurumdan bir cavab ala bilməmişik. Sanki bu məktublar onları təhqir edir, onların hissiyatına toxunur. Tam səmimiyyətlə deyə bilərəm ki, siz bu xoşbəxtlikdən məhrumsunuz.

Siz suçlusunuz, qarşımızda günahlarınız vardır, əks təqdirdə cavab məktubu yazar, öz fikirlərinizi açıq surətdə izhar edərdiniz.Siz özünüzü cəzasız hiss edirsiniz, çünki, sizi cəzalandırmağa çalışan belə yoxdur.

"Yazıb sizə bildiririk ki, 2023-cü il "Heydər Əliyev ili" çərçivəsində hazırladığımız "Ulu Öndər və Azərbaycan" kitabı dərc olunmuşdur. Bu kitab Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş və Prezident Kitabxanasının Elektron Kataloquna salınmışdır. Yəqin ki, bu kitab artıq sizin yadınızdan çıxıb. Necə ki, gecə-gündüz yatmayıb yazdığımız kitablarda sizin əvəzinizdə hazırladığımız məqalələr yadınızdan çıxan kimi. Orada gedən materiallar məhz sizin tövsiyyənizlə kitaba salınmışdır. Onda biz sizə inanırdıq və belə hesab edirdik ki, siz vətənpərvərliyi və alicənablığı ilə seçilən insansınız və bizi də bir qələm əhli kimi yüksək dəyərləndirirsiniz. Belə düşündüyümüz üçün də sizə kitabda Ulu Öndər haqqında səmimi söz demək üçün şərait yaratmışdıq.

Hazırladığım və müəllifi olduğum bir neçə kitabda yazınız getmişdir. "Ulu Öndər və Azərbaycan", "İlham Əliyev və Azərbaycan", "Pedaqoji söhbətlər", "Aramızda bir igid vardı" və s. kitablarda sizin "müəllif" yazılarınız vardır. Müəllif sözünü dırnaq arasında ona görə yazdım ki, bu yazıların necə hazırlanmasından siz başqalarından daha məlumatlısınız… Sonuncu kitaba görə müəllifə göstərdiyiniz "qiymət və dəyərə" görə mən facebook səhifəmdə ünvanlı yazı ilə çıxış etmiş və ictimaiyyətdən sizə belə bir meydan verdiyimə görə üzr istəmişəm.Xatırlatmaq istərdim ki, "Aramızda bir igid vardı" kitabında sizin vətənpərvərlik tərbiyəsi ilə bağlı yazınız növbəti nəşrlərdə kitabdan çıxarılmışdır. Düşünürük ki, siz nə vətənpərvərsiniz, nədə ki, vətənpərvərlik tərbiyəsindən başınız çıxır. Olsa, olsa, çayxana söhbətləri səviyyəsində apara biləcək söhbətlərə yarayarsınız. Amma, bizlər peşəkar yazarlarıq, sizin arxamızca dediklərininiz aşağılayıcı söhbətləri də eşidirik, ürəyimiz yanır ki, gör kimlərə baş qoşmuşuq, kimləri təbliğ etmişik, kimləri gənclərə nümunə gətirmişik. Elə deyilsə, cavab yazınızda fikirlərinizi əsaslandırın. Bizim haqlı olmadığımızı sübut edin. İnanmıram ki, heç olmasa buna savadınız çatacaqdır. Fikirlərimiz sizin cavabdan sonra ictimailəşdiriləcəkdir.

Bir ildən artıqdır ki, telefon zənglərimizə cavab vermirsiniz, yazışmalarımızı oxusanız da cavab verməyə lüzum görmürsünüz. Sizə nə pislik etmişik? Bizim günahımız deyil ki, siz savadsızsınız, vətənpərvərlikdə cəmi "bir neçə atımlıq barıtınız" vardır. Kim sizi bizi gözdən salmağa, bizi aşağılamağa sövq edir? Nəşriyyat işindən başınız çıxmırsa, peşəkar yazarlarla necə davranmağı qanun kitablarından oxuyub öyrənin. Bir şeyin cinayət olduğunu bilmir və

anlamırsınızsa, bu, sizi heç bir məsuliyyətdən azad etmir. Siz böyük bir təhsil ocağının rəhbərisiz, belə davranış sizə yaraşmaz.

Bir daha xatırladırıq ki, "Ulu Öndər və Azərbaycan" kitabında (səh.153-156) sizin də yazınız vardır. Kitab Ulu Öndərin anadan olmasının 102-ci ildönümü münasibətilə yeniləşmiş formada dərc olunmaq üzrədir. Bir çox yazılar çıxarılır, digərləri ilə əvəz olunur. Sizin yazının əvəzlənməsi, yaxud işlənmiş formatda verilməsi, kitabda məhz hansı formada yer ala bilməsi üçün sizinlə görüşmək və məsləhət almaq üçün xahişlə müraciət etmişik. Amma "Asif müəllim deyir onunla qurtarmışam, məqaləni də istəmirəm, deyir" – cavabını verdilər. Bir daha xatırlatmağa borcluyuq ki, bu kitab artıq bir dəfə çap olunub. Ulu Öndər haqqındakı yazınızı yeni nəşrdə verməmək üçün ciddi səbəblər olmalıdır və bu sizdən icazəsiz edilə bilməz. Xahiş edirik, bu istəyinizi yazılı formada bizə təqdim edəsiniz.

Sizə bir neçə sual ünvanlamağa borcluyuq:- Yazınızı "Ulu Öndər və Azərbaycan" kitabında nə üçün görmək istəmirsiniz? Bu qərarınız nə ilə bağlıdır?

Kitabın çapı sizin bu qərarınıza görə dayandırılacaq, üzərinizdə yenidən işləniləcək və çapa təqdim ediləcəkdir. Biz xeyriyyəçi təşkilat deyilik. Kitablar öz vəsaitimizlə dərc olunur. Bizlər sizin kimi dövlətdən maaş almırıq, imkanlarımız məhduddur, kitab işində hər addım vaxt və maddi vəsait itkisidir. Ən böyük zərər isə sizlərin bizə olan düşmən münasibətidir. Siz şəxsən mənə və ya bu kitaba düşmənsinizmi? Xahiş edirəm açıq yazın, düşünürəm ki, sizin buna cəsarətiniz çatacaq və hər şeyi üzümüzə deyəcəksiniz.

Məktubumuza tez cavab verilməsi xahiş olunur. Əks təqdirdə bu, bizim hazırladığımız kitablarda sizin yolunuzda çəkdiyimiz zəhmətə, xüsusilə də Ulu Öndərlə bağlı kitaba hörmətsizlik kimi başa düşüləcəkdir.

# Yazıçı-jurnalist bələdiyyə sədrinə niyə müraciət etdi?

İstərdik bizi düzgün başa düşsünlər - Biz heç kimin düşməni deyilik. Sadəcə, yazıb-yaratmaq istəyirik. İstəyirik ki, əməyimiz öz qiymətini alsın. Ev yıxmırıq, kəndlər-şəhərlər viran qoymuruq, sadəcə qəhrəmanlarımız, təlim-tərbiyə haqqında kitablar hazırlayırıq, bunun üçün cəmiyyətə ünvanlanan çoxlu sayda müraciətlərimiz vardır. Heyf ki, bu müraciətlərə məhəl qoyan yoxdur, sanki bizi cəmiyyət üçün düşmən elan ediblər. Cəmiyyət də bir cəmiyyət ola…

Yazdığımız, ifşa elədiyimiz insanlar "oturduğumuz yerdə" haqqımızı pozanlar, bizə bilərəkdən pisliklər edənlər, həyatımızı korlamağa çalışan, çox vaxt isə sadəcə buna nail olanlardır. Bəs belə halda biz nə etməliyik? Dərdimizi kimə deməliyik?

Bir də axı bunlar belə şeyləri kimə və nəyə arxalanıb edirlər? Söz oxucularındır.

## Müraciət

Bu məktubu ürək ağrısı ilə yazırıq. Düşünürük ki, nümunəvi vətəndaş şüuruna malik insan olsaydınız biz sizinlə yalnız fəxr edərdik. Amma, bu belə deyildir.

Aylar ərzində düşüncələrimiz yalnız sizin bizə və qəhrəmanlarla bağlı ədəbiyyata olan münasibətinizi analiz etməyə həsr olunub. Hesab edirik ki, bizi ələ salmısınız, humanizm sizin üçün yalnız şarmdır, siz sadəcə yazarlar üçün xeyirli işlər görməyə qabil deyilsiniz, üzdə göstərilən işlər də bəlkə də yalnız reklam xarakterlidir və bizi aldatmağa fokuslanıb. Əks təqdirdə biz aylar ərzində tərəfinizdən ələ

salınmazdıq. Seçki kompaniyası çərçivəsində çəkdirdiyiniz video çarxda müəllifi olduğum kitaba sponsorluq etdiyiniz səsləndirilmişdi. YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanovun otağında onun yanında dediyim kimi sizin təmsil etdiyiniz bələdiyyənin bu əməli bizim üçün əxlaqsızlıq və vicdansızlıqdır və bütün qanunların tapdanmasıdır.. Bu olayla bağlı fikirlərimiz hələ də dəyişməyib.

Həmin vaxt abrımıza bükülüb sizin əməlinizi ictimailəşdirmədik, məhkəməyə də müraciət etmədik. Düşündük ki, bu, bəlkə də şüurlu surətdə edilməyib, bilməməzlikdən baş verib. YAP sədrinin bizə olan etimadı və hörmətini nəzərə alıb sizi məhkəməyə vermədik. İsrarla bu söhbətimizin gizli qalmasını xahiş etdiniz. Bir səhvdir olub, dediniz. Həmin vaxt könlümüzü almaq üçün siz bu kitaba sponsorluq etmək istəyinizi bildirdiniz. Təklifinizi qəbul etmək istəmirdik. Bilirdik ki, onsuz da bu fikir nə ilə sonlanacaq. Amma jurnalist marağımız bunu sonacan izlmək üçün bizə səbr verdi. Sonrakı əməlləriniz isə sizin fırıdaqçı, yalançı olduğunuzu bizə bir daha sübut etdi. Fırıldaq- sizin guya ki, “Qalib əsgərin hekayəti” kitabına sponsorluq etdiyinizi başqa birisinin dilindən video çarxda səsləndirmək, yalançılıq isə – sizin guya həqiqətən də bu kitabın dərcinə sponsorluq istəyinizin dilə gətirilməsidir. Artıq bunun üstündən yarım ilə yaxın vaxt keçib. Sizin yalanlarınızdan bezmişik.Yəqin ki, digər işlərdə də beləsiniz. Qəhrəmanları və qəhrəmanlığı təbliğ edən bir yazarla belə davranış, yalnız bizə ürəyində yaxşı heç bir istəyin olmadığı şəxsə məxsus ola bilər.

Əlbəttə siz özünüzü təhqir olunmuş hesab edə bilərsiniz. Amma bu aldadılmış, alçaldılmış, ələ salınmış bir qeyrətli vətən övladının sizə bəslədiyi hisslərin təzahürüdür. “Nə

tökmüsünüz aşınıza, o da çıxıb qaşığınıza". Biz də növbəmizdə özümüzü təhqir və alçaldılmış hesab edirik.

Bu məktubu sizə rəsmi blankda göndərmək istəmirdik. "Resmi gonderin biz de cavab verek".-yazaraq özünüz bizi bu işə təhrik etdiniz.

Məktub məhkəmə predmeti olsa da, onu ictimailəşdirmək zorundayıq.

# "Goranboylu Tofiq Əmrahovun həyat hekayəti" kitabından...



Birinci Qarabağ müharibəsində vətənpərvərlik, xalqın torpaqlarını müdafiə etmək üçün könüllü iştirakı, mülki vətəndaşların, hərbi qulluqçuların, o cümlədən könüllülərin igidliyi və qəhrəmanlığı ilə təzahür edirdi. Bu, Azərbaycanın ərazi bütövlüyünün qorunması naminə güclü mənəvi və ideoloji təkan idi, hansı ki, müharibə    in sonunda Vətəni müdafiə edən insanların fədakarlığı ilə müşayiət olundu.

Çox qəribədir ki, I Qarabağ savaşının igid əsgər və zabitləri döyüşlərdə göstərdiyi müstəsna şücaət və qəhrəmanlıqlar barədə heç də həvəslə danışmır, bunu adi əsgər borcu adlandırırlar. Halbuki, həmin illərdə hələ Milli Ordu formalaşmamışdı, bütün qələbələr onların şəxsi şücaəti, döyüş qabiliyyəti və bacarığı, cəsarət və hünəri hesabına əldə edilirdi. Çətinliklər çox idi, amma qarşıya çıxan müxtəlif formalı çətinliklər onları qorxuzmadı, geri çəkilmədilər və sonacan azğın düşmənlə mübarizə apardılar.Onları bu işə təhrik edən, səsləyən öz vətəninə, xalqına olan sonsuz məhəbbəti idi.

I Qarabağ savaşının əfsanəvi komandirləırindən biri- Tofiq Əmrahov bizə yazırdı:

-"Mən millətçi deyiləm, millətimi sevənəm. Üzdə yox, daxilən sevirəm. Sözdə yox, əməldə, əməyimlə sevirəm. Və, sevmişəm də. Bu sevgimi sübut etmişəm. Ölümün gözünün içinə dik baxa- baxa təsdiq etmişəm. Məni nə ad, nə şöhrət, nə orden, nə medal maraqlandırmayıb. Gecələr bir çoxları rahat yatanda, mən isə bədənimin ağrıları ilə çarpışanda bir növ "rahatlıq" tapıram. Ona görə rahatlıq tapıram ki, vətənim üçün, torpağım, gələcəyimiz üçün çarpışmışam, vuruşmuşam, döyüşmüşəm. Bu gün məni tanıyanlar da, tanımayıb işimi, əməlimi eşidənlərin qəlbində sevgi yarada bilmişəmsə necə də qürurlanmayım...

Vətən...Ana Vətən! Necə də qürurla səslənir bu ad.

Bu vətəni, bu torpağı canı, qanı hesabına qoruyanlar bu adları fəxrlə çəkməyə tam haqları çatır.

Yalançı "qəhrəmanlar", saysız, hesabsız medallarla fəxr edənlərə baxanda ikrah hissi adamı bürüyür. Ancaq onu deyə bilirsən ki, utanmaq olmasa oynamağa nə var ki"...

Yer üzündə əksər xalqlar üçün bir neçə müqəddəs məhfumlar mövcuddur. Vətən, millət, dövlət, dil və din. Bu varlıqlar təhlükədə olanda həyəcan təbili çalınır, Vətənin igid oğulları savaşa qalxır. Buna görə də əsl vətənpərvərlər Vətənin problemlərinə biganə qala bilməz.Vətənpərvərlik hissi, Azərbaycan əhalisini Ermənistanın təcavüzünə qarşı birləşdirərək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün mübarizə aparmağa təşviq etmişdir. Müharibə zamanı çox sayda könüllü öz evlərini tərk edərək cəbhəyə yollanmış, öz torpaqlarını müdafiə etmək üçün döyüşmüşdür. Azərbaycan əsgərləri, könüllüləri və mülki şəxsləri ölkəni müdafiə etmək

üçün böyük igidlik və fədakarlıq göstərmişdir. Bu müharibə, Azərbaycan xalqının vətənpərvərlik ideallarına sadiqliyini, milli birliyini və torpaqlarına olan sevgisini nümayiş etdirmişdir.

Ürəyi Vətən ilə bir döyünən igid qəhrəmanlarımızdan biri də Goranboylu Tofiq Əmrahovdur.

“Müharibə vaxtı bir dənə də olsa şəkil çəkdirməmişəm. Heç marağında da olmamışam. Ancaq istəsəydim kino lentləri kimi tarixi, reallığa söykənən filmlər çəkdirərdim. Özünü reklam etdirmək xarakterimə yad olub. İndi deyirəm kaş çəkdirərdim yalançı, qurama "qəhrəmanlara" sübut etmək üçün”.- o bizə yazır.

Yadıma 44 günlük müharibə getdiyi günlərdə heç döyüş bölgəsində belə olmayan əsgərlərin əlində silah növbənöv şəkillər çəkdirib, sosial şəbəkələrdə paylaşmaları düşdü. O zaman şəkil çəkdirmək torpaqlarımızın müdafiəsinə qalxmış igid oğullarımızın heç yadına belə düşmürdü. Onlar sadəcə öz torpağını, elini-obasını düşmən tapdağından qorumaq üçün var gücünü sərf edir, bu yolda hər gün ölümlə üzbəüz gəlirdilər. Tarixin bu dövründə xalqımız böyük və yenilməz mübarizə ruhu, əzm və iradə nümayiş etdirdi. Bu illər xalqımızın yaddaşında həm də misilsiz fədakarlıq, əzəli torpaqlarımıza heç vaxt sönməyən sonsuz məhəbbət, həmrəylik və kütləvi qəhrəmanlıq illəri kimi silinməz iz saldı.

Xalqımız düşmənlə mübarizəyə qalxmış igid oğulların yanında idi. Bu oğullar əllərində silah vətənin keşiyində durmuşdular, döyüş meydanında misilsiz, yenilməyən döyüş əzmi göstərir, sadə xalqın müdafiəsinə qalxmışdılar. Həmin dövrdə vətənimizin torpaqları işğal olundu, şəhər və kəndlərimiz viran qoyuldu, torpaqlarımız qəhrəman

şəhdlərimizin qanı ilə suvarıldı. Üstündən 30 ildən çox vaxt keçsə də, xalqımız bu itkilər ilə barışmadı, əzəli torpaqlarımızın işğaldan azad olunacağı günü hər gün səbirsizliklə gözlədi, uzun, əzablı müharibədə düşmənin yeniləcəyinə heç vaxt ümidini itirmədi.

Həmin gün yetişdi. 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin hərbi birləşmələri düşmənin növbəti silahlı təxribatının qarşısını almaq üçün döyüş əməliyyatlarına başladı. Milli Ordunun yüksək döyüş ruhuna malik hərbi birləşmələri azğın düşmənə qarşı döyüş əməliyyatlarını həyata keçirtmək əmrini aldı. Azərbaycan xalqı üçün Vətən müharibəsi başlandı. Və xalqımızın böyük qələbəsi ilə başa çatdı.

44 günlük Vətən müharibəsi Azərbaycanın tarixində unudulmaz bir qəhrəmanlıq mərhələsidir. Bu, həm də dövlətimizin yenilməzliyini sübut edən amillərdəndir.

Lakin 1989-ci ilin sonundan başlayan şanlı mübarizədən düşmən üzərində qələbəyədək uzun bir dövr, 30 il qalırdı. Qarşıda uzun çəkən bir mübarizə dururdu və bu savaşa igid oğullarımız demək olar ki, əliyalın qalxmışdı. Bu, həmin insanlar tərəfindən çox böyük bir fədakarlıq idi. Bu yolda çox böyük əzab-əziyyətlər, mərhumiyyətlər, itkilər ilə üzləşən insanları heç nə qorxuzmadı.

-“Tanrı qarşısında hamı bərabərdr...İnsanlar bu fani aləmdə həyat tərzlərinə və əməllərinə görə fərqlənirlər"...ulu peyğənbərimizin bu hikmətli kəlamlarında əks olunan məna və həqiqət real həyarda dəfələrlə təsdiq olunmuşdur. Bəli, yalnız və yalnız Tanrı qarşısında...

Kəndli öz torpağı uğrunda ölümü gülə-gülə qarşılayırsa, torpaq oğludur!Bəli, mən Torpaq oğlu olmuşam...-Tofiq Əmrahov qeyd edir.

...1988-ci ildən başlayaraq ermənilərin torpaqlarımızda azğınlaşdığı zamanlarda Goranboyun Todan kəndində hələki sakitlik idi.Yalnız 1989-cu ildən başlayaraq güllə səsləri diksindirməyə başladı Todanın məsum körpələrini. O vaxdan Todan igidləri torpaq uğrunda şəhid oldular.Lakin sağ qalanlar özlərini itirmədilər, qollarında təpər tapıb, düşmənlə açıq döyüşə yollandılar.- bu sətirlər Tofiq Əmrahov haqqında çəkilmiş "Tofiq Əmrahovun həyat hekayəsi" filmində səsləndirilib.

-Todan kəndi dörd tərəfdən erməni kəndləri ilə əhatə olunmuşdu. Kəndimiz bir adaya bənzəyirdi. Hətta inzibati tabeçiliyimizdə Şaumyan - indiki Ağcakənd rayonundan asılı idik. Müharibəyə qədər olan dövrlərdə də ermənilərlə münasibətimiz ürəkaçan deyildi. Sanki onlar düşmənçilik etmək üçün bir fürsət gözləyirdilər. 1989-cu ildən başlayaraq erməni separatçılar, əsasən də Ermənistandan gələnlər rayonumuza ayaq açdıqdan sonra vəziyyət tamamilə pisliyə doğru dəyişdi.Mikoyanın qardaşı oğlunun tez-tez rayonumuza gəlməsi, yığıncaqlar keçirməsi keçmiş Şaumyan rayonu, Gəncəbasarda ermənilər yaşayan kəndləri Qarabağa, Qarabağın isə Ermənistana birləşdirilməsi kimi sərsəm fikir və ideyalar irəli sürməsi vəziyyəti tamamilə ağırlaşdırdı. Qarabağda da vəziyyət çox ağır idi. Hər yerdə özünümüdafiə dəstələri yaradılır, azğın düşmənlə mübarizəyə qalxırdılar. Biz də vəziyyətin ağırlaşdığını görüb, məcbur olub, özünümüdafiə dəstələri yaratmağı qərara aldıq. Silahlarımız isə yalnız ov tüfənglərindən ibarət idi. Müharibə illərində məndən ötrü

çətinlik yox idi. Düşmənə qarşı bizim nifrətimiz güclü idi. Ermənilər həmişə bizim düşmənimiz olub. Biz bu düşmənçiliyi həyatımızda çox görmüşdük.İllər ərzində bu hadisələrin içində biz bişmişdik. Belə böyümüşdük biz.

Qanlı döyüşə girəndə istər-istəməz hamı həyacanlanır.Çünki düşmənlə üzbəüzə gedirsən. Könüllülərdən ibarət rotamızda silah çatışmazlığı var idi. Onlar isə tam silahlı idilər. Bizdə isə heç hamının silahı belə yox idi. Əsgərlərin çoxu mülki paltarda gəzirdi. Onlara elə dərs keçmiş, elə ruhlandırmışdım ki, hamı nə vaxt döyüşə atılacağımızı gözləyirdi. Biz isə qərargahdan tapşırıq gözləyirdik. Qərargah Hacıkənddə yerləşirdi.Orda ümumi bir komandir var idi, Firuddin Şabanov, polkovnik idi, Əfqanıstan döyüşçüsü idi. Komandanı o verirdi.

-Birinci döyüşümüz elə bu kəndin özündən başladı.- Todan kənd sakini Cabbar Kazımov bildirir.-Kəndin 3 tərəfi erməni kəndləri idi. Elə üç tərəfdən də bu kəndə basqınlar olurdu. Bunun qarşısını almaq üçün lazım idi belə bir dəstə yaratmaq. Tofiq müəllim sağ olsun, belə bir dəstə yaratdı. Biz də başladıq bu dığalarnan döyüşlərə. Çox vaxt itirməli olduq. Çox cəhd etdilər bu kəndə girməyə, imkan vermədik. Düzdür bir dəfə kəndə girməyə müvəffəq oldular, kəndin yarısında neçə evləri yandırdılar, ancaq, həmin günü də onları kənddən çıxara bildik. Ermənilər neçə nəfər itgi verdi, qovduq onları kənddən. Ondan sonra bizim ardıcıl hücumlarımız oldu.

-Çətin tapşırıqlar həmişə mənim rəhbərlik etdiyim bölüyə verilirdi. - Tofiq müəllim xatırlayır. - Bir dəfə bizə Erkəc kəndini almaq tapşırığı verildi. Onların müşənin içində gizlədilmiş 3 topu vardı. Bizə atırdılar, istiqaməti də bilmirdik ki, bizi haradan atəşə tuturlar. Başımıza hər gün mərmilər yağdırırdılar. 14 iyunda biz o topların üçünü də ələ keçirtdik.

İyunun 13-də Erkəc alındı, 14-ü isə bu topları götürdük. Erkəc kəndindən bütün erməniləri çıxartdıq, bu kəndləri alandan sonra bizim Başkəndə getdik.

Kənardan baxan, ya eşidən elə bilir ki, gedib sadəcə bu kəndləri asanca götürdülər. Biz döyüşə-döyüşə, vuruşa-vuruşa, üzbəüz Qatır Məmməd filmindəki Çınqıl dərəsindən qayalıqlarla, sürünə-sürünə qalxdıq, əl-qolumuz kolların tikanlarından parça-parça olmuşdu. Amma, dayanmadıq, ermənilər səhər çağı bir də ayıldı ki, biz onların başının üstünü kəsdirmişik.

Çingiz Usubov, Todan kənd sakini:- Komandirimiz Tofiq Əmrahov olub. Çox bacarıqlı, gözəl komandir idi. Dəstədə 96 nəfər idik. Nə vaxt döyüş olub, əmrləri layiqincə yerinə yetirmişik. Erkəci alandan sonra döyüşə-döyüşə Erməni Borisinə kimi gedib çıxmışıq.

Tofiq Əmrahov:- Bölgələrin hər yerindən Todanlılara köməyə gəlirdilər. Dəfələrlə döyüşə girdik. İtkilərimiz də oldu. Şəhid verdik. Qalib gəldik. Erməni quldur dəstələrini ərazilərimizdən çıxartmağa nail olduq. Rəhbərlik etdiyim bölük axıra qədər döyüşərək müharibədə şücaət göstərdi.

Döyüşlərin birində öz oğlumu aparmadım, dedim heç olmasa bu qalsın qərargahda. Elə oldu ki, bölük döyüş tapşırığına gedəndən sonra minaaxtaranlar dəstəsi qərargaha gəlir. Onlara qoşulub əməliyyata gedir. Həmin vaxtı ermənilər qarşı tərəfdən onları güllə atəşinə tutur. Oğlum bütün paltarı qan içinə gəlmişdi. Mən Xaliqi qorumuşdum, ki, bu döyüşə getməsin. Böyük oğlum və mən... orda, heç olmasa bu sağ qalsın. Ölümdən qurtarmışdı, amma gözlərində parıltı vardı...Halbuki mən öz aləmimdə onu qorumaq istəyirdim. Allah dedi, yox, olmaz, özünlə apar, axıra qədər döyüşsün.

Axıra kimi də mənimlə getdi, sağımda, solumda, öz övladlarım, qardaşlarım, qardaşımın övladları, yəni hamı, bütöv Todanlılar. Ən çox qorxduğum o idi ki, əsgərlərimdən heç biri şəhid olmasın, kimsə yaralanmasın. Beynimdə həmişə bir fikir vardı ki, nə qədər ki, mən komandirəm, heç bir şəhid verməyim. Amma sonda verdim şəhid.

Afiq Abdullayevyev, Todan kənd sakini:- Həmin günlər biz çox əziyyət çəkdik. 14 şəhidimiz oldu.Amma, allaha şükür ki, onları iti qovan kimi qovduq.

Çingiz Abbasov, Todan kənd sakini:- Mən birinci olaraq dəmiryolu batalyonuna yazılmışdım, sonradan bu kəndə yaxşı bələd olduğum üçün kənd özünümüdafiə rotasına yazılmağa icazə verilməsini xahiş etdim. Elə də icazə aldım, 1992-ci ilin may ayından mən Todan rotasına gəldim. Erkəcin, Erməni Borisinin, Şaumyanın alınmasında iştirak elədim. Zabit olmağıma baxmayaraq, qrantamyotçu idim. Daima bizi artilleriya qurğularından atəşə tuturdular. Həmin vaxt biz həmişə irəli doğru hərəkət edirdik. Atəş dayananda artıq biz onların ön dəstəsinə yaxınlaşır, onlara hücum edirdik. Belə bir taktika onları həmişə çaşdırırdı, belədə biz həmişə qalib gəlirdik.Tofiq Əmrahov da həmişə dəstənin önündə olurdu. Ermənilər artilleriya atəşinə tutmağa başlayan kimi o bizi önə çıxarırdı.Ermənilər bir də ayılırdı ki, biz artıq onların mövqelərinə tam yaxınlaşmışıq. Ona görə də bizi görən kimi geri çəkilirdilər.

Afiq Abdullayev, Todan kənd sakini:-Müharibə başlayan kimi bizim kəndə hücum oldu, sağ olsun Tofiq müəllim, kənd ağsaqqalları ilə birlikdə kəndin cavanlarını bir yerə toplayıb, dəstə yaratdı. Həmin dəstə təpələrin arxasında pusqular qurmuşdu. Bir gün ermənilər kəndə hücum edəndə pusqudakı

döyüşçülər onları atəşə tutdu. Ermənilər arxa tərəfdən qaçışaraq kəndə doluşdular. Həmin vaxt kənddə 44 evi yandırmışdılar. Kəndimizin yanında Çayqovuşan adlı yer vardı. Kənd camaatı orada toplaşmışdı. Goranboydan həmin günü ov silahları gətirildi, biz tez silahlanıb, kəndə doğru irəlilədik. Kənddən erməniləri qovub çıxartdıq. Sonra Tofiq müəllim 103 nəfərdən ibarət rota yaratdı. Həmin rotanın bir bulud dağıdan topu da vardı. Bu topdan ermənilərin başına od yağdırırdıq.

Tofiq Əmrahov:-Özüm şəxsən dururdum bu topun yanında, deyirdim, atın. Şəmkirdən belə gəzib, mərmilər gətirmişdim. Bir dəfə minomyotlarla kəndi yandırmışdılar, durdum burda bəlkə yüz mərmi atdırdım ermənilərin başına. Həmin vaxt çoxlu mərmi gətirmişdim, bol idi. Erkəc kəndi, Mənəş kəndi, Buzluq kəndi, Başkənd istiqamətinə o qədər mərmi yağdırdıq ki, ermənlilər vəlvələyə düşmüşdü. Bu toplar həmin ağır günlərdə bizə çox arxa dayaq olub. Elə ona görə də bu topları saxlamışıq ki, bir tarix olsun. Qoy insanlar görüb bilsinlər, uşaqlar ekskursiyaya gəlsinlər, bilsinlər, niyə bu toplar burda qalıb.Bilsinlər bu topun tarixçəsini, necə bir kəndi qorumasını.

Afiq Abdullayev, Todan kənd sakini:-Ermənilər kəndimizin qarşısındakı Malakan dağı deyilən yüksəkliklərdən bizə imkan vermirdi atəş açmağa. Sonradan biz getdik Çayqovuşandan həmin o dağları aşıb ermənilərin fermalarının yanındakı postlarını yardıq ov tüfəngləri ilə. Sonra onları qova-qova qalxdıq Rus Borisi tərəfə. Cəbhəni yarandan sonra ermənilər başladı qaçmağa. Onları qova-qova biz bir xeyi irəli getdik.

Tofiq Əmrahov:-Ruh adamı olaraq döyüşlərdə düşmənə nifrətimi ağ kağıza köçürürdüm. Çətin məqamlarda belə özümdə qeydlər edərdim. Öz-özümə deyərdim, ömür vəfa etsə,

mütləq baş verən bu hadisələri gənc nəsilə çatdıracağam. Bax budur, indi ara-sıra həm müharibəsən, həm də şahidi olduğum həyati hadisələri mütamadi olaraq oxucularla bölüşürəm. Hekayələrimin çoxunda öz həyatımı yazmışam. Hər halda başqasının həyatını yazmaqdansa, öz həyatımı yazmaq daha asandır. Çünki öz həyatını özün yaşayırsan, həyatında baş verənlərə özün şahidlik edirsən.

Müharibə dövrünün xatirələrdən birini söyləyim..

-1992-ci ilin may ayı idi. Nəinki kəndin özü, hətta Todanın əraziləri belə gecə-gündüz güllə yağışına, mərmi yağışına qərq olurdu. Onlara cavab verəsi iki topumuz var idi, onlara da mərmimiz çatmırdı.

Gəncəyə arxalanmışdıq, elə mən deyərdim Gəncə də bizə. Həmin ilin yanvar ayının, səhv etmirəmsə on ikisi idi. "Gəncənin səsi" qəzetində mənim gəncəlilərə müraciətim dərc olunmuşdu. Həmin müraciətimdə Gəncənin imkanlılarından Todana kömək etmələrini xahiş etmişdim. Elə buna görə də bir əsgərimlə üz tutdum Gəncəyə. Yağ-piy kombinatının direktoru (adını çəkmirəm) iki yeşik, Mahud fabrikinin direktoru üç yeşik avtomat üçün patron yüklətdilər maşınımıza. Təşəkkür edib yollandıq Gəncə Şəhər Polis İdarəsinə. Elə giriş qapısındaca rəis Eldar Həsənovla üz-üzə gəldik. Səmimi salamlaşdı, otağına dəvət edib Todandakı vəziyyət barədə hal-əhval tutdu. Məqsədimizdən hali olandan sonra o da öz növbəsində lazım olan sursatlardan verdirdi və bizi möhkəm olmağa çağırdı. Doğrusu, çay süfrəsinə də dəvət etsə də, mən təşəkkür edib ayrıldım. Çünki bizim çayımız da, çörəyimiz də hərbi sursatlar idi ki, onu da qismən əldə etmişdik.

Əsas məsələmizin biri Qrad qurğusu əldə etmək idi. Həmin qurğu olmadan düşmənin qarşısını almaq qeyri real idi.Çünki

onlarda olan Qradlardan, toplardan yağan mərmilər başımızı qaldırmağa imkan vermirdi. Əsasən Erkəç kəndinin, Rus-Borisi kəndinin yüksəkliklərindən, bir də Çox uca dağ olan Cambaz dağından atəşlərə məruz qalırdıq (Yeri gəlmişkən onu da qeyd edim ki Həmin Cambaz dağının alınma əməliyyatı zamanı rəhmətlik Məmmədtağı müəllim Cəfərovun qardaşı oğlu Ramiz Cəfərov itkin düşmüşdü). Əliboş qayıtmaq olmazdı, mütləq Qrad qurğusu əldə etməliydim. Yolumu saldım Gəncədəki Xüsusi Şöbəyə. Həmin şöbə yerləşirdi Nərimanov prospektində, "Sünbül" deyilən yerin arxasında. Sonralar Fövqəladə Hallar Nazirliyinin tabeliyinə keçdi.

Rəisin qəbuluna düşdüm. Boydan balaca yoldaş idi. Mən əvvəlcə avtomat, pulemyot silahlarının patron qıtlığından danışdım və xahiş etdim ki, nə qədər imkan varsa köməklik etsin. Elə bunu eşidən kimi necə deyərlər tapança kimi yerindən dik atıldı. Neynirsiniz bu qədər patronu, orda patron bazarı açmısınız?

Sağ olmuş rəis sualları çozələyib tökdü ortalığa. Onsuz da əsəblərim yerində deyildi, rəisin bu hərəkəti məni özümdən tamamilə çıxartdı. Dediklərimin hamısını demirəm, təkcə sonda onu dedim - yəqin sənin ətrafın, kollektivin sən dediyin yuvanın quşlarıdır. Ona görə belə danışırsan. İndi kabinetdə oturmaq vaxtı deyil, dur bizimlə gedək cəbhə bölgəsinə, biz daddıqlarımızdan sən də dad, dedim...

Nəhayət patron da aldım cənab rəisdən və...qaldı Qrad qurğusu. Rəis halımın "pərişan" olduğunu görüb, telefonu götürüb kimlərəsə tapşırıq verdi ki, təcili qaynağa ehtiyacı olan Zil maşınının üstündəki qurğunu hazırlayıb verin, aparsınlar. Axır ki, Qradımızı da Todana apara bildik. Apardıq, ancaq maraqlı hadisələrlə də üzləşdik...

Gəncədən yola çıxdıq, üz tutduq Todana tərəf. Qrad yüklü maşın qabaqda, biz də Niva maşını ilə onun arxasınca. Asfalt yoldan çıxıb daşlı-kəsəkli yola çıxandan sonra getməyimiz çətinləşirdi. Tələsirdik, tez çatmaq istəyirdik. Düşmənə cavab verməyə tələsirdik. Çaylı kəndini keçib Pənahlılar kəndinə çatanda kişili-qadınlı bir neçə nəfər qarşımıza çörək-pendirlə çıxdılar. Var olsunlar. Elə bil ac-susuz olduğumuzu bilirmişlər. Tanıyırdılar məni. Bildirdilər ki, komandir, neçə saatdır Todan tüstüyə qərq olub. Ermənilər ara vermədən atırlar...Onlarla sağollaşıb yolumuza davam etdik, düşmənlə döyüşə tələsirdik.

Əvvəlcədən fikirləşmişdim bu Qrad olan maşını elə yerlə aparmalıyam ki, düşmən görməsin. Çünki düşmən postlarından bizim bütün yollar nəzarətdə idi. Ən münasib yol Quşçu-Armavir yolu idi. Həmin yolla axır ki atış nöqtəsinə, əvvəlcədən müəyyən etdiyim fermanın yanındakı dərədə gizlətməli olduq, necə deyərlər düşmənə zərbə vuracaq silahımızı.

Dörd nəfər idik. Qrad maşınının iki nəfərlik ekipajı, mən və əsgərim. Təcili hər şeyi etdik, silahımız tam hazır vəziyyətə gətirildi. Koordinatlar müəyyən olundu. İlk zərbəni Cambaz dağındakı düşmən postuna vurmalı idik. Düymə basılmalı idi. Baxdıq ki, bu iş naqilləri birləşdirməklə həyata keçirilməlidir. Mən postları ratsiya ilə məlumatlandırdım ki, narahat olmasınlar, ancaq, həm də ehtiyatlı olsunlar.

Ya Allah deyib, naqillər birləşdirildi. Mərmilər avtomatik qaydada düşmən istiqamətində uçmağa başladı. Lakin ani olaraq Qradın lülələri yeindəcə fırlanıb mərmiləri öz postlarımıza və yaşayış evlərinə tərəf yağdırmağa başlayarkən qışqıraraq naqillərin üstünə cumub onu dartıb qopara bildik.

Naqilin istiliyi əllərimi də yandırmışdı. Postlardan zəng-zəngin arxasınca gəlirdi:- Komandir, bu nə olan işdir.- deyirdilər.

Xoşbəxtlikdən heç kəsə xətər dəyməmişdi. Əsas məsələnin biri o idi ki, mərmilərin bir neçəsi mənimlə münasibəti normal olmayan bir kəndçimizin evinin lap yaxınlığına düşmüşdü...

İki əlli başımı tutub oturmuşdum. Hələ də özümə gələ bilmirdim. Nəzərdən keçiriləndən sonra məlum olmuşdu ki, qaynaq olmuş həmin hissə silkələnməyə dözməyib həmin yerdən qopubmuş.

Əsgərim yaxınlaşıb,- komandir özünüzü ələ alın.- dedi, - olan oldu, keçən keçdi.

Bəli.- dedim. Ancaq bir şey var ki, əgər əsgərlərimizin və ya kəndçilərimizin hər hansı birinə nəsə olsa, nə edərdik. Əsgər mənim könlümü almaq üçün sual verdi. - Komandir, əgər allah eləməmiş elə olsaydı, nə edərdik?- Cavab verdim ki, onda sənə əmr edəcəydim ki, əsgər, güllələ məni, güllələ!

Bu cavabı eşidən əsgər də başını tutub aşağı oturdu...

Ehh, müharibə, müharibə!!!

Belə bir şeir var:- Kimlər gəldi, kimlər getdi, bu dünyadan, bu dünyadan… İndi bizim bu yerlərdə kimlər olmadı, kimlər gəlmədi… Qazaxdan bir nəfər Vilayət adlı bir nəfər vardı, onu Villa deyə çağırırdılar, kəndimizdə uca tərələrin üstündə bir post vardı, elə onun adına idi-Villa postu. Bu postun yanında ermənilərin hücumunun qarşısını almaq üçün səngərlər qazmışdıq. Döyüş maşınları üçün də yerlər hazırlanmışdı, elə burdan da atəş açır, özümüzü müdafiə edirdik. Bu qazaxlı Vilayət də qoçaq oğlanlardan biri idi. Azərbaycanın rayonlarının əksəriyyətindən gəlmişdilər bizə. İgid oğlanlar idi. Vicdanla döyüşürdülər, heç vaxt kiminsə arxasında gizlənmədilər.

Sonralar bu xatirələrimi kağıza köçürdüm, yavaş-yavaş hekayələr iri həcmli kitablara çevrildi, amma hiss edirəm ki, o qəhrəmanlıq dolu mübarizəmiz haqqında çox şeylər yazmalıyam. Xatirələr o qədər çoxdur ki, bir hadisəni təsvir etmək üçün nə qədər yazsan da yenə də deyilməli sözlər, təsvir olunası döyüşlər və hadisələr haqqında xatirələrin geniş təsvir olunması üçün lüzum görünür. İnşəallah, onları da həyata keçirmək üçün bir vaxt yetişər.

Müəllif yazılarını dərc etdirdiyim dövrdə çoxlu yaradıcı insanlar ilə tanış olmuşam. Gəncənin ilk şəhidlərindən biri-Rüzigar Qasımovun qardaşı Füzuli Ruzigar ilə tanışlığımın da bir tarixçəsi var. O qardaşı şəhid olandan sonar Ruzigarın adını özünə ləqəb götürmüşdü. Bir dəfə onun təsisçisi olduğu "Ruzigar" qəzetinin redaksiyasına getmişdim. Tanışlıqdan bir müddət sonra aparıb onu qardaşının şəhid olduğu yerləri göstərdim, necə şəhid olduğu haqqında ətraflı məlumatlar verdim. Gözləri dolmuşdu. Mən ona bir dəfə bir məqalə verdim.Oxudu, dedi ki, sən, jurnalistsən? Dedim, xeyr. Bunu dərc elədi. Sonra bir hekayə də yazdım, hekayəni də dərc elədi. Dedi mən məsləhət görürəm, sən bu hekayələri davam eləyəsən. Ondan sonra bu hekayələri kitab şəklində çıxartdım. "Gərək elə yanam ki" - kitabın adı belə idi.

Rəhmətlik Füzuli Ruzigar mənə yaradıcılığımı davam etdirməyi məsləhət görürdü. Bundan sonra mən daimi olaraq yaradıcılıq ilə məşğul olmağa başladım. "Tale yazım", "Bir ömrün səhifələri", "Ömür yolu", "Görüş", "Həyatım mənim", "Tale yazım", "Kaş ki..." kitablarım da oxucular tərəfindən maraqla qarşılandı.

İndi mən həm də Yazıçılar Birliyinin üzvüyəm. Artıq kitablar müəllifiyəm. Daim sosial şəbəkədə çıxış edirəm. Çoxlu

dostlarım var, hamısı da şairlər, yazıçılar, alimlər… hamısı da mənim yazılarımı oxuyurlar, bəyənirlər, rəy verirlər, tərifləyirlər… Deyirəm ki, xahiş edirəm tərifləməyin, amma, nöqsanlarım varsa deyin. Daim məni ruhlandırırlar.

Gəncədə Qərib Mehdi adlı böyük bir ustad yazıçı var. O Todanı Azərbaycanın Çanaqqalası və Brest Qalası adlandırır. Oxucuların əksəriyyəti yazılarımı oxuduqdan sonara bildirirlər ki, sanki, bizim ürəyimizi oxuyub bunları yazıbsan.

Mən indi təqüddəyəm, amma boş durmuram. Hərdən çıxıram işğaldan azad etdiyim o yerlərə. O yerlərə böyük ruh yüksəkliyi ilə baxıram. Əllərimi qaldırıram göyə, deyirəm, ey ana yurdum, icazə ver arxayın gəzim bu yerlərdə, çünki zəhmətim var, çünki, zəhmətim böyükdür.

Mən həmişə sadə insan, səmimi yoldaş, etibarlı dost olmuşam. Çalışacağam belə də qalım. Çünki, mən belə böyümüş, belə tərbiyə almışam...

.

# Bir döyüşçünün həyat hekayəsi



Düşmənin Gəncə şəhərini atəşə tutduğu o ilk gün Türkiyə kanalına verdiyi müsahibəsində dediyi cümlə ilə məşhurlaşan bir gəncəli var. Qan gördükcə qorxmayan, "naoborot" qızışan komandir Tariyel Şahverdiyev! TRT kanalının müxbiri Gəncə sakininə şəhərdəki vəziyyətlə bağlı sual verir, o isə 3 dilin kəlmələrindən qurduğu bir cümləsi ilə hər kəsin dilinə düşür.- "Azərbaycan əhalisi qan görəndə qorxmuyor, qan görəndə naoborot qızışıyor".

Tariyel Şahverdiyev I-ci Qarabağ müharibəsinin könüllü iştirakçısı və Qarabağ qazisidir. Onun haqqında çoxlu sayda məlumatlar sosial şəbəkələrdə paylaşılıb, bir çox telekanallar Tariyel Şahverdiyev barədə süjetlər hazırlayıb. Və bütün bu xəbərlər igid həmyerlimiz haqqında böyük maraq yaradıb. Bizə də "onun haqqında material niyə hazırlamırsınız" deyə

müraciətlər oldu. Fikirləşdik, hazırlayacağımız bu yazı ilə onu dərindən tanımaq istəyən insanların arzusunu da həyata keçirmiş oluruq.

Görüş zamanı iki gənc yaxınlaşıb onunla şəkil çəkdirmək istədiyini bildirdi. Üzündə bir narazılıq duydum.-"Mən teleulduz deyiləm ki, hər kəs mənimlə şəkil çəkdirmək istəyir"- dedi. - Bu da onların haqqıdır. Günümüzün qəhrəmanlarından birisən. Niyə də olmasın. Onlar səninlə fəxr edirlər! Onları səninlə şəkil çəkdirmək sevincindən məhrum etmə! - deyə onu sakitləşdirmək istədim.

Tariyel Şahverdiyevi on illər ərzində tanıdığımdan yalnız onun həyatının müəyyən anları barədə suallarla kifayətləndik. Onun həyat hekayəsi gənc nəsil üçün bir nümunə, örnəkdir. Vaxt gələr, yazarlar onun həyatını tam dolğun təsvir edəcək və daha böyük yazılara imza atacaqlar.

-Tariyel müəllim, necə oldu ki, həyatınızı polis orqanları ilə bağlamalı oldunuz?

-1990-cı idə Gəncə şəhərində Rabitə Sənayesi Zavodunda çilingər işləyirdim. Eyni zamanda universitetin "Hüquq" fakültəsində 4-cü kursda qiyabi təhsil alırdım. Zavodun komsomol təşkilatının katibi idim. O vaxt Gəncə ətrafı kəndlərdə ermənilər baş qaldırmışdılar, qonşu kəndlərə hücumlar təşkil edirdilər, lap azğınlaşmışdılar. Qarabulaq kəndində gedən döyüşlərdə iştirak etmək üçün Xüsusi Təyinatlı Dəstə yaradılırdı. Bu məqsədlə işlədiyim zavoda da dövlət tərəfindən müraciət olunmuşdu. 1990-cı ilin sentyabr ayında həmin dəstəyə mən də qəbul olundum. Müəyən bacarıqların əldə edilməsi üçün Nizami rayon Polis Şöbəsinə təcrübəyə göndərildim. Bir gün Gəncə şəhər Polis İdarəsində həyəcan siqnalı verildi. Nizami rayon Polis Şöbəsinin əməkdaşları ilə

birgə İdarəyə gəldik. İdarənin rəisi bildirdi ki, ermənilər Tovuzun Əlibəyli kəndinə hücum edib, vəziyyət ağırdır, köməyə getməlisiniz. Polis işçiləri silahlandılar və mən də vətəndaş kimi döyüşə getmək üçün xahiş etdim, silah istədim. Vermədilər. Sonra bir snayper silahı gətirib verdilər. Mən əsgər olduğum zaman snayperçi olmuşdum, bu silahdan yaxşı atəş aça bilirdim. Sonrakı döyüşlərdə bunu əyani surətdə sübut elədim.

**-** Əlibəylidə gedən döyüşlərdə?

-Bəli.

-O döyüşü necə xatırlayırsınız?

-Həyatımda ilk dəfə düşməni orda öldürdüm. Bir gün xəbər gəldi ki, ermənilərdən 70-80 nəfərlik bir dəstə zəncirvari düzülüşlə kəndə hücuma keçib. Dəstə tez kəndin üzümlük sahəsində döyüş mövqeyi tutdu. Mən və Novruz Həsənov adlı bir polis zabiti (o sonradan Tovuz rayonunun Polis Şöbəsinin rəisi oldu) kəşfiyata getdik. Snayper tüfəngi işimizə yaradı. Onları yaxına buraxıb, yarısından çoxunu qırdıq. Qaçdılar. Yaraladığım ermənilərin vəhşi bağırtılarını da eşidirdik. Bu vəhşi səs hələ də qulağımdadır.

-Kənd camaatının həmin gün keçirtdiyi sevinc hisslərini təsəvvür etmək çətin deyil.

-Hə. Kənd camaatı bizə böyük bir süfrə açdı, gəncəlilərə onlara köməyə gəldiyi üçün təşəkkür etdilər.Biz isə onlara bildirdik ki, vətənimizin hər qarışı bizim üçün əzizdir.

-İlk zabit rütbəsini nə vaxt almısınız?

-Bilirdim ki, bir neçə gündən sonra Çaykənd əməliyyatı olacaq. Rəis müavini Ramiz Cahangirovdan döyüşlərdə iştirak etmək üçün razılıq aldım. Dostumun evində əynimi dəyişib getdim döyüşə. Döyüşlərə qatıldım və sonacan iştirak etdim,

kiçik leytenant rütbəsində. 1991-ci ildə isə Çaykənd-Qarabulaq əməliyyatının uğurlu keçirilməsi münasibətilə vaxtından əvvəl leytenant rütbəsinə layiq görüldüm. Çaykənd-Qarabulaq əməliyyatında vzvod komandiri idim. May ayında Çaykəndi, iki gün sonra isə Qarabulağı aldıq.

**- Hansı döyüşdə yaralanmısınız?**

-Bu əməliyyatdan iki ay sonra Goranboy rayonunun Erkəc, Buzluq, Mənəşli kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə ağır yaralandım. 6-sı iyulda Buzluq kəndində gedən döyüş bitəndən sonra rota komandiri Firudin Rəhimov sıra baxışı edəndə döyüş yoldaşlarımızdan 8 nəfərinin sırada olmadığını və kəndin içində mühasirəyə düşdüklərini öyrəndik. Və mən vzvod komandiri kimi onları mühasirədən çıxarmaq üçün könüllülər istədim. Bildirdim ki, qorxanlar gəlməsin. Döyüşə atıldıq. Onlar təpənin başında mövqe tutmuşdular. Biz də aşağıdan yuxarı döyüşə-döyüşə onları sıxışdırmağa başladıq. Bu vaxt döyüşçülərdən Əsgər Əsgərovun yaralandığını gördüm. Güllə üzündən dəymişdi. Üzü büsbütün qan içindəydi. Elə bil beynimizə qan sızdı. Bu halı görüb lap qızışdıq. Ermənilərə hücum edib mövqelərini ələ keçirtdik, döyüş dostlarımızı da xilas etdik.

-Məşhur kəlamınız da öz tarixçəsini bu döyüşdən götürüb?

-Hə. Amma "qızışaraq" döyüşə atılmaqla bu tarixçəni çox döyüşlərdə təkrar etmişik. Həmin döyüş də çox qanlı keçdi. 29 yaşım vardı. Döyüşçülərin çoxu məndən də cavan idi. Amma elə bil anadan döyüşçü doğulmuşdular. Əsl qəhrəmanlar idilər.

-Bəs yaralandığınızı necə xatırlayırsınız? Bildiyimizə görə bir dəqiqə ərzində iki güllə yarası almısınız.

-Aldığım iki güllə yarası arasında vaxt məsafəsi cəmi bir dəqiqə oldu. Döyüş zamanı ayağımdan yaralandım. Özümdən

biixtiyar aşağı oturdum. Bu vaxt snayperçi ürəyimdən nişan alırmış.İkinci güllə yarası ürəyimdən oldu. Təsadüf nəticəsində sağ qalmışam. Ürəyimin üstündə Quran ayələri olan kitabça asmışdım. O məni bu gülllədən qorudu. Döyüş yoldaşlarım olan polis işçiləri - Aqil, Yaşar, Rüfət səsə gəldilər. Məni təhlükəsiz yerə apardılar.

- O zaman keçirtdiyiniz ilk hiss nə oldu? Yəqin ki, belə anda hər bir kəsin öz tarixçəsi olur.

- İlk anda soyuq tər gəldi. Bütün ömrüm gözümün önündən keçdi. Beynimdən keçən ilk hiss əsir düşməmək üçün özümü güllə vurub öldürmək oldu.

-Lap Mixaylo kimi?

-Elədir. Bu, təbii hisslərdir. Bu hissləri keçirməyi heç kimə arzulamazdım. Sanki ölüm qabağı bütün ömrün bir kino lenti kimi sakitcə, tələsmədən göz önündən keçir... Sağ olsunlar, döyüş yoldaşlarım güllə yağışı altından məni çıxara bildilər.Yaşar adlı polis əməkdaşı maşında atışa-atışa məni döyüş zonasından çıxartdı. Zirehli jiletlərdən maşında sipər düzəltdilər ki, yenidən güllə yarası almayım. Təsəvvür edirsiniz, döyüş yoldaşlarım öz zirehli jiletlərindən mənim üçün sipər düzəltmişdilər.

-Yəqin ki, həmin vaxt çox qızğın döyüş gedirmiş. Təlefat böyük idi?

-Biz onda ermənilərə böyük zərbə vurduq. Xəstəxanada müalicə alanda Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyov gəlib alnımdan öpdü. Soruşdum, niyə? Dedi həmin vaxt mən ermənilərə əsir düşmüşdüm. Onların danışığından bildim ki, itkiləri böyükdü. Sonradan geri alındım. Öyrəndim ki, mən əsir düşən zonada həmin nöqtədən ermənilərin 35-40 nəfərini gəbərdən sən, Rüfət və Fərrux olubsunuz.

-Bildiyimə görə o güllə hələ də ürəyinizdən çıxarılmayıb.

-Elədir.Güllənin biri hələ də bədənimdədir.O vaxt əməliyyat riskli olduğu üçün gülləni çıxartmamaq qərarına gəlmişdilər. 30 ilə yaxındır ki, bu güllə ilə yaşayıram.

- Çoxmu əziyyət verir?

-Olur. Hərdən çox əziyyət çəkirəm. Amma vətən torpaqları bu gün də bizi çağırır. İcazə versələr, bu gün də bu döyüşlərə qatılaram. Şanlı bayrağımızı Şuşada dalğalandırmaq ən böyük arzumdur

- Hansısa mükafata layiq görüldünüzmü?

-Müalicədən sonra polis rəisi məni yanına çağırdı, Prezidentin Fəxri Fərmanını mənə təqdim etdi. Bildirdi ki, sən artıq vətənə öz borcunu vermisən, bu vəziyyətdə döyüş bölgələrində xidmət etməyin sağlamlığın üçün daha böyük fəsadlar gətirər. Polis sıralarında hansı sahədə çalışmaq istəsən, seç, səni ora təyin edək. İmtina etdim. Cavab verdim ki, nə qədər ki, erməni cəlladları ilə müharibə gedir, döyüş yoldaşlarımla onlara qarşı vuruşmalarda iştirak etmək istəyirəm. Fikrimlə razılaşdı. Beləcə, yeni döyüşlərə qatıldım. Qazağın Əskipara bölgəsindən tutmuş Qarabağın demək olar ki, bütün bölgələrində ermənilərə qarşı aparılan döyüşlərdə iştirak etmişəm.

Əfsuslar olsun ki, bu döyüşçülərin çoxu siyasi oyunların qurbanı oldu. Elə mən də. 1992-ci ildə mənə rota komandiri vəzifəsi təklif olunsa da, mən bu təklifdən imtina etdim. Buna görə 6 ay sərəncamda qaldım. Həmin vaxt polis sıralarında parçalanma gedirdi. Biz sadəcə vətənimizin keşikçiləri idik, siyasətlə məşğul deyildik. Ona görə də bu oyunlara qatılmadıq. Bununla belə, 1992-ci ilin oktyabrından 1993-cü ilin aprelinə kimi işsiz qaldım. Amma vicdanımızın səsinə qulaq asdıq,

vətənimizə və dövlətimizə sadiqlik nümayiş etdirdik! Bu gün də dövlətimizə, Ali Baş Komandana sadiqik. Hər an onun əmri ilə vətən yolunda döyüşlərə qatılmağa hazırıq. Cənab Prezident bizim görən gözümüz, düşünən beynimiz, danışan dilimiz və vuran qəlbimizdir! Onun müdrik və qətiyyətli siyasəti nəticəsində şanlı Ordumuz ərazilərimizi düşmən işğalından azad edir və düşmənə ağır zərbələr endirir. Qələbə günü uzaqda deyil. İnşallah, xalqımız tezliklə düşmən üzərində tam qələbə müjdəsini də alacaqdır!

P.S.- Yazıda sadaladığımız bu hekayət demək, oxuculara çatdırmaq istədiyimiz anların yalnız bir hissəsidir. Deyə, yaza bilmədiyimiz anlar da vardır. Təvazökar, vətən qarşısında xidmətlərini heç vaxt gözə soxmayan, bunun əvəzində heç bir imtiyaz istəməyən bu vətənpərvər insan hələ də rəsmi kağızlarda  nə Qarabağ veteranı adını alıb, nədə ki, ürəyindən aldığı güllə yarasına görə müavinətə layiq görülüb. Heç, özü də buna cəhd etməyib**.**

**P.S.S.** Əziz bir dostumuzu, ömür boyu tanıdığımız bir igidi, sevimli insanı - Tariyel Şahverdiyevi itirdik. Dostları, əzizləri üçün ağır itkidir.

Allahdan ona rəhmət diləyir, onu sevən insanlara, yaxın və doğmalarına Allah səbr versin, deyirik!

Onunla etdiyimiz söhbətlərin birini qələmə almışdım, “Qoy qalsın, vaxt olar dərc edərsən!” demişdi.

Ruhu şad olsun!

28 dekabr, 2022-ci il.

# Snayper Baris Məsimov



Baris Məsimov 1986-cı ildə Əfqanıstanda hərbi xidmətini başa vurub vətənə qayıtdıqdan cəmi bir il sonra polis starşınası (hal-hazırda baş çavuş rütbəsi) kimi Gəncə şəhər Baş Polis İdarəsində işə düzəlmişdi. Hərbi xidmətdə snayper olub. Böyük döyüş təcrübəsi vardı. Onlarla döyüş əməliyyatında iştirak edib. Onu polis sıralarına elə bu keyfiyyətinə görə götürmüşdülər. 1989-cu ildə Todanın müdafiəsində polis rotasının starşinası kimi də döyüşlərə qatılmışdı. Onda hələ Todanın özünümüdafiə dəstəsi yaradılmamışdı. Buranın və ətraf kəndlərin müdafiəsi polis rotasının üzərinə düşmüşdü. Gərgin keçən günlər bir-birini əvəz edirdi. Ermənilər demək olar ki, hər gün kəndi atəşə tutur, əhalini bu kənddən baş götürüb qaçmağa məcbur etmək istəyirdi. Kəndin igid camaatı yalnız ov tüfəngləri ilə özünü müdafiə edirdi. O da hər adamda yox idi. Həmin dövrdə polis işçiləri kənd ətrafında müdafiə

mövqeləri tutdular, post-patrul postları qurdular və əhalinin təhlükəsizliyini təmin etdilər.



***Şəkildə: Baris Mənsimov (soldan birinci) döyüş yoldaşları ilə birlikdə.***

-Hamıda böyük ruh yüksəkliyi vardı. Kənd camaatı da, polis işçiləri də kəndin və ətraf ərazilərin müdafiəsi üçün ayağa qalxmışdı, böyük əzm və qətiyyət nümayiş etdirirdilər. – Baris Məsimov xatırlayır. – Ermənilər ilə üzbəüz mövqelərdə səngərlər qazılmışdı. Hələlik iş yalnız üzbəüz atışmalardan uzağa getmirdi. Ermənilər qarşılarında təcrübəli polis işçilərinin olduğunu gözəl anlayır, açıq döyüşdən yayınırdılar. Polis rotasının qurduğu postlar ayıq-sayıqlığını itirmirdi. Hər şey müharibə dövrünün qanunların uyğun aparılırdı.

Rotanın döyüşçüləri Todanda evlərə paylanmışdı. Rotanın komandiri polkovnik-leytenant Qəhrəman Əliyev kənddə bir evi özünə qərargah kimi seçmişdi. Postlar da Todanın öz ərazisində idi. Todanın girişində polis nəzarət məntəqəsi

yaradılmışdı ki, kənar kəslər kəndə girə bilməsin və ermənilər kəndə hücum edərlərsə, onların qarşısı alına bilsin.Bundan əlavə Buzluq kəndinin yüksəkliyində KQB, Polis, OMON döyüşçüləri də mövqelər tutmuşdular. Cambaz dağı ətrafında gedən döyüşlərdə mən də iştirak etmişəm. Tariyel Şahverdiyev də həmin əməliyyatda yaralanmışdı.

Apardığımız əməliyyatlarda kənd camaatı bizə bələdçilik edirdi. Ətraf yerlərə, gizli cığırlara onlar yaxşı bələd idilər. Ermənilər bizi Mənəş tərəfdəki yüksəkliklərdən atəşə tuturdu, mövqe döyüşləri gedirdi. Biz də onları atəşlə susdurur, onların hücumlarının qarşısını alırdıq. Aramızda 500-1000 metr məsafə vardı. Onlar atəş açırdı, biz maneələri dəf edirdik. Onlar şəhərdən gələnləri, polis əməkdaşlarını Erkəc kəndindən atəşə tuturdular. Biz də mövqelər seçir, onların mövqelərinin atəşə tutur, onları zərərsizləşdirir, silahlı basqınların qarşısını alırdıq. Mənim boynuma snayper kimi böyük məsuliyyət düşürdü. Rota üçün düzgün və əlverişli mövqelərin seçilməsi mənə həvalə edilmişdi. Polis işçilərinin çoxu silahla yaxşı davranmağı bacarmırdı. Əfqanıstanda müxtəlif silahlarla davranmağı yaxşı öyrənmişdim. İndi bu təcrübəmi öz polis dostlarımla bölüşürdüm.

Günlərlə gizli postlarda ermənilərin mövqelərini izləyirdim, bizim ərazilərə soxulmaq istəyən erməni döyüşçülərini, kəşfiyyatçıları zərərsizləşdirirdim. Onların da kəşfiyyat qrupları var idi, tez-tez bizim mövqelərə soxulmağa çalışırdılar. Bir-bir sıradan çıxarıb, mövqeyimi dəyişirdim. Dəfələrlə gizli yollarla Çaykəndə kimi piyada gedib, kəşfiyyat aparmış, yenidən geri qayıtmışam. Polkovnik Ramiz Məmmədov bizim komandir idi. 1992-ci ildə ona general-mayor rütbəsi verildi. Döyüşə gedəndə o bizdən ən qabaqda

gedirdi. Şəxsi nümunə göstərirdi. Çaykənd alınanda da kəndə ilk girənlərdən biri də o və mən olmuşam. Çox igid adam idi.

-Bildiyimizə görə Todan üzərində erməni vertolyotunu da siz vurmusuz.

-Ruslar ermənilərı hər cür texnika ilə təhciz edirdilər. Tez-tez onların vertolyotu kəndin üzərindən uçur, mövqelərimizi, kəndi atəşə tuturdular. Komandanlıq bu qaniçən pilotu zərərsizləşdirməyi mənə tapşırmışdı. Bir gün kəndi atəşə tuta-tuta uçub üstümüzdən keçdi. Bilirdim ki, indi geri qayıdacaq. Tez bir evin damına çıxıb şiferdə hər iki istiqamətdə deşik açdım ki, tüfənglə atəş aça bilim. Bir az keçmiş vertolyot geri qayıtdı. Başı evləri atəşə tutmağa qarışmışdı. Kəndi biçirdi, mal-qara sulayan bir kişi də onun açdığı atəşin qurbanı oldu. Ələ düşən andan istifadə edib, vertolyotu nişan aldım. İlk atəşdən vertolyot tüstülənməyə başladı. Mövqelərimizin üstündən uçub qarşıdakı dağın üstünə, meşəliyə düşdü.

-Gəncənin ilk şəhidləri- Bəxtiyar, Ruzigar və Abasqulu da bu vertolyotdan açılan atəşdən həlak olmuşdular.

-Bəli. Həmin gün biz tərəfdən çoxlu şəhid oldu. Qisasını aldıq. Biz tərəfdən dəfələrlə onların nəşini istəmişdilər. Vermirdilər.2-3 gündən sonra Todanda "Tək ağac" deyilən yerdə BMP-də gətirib polis dəstəsinə təhvil verdilər.

-Siz bu qəhrəmanlığa görə mükafatlandırıldınızmı?

-Bəli. Bu əməliyyatda nümunəvi iştirakıma görə Daxili İşlər Nazirliyinin "Otliçnik MVD SSSR" ("SSRİ DİN əlaçısı" döş nişanı) ilə təltif olunmuşam.

- Polis rotası Todandan nə vaxt çıxdı?

-Kənddə özünümüdafiə dəstəsi yaradılandan sonra polis dəstəsinə başqa tapşırıq verildi. Kəndin qorxmaz kişiləri vardı. Ermənilərin öhdəsindən əla gəldilər. Bütün ətraf bölgələrin

gözü onlara dikilmişdi, tək bir kənd ətraf kəndlərin, hətta Gəncənin belə təhlükəsizliyini qoruyurdu. Ermənilər onların qorxusundan çox əl-qol aça bilmədilər, kəndin igidləri onları bir neçə kənddən də sıxışdırıb çıxartdı.

-Döyüş dostlarından kimlərin adını çəkə bilərsən? Onlar yaddaşında necə qalıb?

-Qorxmaz polislər idilər. Ən başlıcası isə vətənin hər qarışını sevirdilər. Döyüşə həvəslə qatılırdılar, elə bil ki, harasa toya-bayrama gedirdilər. Serjant Xəqani Arıxov, starşina Mahir Qasımov, serjant Tariyel İsmayılov, serjant Cəfər Cəfərli, vzvod komandiri baş leytenant Əbülfəz, rota komandiri polkovnik-leytenant Qəhrəman Əliyev… Bir hadisə olanda Todanda ratsiya ilə Gəncəyə məlumat verir, Növbətçi Hissə ilə əlaqə saxlayırdıq. Tez-tez əlavə qüvvələr bizə köməyə gəlirdi.

# Bədən tərbiyəsi dərslərində və sinifdənkənar məşğələlərdə vətənpərvərlik tərbiyəsi



Vətənpərvərlik tərbiyəsi həmişə tələb olunur. Ənənəvi olaraq o, ölkədəki siyasi, iqtisadi və sosial şəraitdən obyektiv asılı olan təhsil prosesinin zəruri komponenti kimi qəbul edilir. Buna görə də vətənpərvərlik tərbiyəsi problemi vətənpərvərlik tərbiyəsi anlayışının özü və şagirdlərlə işin üsullarını, vasitələrini və formalarını müəyyən edən məzmununa görə pedaqogikada ən mürəkkəb problemlərdən biridir.

Şagirdlərin vətənpərvər kimi yetişdirilməsi məqsədi ilə bütün təhsil və tərbiyə prosesinin onlara məqsədyönlü təsiri bütün məktəb tədris prosesinin strateji xəttini təşkil edir. Vətənpərvərlik ruhlu tədbirlərin təşkilinin ənənəvi formaları ilə birlikdə vətənpərvərliyin əsaslarının aşılanması problemi bədən tərbiyəsi dərslərində və sinifdənkənar məşğələlərdə açıq hava və idman oyunları, yarışlar vasitəsilə uğurla həll oluna bilər. Öz xüsusiyyətlərinə görə idman və bədən tərbiyəsi böyük təhsil potensialına malikdir. Onlar şəxsiyyətin vətəndaş şüuru və

vətənpərvərlik kimi ideoloji əsaslarını inkişaf etdirən ən güclü mexanizmlərdən biridir. İdman da bir təlim-tərbiyə vasitəsi kimi vətənpərvərlik tərbiyəsinin tərkib hissəsi hesab olunur. Bədən tərbiyəsi və idman həm də xəstəliklərin qarşısının alınması, sağlamlığın möhkəmləndirilməsi və yüksək göstəricilərin qorunmasının ən təsirli vasitələrindəndir.

Məktəblərdə vətənpərvərlik tərbiyəsi müxtəlif kütləvi iş formaları vasitəsilə həyata keçirilir:

Bədən tərbiyəsi dərsləri və sinifdənkənar məşğələlər məktəblilərdə əxlaqi və iradi keyfiyyətləri - qətiyyət, cəsarət, əzmkarlığı inkişaf etdirir. Onlar əxlaqi inancların, davranış qaydalarına ciddi riayət etmək vərdişinin və ləyaqətsiz davranışlara dözümsüzlüyün formalaşmasına kömək edir. Onlar həm də vətənpərvərlik hissini, qrup qarşısında öz hərəkətlərinə görə məsuliyyəti və nizam-intizamı tərbiyə edir.

İdman məşğələləri təkcə şagirdlərin təşkilatlanması vasitəsi deyil, həm də kollektiv fəaliyyət bacarıqlarının, düzgün duruşun, təşkilatın, nizam-intizamın, ritm hissi və digər keyfiyyətlərin inkişaf etdirilməsi vasitəsidir. Fiziki məşqlər hərəkətə marağı artırır, fiziki bacarıqları artırır, oynaqlarda elastiklik və hərəkətliliyi inkişaf etdirir, sağlamlığı gücləndirir.

Şagirdlərdə vətənpərvərlik tərbiyəsində fəal oyunların və estafet yarışlarının digər tərbiyə vasitələri və metodları ilə birgə istifadəsi yüksək effekt verir.

Oyun zamanı uşaqlar bütün iştirakçılar üçün məcburi olan qaydalara uyğun hərəkət edirlər. Bu qaydalar oyunçuların davranışını tənzimləyir və qarşılıqlı yardım, komanda işi, dürüstlük və nizam-intizamı təşviq edir. Onlar həmçinin güclü iradə gücünü - dözümlülük, cəsarət, qətiyyət və mənfi emosiyaların öhdəsindən gəlmək bacarığını inkişaf etdirirlər.

İdman dözümlülük və iradənin inkişafına kömək edir. Fərdi, qrup və ya sinifdə maneələri dəf etmək qarşılıqlı yardımı və çətinlikləri dəf etmək bacarığını öyrədir.

Fiziki bacarıqların inkişafı gəncləri hərbi xidmətə hazırlamağa kömək edir. Məktəblərdə ənənələrdən biri də məktəbdaxili idman yarışlarının keçirilməsidir.

Bu yarışların keçirilməsində məqsəd şagirdləri müntəzəm bədən tərbiyəsi və idmana cəlb etmək, hərtərəfli şəxsi inkişafa təkan vermək, sağlam həyat tərzini təbliğ etmək, məktəbin ən yaxşı idmançılarını üzə çıxarmaq, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsini gücləndirməkdən ibarətdir. Bu yarışlarda iştirak şagirdlərin həmrəyliyini gücləndirir, onların ünsiyyət bacarıqlarını artırır, iradə, özünə nəzarət, özünütəşkiletmə, nizam-intizam, təmkin və qarşılıqlı dəstək kimi keyfiyyətləri inkişaf etdirir.

Hərbi xidmətin və tətbiqi idmanın təbliğinə yönəlmiş tədbirlər vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Orta təhsil ocaqlarında idman yarışları məktəblilər arasında sağlam həyat tərzini təbliğ etmək, müsbət münasibəti inkişaf etdirmək, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsini inkişaf etdirmək məqsədi ilə keçirilir. Bu, şagirdlərin təşkilati cəhətdən möhkəmlənməsinə müsbət təsir göstərir, uşaqların ictimai fəallığının inkişafına təkan verir, gələcək əsgərlər və Vətən müdafiəçiləri üçün zəruri olan keyfiyyətləri inkişaf etdirir. Şagirdlər arasında sağlam həyat tərzinin təbliği, onların sağlamlığının qorunub saxlanmasına şərait yaradılması, dərslərdə və dərsdənkənar saatlarda sağlamlığa faydalı texnologiyalardan istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Sağlam gənc güclü Azərbaycan deməkdir!

Yeniyetmə və gənclərin idmana olan meylinin gücləndirilməsi onların vətəndaşlıq və vətənpərvərlik tərbiyəsində, sağlamlığının qorunmasında mühüm amillərdən biri kimi qiymətləndirilir.

Torpağı, xalqını sevən, vətənin müdafiəsinə hazır olan insan yetişdirmək çox çətin işdir. Amma biz pedaqoqlar bunu sevgi və mehribanlıqla həyata keçirir və şübhəsiz ki, nail oluruq.

Gənclər tək biliklə doldurulacaq qab deyil, həm də gələcəkdə alovlanacaq məşəldir! Bu gün gənclərimizə nə aşılasaq, sabah onu Vətənimizə verəcəkdir...

***Mehman Allahverdiyev, Gəncə İdman Liseyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, Respublikanın Fəxri Bədən Tərbiyəsi və Fəxri İdman işçisi.***

# Cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir



Bütün xalqlarda vətənpərvərlik hər bir insanda olmalı bir hiss kimi başa düşülür və qəbul edilir. Azərbaycan xalqı da öz vətənpərvərliyi ilə seçilir. Biz vətənpərvər kimi böyümüşük, gənclərimizi də əsl vətənpərvər vətəndaş kimi tərbiyə edirik. Bu, biz pedaqoqların tək vəzifə borcu deyildir, həmçinin vətəndaş borcumuzdur. Həm pedaqoq, həm də vətəndaş kimi səmimi qəlbdən gördüyümüz işlərin mükafatı uşaq qəlblərində oyanan vətənpərvərlik hissləridir. Milli dəyərlərin təbliği də bu hisslərin tərbiyə olunmasında əsas rola malikdir və bu dəyərlərin qorunması elə vətənin keşiyində layiqincə durmaq kimi şərəfli bir iş sayılır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi həmçinin, ümumtəhsil müəssisələrinin ən vacib təlim-tərbiyə proseslərindən biri sayılır. Müasir məktəblər təhsil alanların vətəndaş-vətənpərvər tərbiyəsinin qarşıya qoyduğu həyati vacibli məsələlərin həlli üçün bütün addımları atır. Bu tərbiyə istər tədrisdə, istərsə də, sinifdənxaric və məktəbdənkənar işlər zamanı yüksək çoşğunluqla həyata keçirilir.

Vətənpərvər vətəndaş tərbiyəsi bütün xalqlarda və cəmiyyətlərdəən çox diqqət çəkən bir prosesdir. Bu gün təmsil etdiyimiz cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir. Bu, günümüzün əsas tələblərindən biridir.

Yeniyetmə və gənclərin vətənpərvər vətəndaş tərbiyəsi həmişə orta məktəblər qarşısında duran ən vacib işlərdən sayılmışdır. Məktəb aşağı siniflərdən başlayaraq şagirdlərdə bu hissləri formalaşdırır, onlar tədricən öz vətənlərini sevməyi, onun keçmişi və bu günü ilə fəxr etməyi, xalqına hörmət və məhəbbət hissləri bəsləməyi öyrənir, onlarda fəal vətəndaş mövqeyi formalaşdırılır. Bütün bu hisslər şagirdlərə dərslərdə, dərsdənkənar işlərdə və ictimai işlərdə fəaliyyət zamanı aşılanır.

Bu sahə ilə bağlı fəaliyyət bütöv bir sistem şəklindəhəyata keçirilməkdədir.Təhsil ocaqlarında ekskursiyalar, olimpiadalar, ekoloji fəaliyyət, dərnəklər, iməcliklər kimi təlim-tərbiyə formaları, məktəbdəki muzeylər, tematik stendlər, şagird kollektivlərinin təşkili və onlara rəhbəlik, toplantılar, yığıncaqlar, görüşlər, fərdi iş formaları kimi məsləhətləşmə, söhbətlər, tapşırıq və göstərişlərin yerinə yetirilməsi və s. bu sistemin tərkib hissələridir.

Vətənpərvər vətəndaş tərbiyəsinin formalaşdırılmasında bir çox müvafiq fəaliyyət formalarının təşkilinə də yer verilir. Bütün bunlar sözsüz ki, bu tərbiyənin səviyyəsinin artırılmasına öz töfhəsini verir.

Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsində idmanın da rolu böyükdür. Hər şeydən əvvəl, idman komandaları tərbiyə sisteminin qarşıya qoyduğu, demək olar ki, bütün vəzifə bə tapşırıqları kompleks şəkildə yerinə yetirir. Bu oyunlar öz

tərbiyəvi əhəmiyyəti ilə digər tərbiyəvi vasitələr arasında seçilir.

İdmanşagirdlər arasında ən sevimli məşğuliyyət formasıdır. Təcrübədə şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsindəşagirdlərin idmana olan həvəsinin, idmanla məşğul olmanınəhəmiyyəti və şagirdlər arasnda populyarlığını hamı bilir.

İdman şagirdlərdə vətənin müdafiəçisi olacaq gələcək əsgərlər üçün lazım olan bir çox keyfiyyətləri formalaşdırır. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, hərbi-vətənpərvərlik tərbiyəsində idman da vacib rol oynamaqdadır. Hərbi-vətənpərvərlik tərbiyəsi vətənpərvərlik tərbiyəsi ilə sıx bağlı olduğundan cəmiyyətimiz bu gün yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsində bu sahədə biz pedaqoqlar qarşısında ciddi vəzifələr qoyur. Bu vəzifələr gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin əhəmiyyətini daha da artırır. Axı Vətənimizin güclü və bacarıqlı müdafiəçilərinin hazırlanması işinə, bir çox hallarda həlledici töfhəni məhz bu vəzifələrin düzgün icrası verəcəkdir.

Şagidlər idman dərslərində,idman məktəblərində keçirilən məşqlərdə, eyni zamanda idman oyunlarındaiştirakı ilə hələ Milli Orduya çağırılmazdan əvvəl Vətənin müdafiəçilərinə lazım olan keyfiyyətlərə yiyələnir, dözümlülük, iradə, əzm, qətiyyət, qələbə çalmaq əzmi və s. kimi bir sıra lazımi məlumatları təcrübədə qazanmış olurlar. Bununla birlikdə, hərbi-vətənpərvərlik tərbiyəsi gənclərimizi vacib mənəvi-psixoloji keyfiyyətlərlə silahlandırır. Bu keyfiyyətlər vətənin gələcək müdafiəçiləri kimi, dinc dövrün insanlarına da lazımdır.

Göründüyü kimi, vətənin gələcək müdafiəçilərinin hazırlığı işi biz pedaqoqlar qarşısında duran məsuliyyətli və ciddi vəzifələrdəndir. Hər bir müəllim öz sahəsində müasir şagirdlərə bütün mövcud metod və vasitələrlə vətənpərvərlik hisslərini aşılamalı, onları Azərbaycanın ərazi bütövlüyünü gələcəkdə layiqincə qorumağa, doğma Vətəninə, Dövlətinə, Milli Orduya məhəbbət ruhunda yaşayıb yaratmağa çağırmalıdır.

Biz pedaqoqlar məktəblilərlə hərbi-vətənpərvərlik işini bu istiqamətdə qurur, gənc nəslə təcrübədən keçmiş üsullarla dövlətimizin əbədiliyini və gücünü təlqin edirik. Məktələrimizdə vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi işi tədris ili boyunca lazımı səviyyədə aparılır və öz müsbət nəticələrini verir. Görülən bütün işlər son nəticələrə - öz vətəninin vətənpərvərləri olacaqyeniyetmə və gənclərin vətəndaş tərbiyəsinə istiqamətlənib.

**Ramil Qasımov, Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Paraolimpiya çempionu, Şöhrət ordenli.**

# Vətəni sevmək - onunla bağlı yaxşı və ali nə varsa, bütün varlığı ilə sevmək deməkdir



Hər bir insan bir ömür yaşayır. Ancaq insanların qəlbində daim yaşamaq hər kəsə qismət olmur. Yaxşı əməlləri ilə seçilən vətən oğulları qəlbimizdə həmişə yer tutub. Şəhid qardaşlarımız, Vətən müharibəsinin qəhrəmanları olan qazilərimiz daim qəlbimizdə yaşayacaqdır. Natiq Qasımov haqqında mətbuat səhifələrində çox yazılara rast gəlirik. Onun qəhrəmanlığı bütün xalqımızda qürur hissi oyadır. Onun timsalında xalqımız öz igid oğlunu, yenilməz qəhrəmanını sevir.

Öz vətənini sevmək - onunla bağlı yaxşı və ali nə varsa, onu bütün varlığı ilə sevmək deməkdir. Onun mədəniyyətini, şərəfli keçmişini və bu gününü sevmək gəncləri vətənin gələcəyi naminə yaxşı işlər görməyə ruhlandırır. Natiq Qasımov kimi qəhrəmanlarımızın igidliyi və mərdliyi isə gənc nəsli vətənin gələcəkdə layiqli müdafiəçiləri və təmsilçiləri olmağa səsləyir. Bu səbəbdən uşaqlara hələ məktəb yaşlarından qəhrəmanlara və qəhrəmanlığa maraq və onlara məhəbbət hissləri aşılamaq

çox vacibdir. Ədəbiyyat nümunələrində də onlar qorxmaz, igid, cəsarətli, iradəli müsbət obrazlardır. Qəhrəmanlıq eyni zamanda uşaqlara təvazökarlığı və zəhmətsevərliyi təşviq edir. Qəhrəmanlar öz əməllərində vətənə məhəbbət və sevgi ruhunu daşıyır. Ədalət hissi, vətən, torpaq məhəbbəti, onun uğrunda mübarizə aparmaq-bütün bunlar uşaqları xəyalən qəhrəmanlığa səsləyir. Biz böyüklərin borcu isə uşaqlarımızı qəhrəmanların timsalında, onlara layiqli insanlar kimi böyütməkdir.

Təhsil ocaqlarında təlim-tərbiyə prosesi onları bütövlükdə hərtərəfli bilikli bə bacarıqlı vətənpərvər şəxsiyyət kimi formalaşdırılmasını nəzərdə tutur.Bu işlər şagird dünyagörüşünün daha da artırılmasına, onlarda vətənə gələcəkdə layiqli müdafiəçilər olmaq  üçün bir çox lazımi vərdişlərin yaradılmasına və s. yönəlib. Tədricən və planlı şəkildə görülən bu işlər uşaqlarda vətənpərvərliyin ilk təməlini yaradır. Axı uşaqlar bizim vətənimizin gələcəyidir. Vətənimizi, onun ən qiymətli sərvəti olan xalqımızı məhz onlar qoruyacaq və müdafiə edəcəklər. Hələlik isə təhsil ocaqları öz təlimverici, tərbiyəedici funksiyasını yerinə yetirməklə böyüməkdə olan bu gənc nəslin təlim-tərbiyəsinə var gücünü həsr edir.

Vətənpərvərlik tərbiyəsi ayrı-ayrı sahələr üzrə aparılsa da, hər biri özünəməxsus funksiya daşıyır. Bu işin bir neçə fəaliyyət istiqaməti mövcuddur. İstiqamət eynidir-vətənə layiqli oğul və qızlar yetişdirmək. Bu bizim yetirmələrimiz olan gənclərin mənəvi aləminin daha da zənginləşdirilməsinə xidmət edir. Bu, bizim işimizin əsas qayəsi, məqsədi sayılır. İdman məktəbləri də də uşaqlarda mənəvi təlabatın yaradılması üçün müasir təhsilin verdiyi bütün üstünlüklərdən faydalanır, təlim - tərbiyə işini düzgün qururlar.Azərbaycan özünün müasir təhsil sistemi ilə fəxr edir. Təhsilimiz müəllim və pedaqoqlar

üçün geniş imkanlar açmışdır. Eyni zamanda bu, təhsil ocaqlarında vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə qurulması üçün bir zəmin və stimuldur. Bu işdə idman məktəbləri də istisna deyildir və bu sahədə pedaqoji kollektivimizin gördüyü əməli işlər öz yaddaqalan xüsusiyyətləri ilə seçilir. Biz öz işimizi gələcəyin layiqli vətəndaşlarını yetişdirmək üzərində qurur, üzərimizə düşən vəzifə və öhdəlikləri layiqincə yerinə yetirməyə çalışırıq. Şagirdlərin idman həyatında, onların mənəvi aləminin zənginləşdirilməsində,onlarda milli şüurun formalaşdırılmasında idmanın yeri və rolu əvəzedilməzdir. Gündəlik işimizdə, istər məşqçi-müəllimlər ilə söhbətlərdə, istərsə də valideynlərlə söhbətlərdə uşaqlarda idmana maraq və diqqətin artırılmasını həmişə ön plana çəkirik, idmanın qəhrəmanların, böyük şəxsiyyətlərin xarakterinin formalaşmasında və mənəvi həyatında əvəzsiz rolunu diqqətə çatdırırıq.Təlim-tərbiyədə bütün mütərəqqi üsullar vacibdir. İnsanda bir çox müsbət keyfiyyətlər məhz idmanla müntəzəm şəkildə məşğul olunan illərdə yaranır. İdman insanın harmonik şəkildə inkişafını, mənəvi zənginliyi və ictimai məsuliyyət şüurunu təmin edir. İdman ideya, etik və estetik zənginlik mənbəyi, qəhrəmanlıq xarakterinin tərbiyəedici mənbəyidir. İdman estetik zövqün, insan üçün bir çox müsbət keyfiyyətlərin,həmçinin vətənpərvərlik və hərbi-vətənpərvərlik ideyalarının daşıyıcısıdır.

**Asif Həsənov, Gəncə şəhər 2 nömrəli Uşaq - Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Əməkdar Məşqçi, Fəxri Bədən Tərbiyəsi və İdman işçisi, Şahmat üzrə Beynəlxalq Usta, Əməkdar bədən tərbiyəsi və idman xadimi.**

# Yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsi



Ulu Öndər Heydər Əliyev vətənpərvərlik hisslərini yüksək qiymətləndirərək demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq,inkişaf etdirmək və təbliğ etməkdir". Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. Ölkəmizdə vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar var. Çünki Azərbaycanı dünyaya tanıdan dövlət xadimlərinin, ziyalılarının nümunələri də gənc nəsl üçün bir tərbiyə məktəbidir. Bu bir həqiqətdir ki, biz şanlı tariximizdə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Şah İsmayıl Xətai, Babək, Mehdi Hüseyinzadə, Həzi Aslanov və yüzlərlə belə igid sərkərdələrimizin şəxsi nümunəsi əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq minlərlə qəhrəman,vətənpərvər yetişdirib.

Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində xüsusi bir hadisədir. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu itirdiyimiz torpaqları özümüzə qaytardı. Burada Azərbaycan igidləri yalnız silah və texnika gücü ilə deyil, eyni zamanda, şəxsi şücaətləri ilə yadda qaldı. Qəlbi vətən eşqi ilə yanan mərd oğullarımız şanlı tariximizə öz qanları ilə yeni qələbə yazdılar.

Vətənpərvərlik tərbiyəsində hər bir gəncin doğulub, boya-başa çatdığı ailənin də böyük rolu vardır. Gənclərin bir vətəndaş kimi yetişməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Gənclər bir insan, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlara vətən sevgisi aşılamaq üçün ilk növbədə valideynlər o ruhda olmalıdırlar.

Son dövrlərdə gənclərimizin vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılmışdır. Təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması üçün müəyyən vəzifələr qoyulmuşdur. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa məhəbbət hissi tərbiyə etməklə yanaşı, onlarda vətən qarşısında şərəf və borc hissini də qüvvətləndirilməlidir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim

diqqət mərkəzindədir. Bu, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Bu məqsədlə aidiyyəti qurumlarla birgə vətənpərvərlik tərbiyəsi üzrə aktual məsələlərə həsr olunmuş müşavirələrin, konfransların, "Dəyirmi masa"ların, mədəni-kütləvi və digər tədbirlərin təşkilinə böyük üstünlük veririk.

Yeri gəlmişkən, bir məqamı da qeyd etmək yerinə düşər ki, bəzən "Gənclərin çağırışaqədərki hazırlığı" fənninin ümumi təhsil məktəblərində daha aşağı siniflərdən tədris olunması ilə bağlı fikirlər səsləndirilir. Əslində, ümumtəhsil məktəblərində fənlərin hər birinin məhz hansı sinifdən başlanması şagirdlərin yaş, fizioloji, psixoloji və qavrama səviyyəsi nəzərə alınmaqla elmi-pedaqoji cəhətdən əsaslandırılıb, müəyyən edilmişdir. Adından da göründüyü kimi, bu fənn şagirdlərin ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığını təmin etməyə yönəlmişdir və təhsilalanların vətənpərvərlik tərbiyəsində özünəməxsus yeri vardır. Lakin vətənpərvərlik duyğularının aşılanması, gənclərin bu ruhda tərbiyəsi yalnız bu fənnin vəzifəsi deyildir. Belə ki, bütün fənlərin tədrisində, xüsusilə də humanitar-ictimai fənlərin tədrisində vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar vardır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter alması, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması, şagirdlərdə fəal vətəndaş

mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılması məqsədilə rəhbərlik etdiyim Gəncə şəhəri, M.Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseydə geniş ölçüdə işlər aparılmaqdadır və bu, bütün tədris ili boyu davam edir.

Hər bir dövlətin varlığı və gələcəyi, həm də gənclərin tərbiyəsindən aslıdır. Gənclərin ideoloji baxımdan hazırlığı, düşünülmüş ardıcıl gənclər siyasətinin nəticəsidir.Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar məktəblərimizdə tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, məktəblərimizdə təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hissləri aşılayır.

***Əliağa Səfərəliyev, Gəncə şəhəri, M.Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin direktoru, Respublikanın Əməkdar müəllimi*.**

# Vətənə məhəbbət ən mühüm ali hissdir



Cəmiyyətin hər bir üzvünün Vətən haqqında fərqli təsəvvürləri var. Vətən haqqında illər ərzində formalaşmış fikirlər insanı cəlb edirsə bu, onun uğrunda hər cür qurban verməyə hazır olduğu ideala çevrilir. Buna misal olaraq Vətən Müharibəsinin ilk günlərində öz vətəninin müdafiəsinə qalxmış, hərbi komisarlıqlarda orduya könüllü yazılmaq üçün növbəyə düzülmüş gənclərimizi, torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün hər şey edən dövlətimizi, onun Ali Baş Komandanı İlham Əliyevi misal göstərmək olar.

Ölkənin iqtisadi-ictimai, mədəni inkişafı, əhalinin sosial rifahı da vətənpərvərlik təbliğatında ruh yüksəkliyi yaradan əsas faktorlardan biri kimi qiymətləndirilir.

Vətənpərvərlik və milli-mənəvi şüurun təbliği və aşılanması bir tərəfdən ictimai səciyyə daşıyaraq şagirdlərin, tələbələrin vətəndaş kimi formalaşmasında, öz Vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Başqa bir yöndən vətənpərvərlik gənclərdə vicdan, ləyaqət, ədalət hisslərini tərbiyə edir, şəxsi mənafe, eqoizimdən uzaqlaşdıraraq millət,

xalq sevgisini oyadır. Bu isə öz növbəsində xalqın mənafeyinə xidmət edilməsinə zəmin yaradır. Bir sözlə, Vətənini, xalqını, millətini, torpağını sevən şəxsin ədalət və mərhəmət hissi də uca olar.

Vətəni sevmək azdır, gərək həm də onu qorumağı bacarmalı, onun uğrunda və onun rifahı üçün çalışmalı, vətən və xalqın ilə bağlı yaxşı nə varsa, sevməyi bacarmalısan. Bu yolda hər birimiz vətənini səmimi qəlbdən sevən insanlar olmalıyıq. Vətənini sevməyin özü də bir yüksək mədəniyyətdir. İllər ərzində xalqımız arasında formalaşan fikirlər, təcrübədə gördüyümüz keyfiyyət və cəhətlər, xalqımızın öz vətəni uğrunda qəhrəmanlıq dolu mübarizəsi bu sevginin yüksək formada inkişaf etdiyini deməyə əsas verir. Bu yolda biz mədəniyyət işçiləri də öz töfhələrini vermiş və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, mədəniyyətimizin günü-gündən daha da inkişaf etdirilməsində xüsusi rol oynamışıq. Bu haqda çoxlu yazılmışdır. Çox sevindirici haldır ki, milli mədəniyyətimizin yüksəliş dövrünü yaşayırıq və bu yolda daha da əzmlə çalışırıq.

Günümüzdə yeniyetmə və gənclərimin vətənpərvərlik tərbiyəsi aktual məsələlərdən biri olaraq qalmaqdadır. Vətənpərvərlik tərbiyəsinin müxtəlif sahələri arasında qarşılıqlı əlaqələr mövcuddur və bu, bizə bu hisslərin daha da inkişaf etdirilmsinə və nəticədə tərbiyəli şəxsiyyətlərin yetişdirilməsinə imkan verir. Orta təhsil müəssisələri Uşaq Musiqi Məktəbləri və digər mədəniyyət obyektləri ilə sıx əlaqəlidir. Bu, təhsil alan uşaqlarımızın hərtəfli inkişafı üçün geniş imkanlar bəxş edir.Bu həm də vətənpərlik mədəniyyətinin inkişafına geniş yol açır, insanlarda vətəni

sevmək mədəniyyəti formalaşır və bu dünyagörüşü daha da inkişaf etdirir.

Mədəniyyətin özü geniş mənalı bir məhfumdur. Hər bir sahədə konkret mədəniyyət formaları mövcuddur və bu, insanın ümumi əxlaqi cəhət və keyfiyyətlərini özündə ehtiva edir. Bu müsbət keyfiyyət və cəhətlər öz növbəsində Vətən və vətənpərvərlik haqqında özünəməxsus anlayışı inkişaf etdirir, müəyyən bir cəmiyyət daxilində inkişaf edən fikirlərin təsiri altında bilik və dəyərlər formalaşır, həm fərdi, həm də böyük bir kütlə üçün vətənpərvərlik fəaliyyətinin istiqaməti müəyyən edilir. Vətənpərvərlik mədəniyyəti sosial fəaliyyət mədəniyyətinin bir hissəsidir, onun xüsusi bir növüdür ki, bu da cəmiyyətdə insanların qarşılıqlı əlaqə yollarından biridir.

Vətənpərvərlik mədəniyyəti vətənpərvərlik şüurunun, adət-ənənələrin, bu sahə ilə bağlı fəaliyyət istiqamətlərinin və davranışın məcmusudur. Dövlətimizin inkişafında fəal iştirak vətənpərvərlik mədəniyyətinin mühüm elementidir, çünki onlar son nəticədə insanların vətənpərvərlik münasibətlərinin reallaşmasına gətirib çıxarır.

Şəxsiyyətin vətənpərvərlik fəaliyyəti cəmiyyətdən kənarda mövcud deyil. Çünki o, insanlar tərəfindən həyata keçirilir və eyni zamanda cəmiyyət daxilində hər bir fərdin inkişafına da yol açır. Bütün sahələrdə vətənpərvərliyin təzahürü zamanı ideal vətəndaş yaranır. O bütün səy və bacarıqlarını cəmiyyətin mütərəqqi mədəni, siyasi və sosial-iqtisadi inkişafına yönəldir. Vətənpərvərlik fəaliyyəti insanın vətəninin inkişaf etdirilməsi, çiçəklənməsi və onun müdafiəsi haqda biliklərindən qaynaqlanır, genişləndirilir və dərinləşdirilir. Bu fəaliyyət vətənpərvərlik əqidəsini inkişaf etdirir, vətənpərvərlik hisslərini ifadə edir, fərdin ehtiyac və maraqlarını həyata keçirməklə həm

də onun mənəvi ehtiyacını ödəyir. Bununla da vətənpərvərlik fəaliyyəti insanın sosial fəaliyyətinin bir forması olaraq mahiyyətcə insani, ali, ictimai ehtiyaclardan qaynaqlanır. O mahiyyətcə digər davranış və reaksiyalardan kəskin surətdə fərqlənir. Bu, daxili motivasiyalı fəaliyyət formasıdır, yəni insanın daxili, psixoloji proseslərindən yaranır və qaynaqlanır. Bunların hissləri biruzə verən şəxs tərəfindən həyata keçirilməsi nəticəsində isə mədəni irsi təmsil edən və yaradıcı insan fəaliyyətinin nəticəsi olan maddi və ya ideal məhsul doğulur. Fəaliyyətin bu təcəssümü və ya əksi həm də insanın bilik və bacarıqlarının izlərini özündə daşıyır.

Bu gün ölkəmiz qurulan ictimai yaddaş mədəniyyəti ilə də seçilir. Tarixi yaddaşın formalaşdırılması böyümükdə olan gənc nəsilləri öz vətənini qəlbən sevən insanlara çevirir.O bu gün aktual məsələlərdən biridir, çünki özündə tariximizin şanlı keçmişi olan səhifələrini daşıyır. Bu vəziyyətdə, tarixi yaddaş vətənpərvərlik hissini təcəssüm etdirir və qiymətləndirmə yolu ilə konkret tarixi şəxsiyyətlərin fəaliyyəti, müəyyən dövrdə insan şüuru və davranışı üçün nəyin xüsusi dəyər daşıdığı barədə təəssürat, mühakimə və mülahizələr formalaşır. Tarixi yaddaş keçmişin əsas tarixi hadisələrini insanların şüurunda saxlamaq, hətta tarixi bilikləri qavrayışın müxtəlif formalarına çevirmək, onun əfsanələrdə, nağıllarda, adət-ənənələrdə qeyd etmək qabiliyyətinə də malikdir.

Vətənpərvərlik, vətəndaş cəmiyyətinə şüurlu mənsubiyyət hissi kimi, əsas müəyyən edən amildir.

***Aynur Şixiyeva, Gəncə şəhəri, 4 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru.***

# Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır



Xalqımızın igid, qəhrəman oğlu Natiq Qasımov xalqını ürəkdən sevən bir igid olub. Onun qəhrəmanlığı gələcək nəsillər üçün də bir örnək yeri olacaqdır. Tarixə düşən qəhrəmandır. O, göstərdiyi qəhrəmanlıq ilə oğullarımızın vətənə olan sonsuz sevgisini, düşmənə olan hədsiz nifrətini sübut etmiş oldu. Düşmənlər hələ o illərdə bizim qəhrəman oğullarımızın yenilməzliyini gördülər. Qarabağ torpağında çaldığımız tarixi qələbə bir daha buna sübut oldu.

Qəhrəmanlar haqqında olan yazılı ədəbiyyat nümunələri insanların qəlbində böyük hisslərin, yenilməz ruhun meydan tapmasında böyük bir təsirli vasitədir. O, xalqımızın övladlarını insanlıq naminə böyük işlər görməyə səsləyir. Vətənpərvərlik ruhunu özündə daşıyan ədəbiyyat nümunələri isə bu gün öz böyük tərbiyəedici funksiyası ilə daha da diqqət çəkir, onlar bu günün vacib informasiyalarını özündə daşımaqla, gələcək nəsillərin təlim-tərbiyəsi üçün böyük önəm daşıyır.

Əsrimiz texnologiya və informasiya əsridir. Bu, qəhrəmanlarımız haqqında da geniş məlumatlar almağa şərait

yaradır. Məhz informasiya vasitələrinin verdiyi imkanlar vasitəsilə biz yenilməz qəhrəmanımız Natiq Qasımov haqqında məlumatlara sahib ola bildik. İnsanlar indi bu qəhrəmanın şəninə şeirlər qoşur, mahnılar bəstələyir, ona filmlər həsr olunur.Bu, əlbəttə ki, qürurverici bir haldır. Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır.

İnsanlar üçün qəhrəmanlıq mövzusu həmişə maraqlı bir mövzu olaraq qalacaqdır. Bu, qəhrəmanlığa olan məhəbbətin bir cür təzahürüdür. Onları xatırlamaqla, insanlar onların ruhunu da yaşatmalı olurlar. Qəhrəmanlığı tərənnüm edən mahnılar, rəvayət və hekayətlər, kitablar və filmlər də bu səbəbdən yaranır. Qəhrəmanlar bu yolla yaşadılır, unudulmur. Bunu ailədə də təbliğ etmək, uşaqlarda qəhrəmanlığı özündə daşıyan şifahi və yazılı ədəbiyyata məhəbbət oyatmaq gərəkdir.Bu sahədə təhsil ocaqlarında böyük işlər aparılır, onlarda ədəbiyyata, şeirə, musiqiyə böyük məhəbbət aşılanır. Bununla belə uşaqlarda qəhrəmanlığı tərənnüm edən bütün vasitələrə olan məhəbbətin ilkin təməli də ailədə qoyulmalıdır. Uşaqlarda kitablara məhəbbətin aşılanması onların təlim-tərbiyəsində önəmli xarakter daşıyır. Bu işdə valideynlərin də üzərinə böyük yük düşür. Onlar uşaqların yaş dövrünə uyğun kitablar seçmək və bunu məqsədyönümlü şəkildə etmək, hələ uşaq yaşlarından onların şüurunda gözəlliyin, qəhrəmanlığın, vətənə məhəbbət və vətənpərvərliyin daşıyıcıları olan kitabların toxumunu səpmək lazımdır.Əgər bu tərbiyə aşılansa,onda uşaqlarda yaxşı oxumaq,əlaçı olmaq, məktəbin fəal və qoçaq şagirdi olmaq üçün onlarda daxili yanğı yaranacaqdır. Məktəb biliklərin əsasını qoyur, bu biliklərin təkmilləşdirilməsi isə insanda bütün ömrü boyu davam edir.

Şagirdlərin vətənpərvər vətəndaş kimi formalaşmasında, bu ruhda tərbiyə olunmasında vətənpərvərlik və hərbi-vətənpərvərlik mövzusunda yazılmış, yaxşı düşünülmüş, zəngin və estetik cəhətdən uşaq və gənc ürəkləri zənginləşdirən kitablar öz sözünü deyir.Uşaqlar tərəfindən sevilən və çox oxunan bədii ədəbiyyat nümunələri çoxdur. Onların uşaqların tərbiyəsində oynadığı rol əvəzsizdir. Uşaqların ədəbiyyata olan maraqlarını istiqamətləndirərkən, onlara doğma vətənimizin gözəlliyini, müqəddəs saydığımız hər şeyi dərindən başa düşməyə kömək edirik. Bu yolla onlara həm də vətənimizi, onun keşiyində duran, onu qoruyan qəhrəmanlığımızı sevdirik. Bu, onlara doğma xalqımıza məhəbbəti və sözün gözəlliyi hissini aşılayır.

Kitablar insan daxilində insan tərbiyə edir, bu günkü nəsillərin gələcəkdə vətənimizin layiqli oğul və qızları, vətənpərvərləri kimi yetişməsində böyük rol oynayır.Bunu eynilə incəsənət aləminə də aid etmək olar. Uşaqlar tək ədəbiyyat nümunələri üzrərində tərbiyə olunmurlar. İdman, musiqi, incəsənət... uşaqlarımızın daxili aləmini gözəlləşdirir, bu yolla onlar xoşbəxtlik və gözəllik dünyasına daxil olurlar. Estetik tərbiyə də təlim - tərbiyədə önəmli yer tutur. Estetik tərbiyə həmişə var. Bu tərbiyə hər gün nəzərə çarpmadan həyatımıza daxil olur.Ona görə də gənc və yeniyetmələrə bu tərbiyəni aşılayarkən onları düzgün, faydalı yola istiqamətləndirmək lazımdır.Uşaqları, gənc və yeniyetmələri tərbiyə etmək - onları ölkəmizdə baş verən bütün yenilikləri, yüksəlişi səmimi qəlblə sevməyi, yaşadığı torpağın, butorpağın yetişdirdiyi qəhrəmanlarını, musiqisini, mədəniyyətini, bu günün, xoşbəxt gələcəyini sevməyi öyrətmək deməkdir.

Ölkəmiz müstəqillik qazandığı dövrdən üzü bəri vətənpərvərlik hissləri xalqımızın şüurunda özünə yer almış, bu, xalqımıza və dövlətimizə yenilməz məhəbbət formasında özünü daim biruzə vermişdir. Bu hisslər dövlətimiz və xalqımızla bağlı bütün işlərdə kütləvi şüurda son dərəcə geniş əks-səda tapmışdır.Vətənə məhəbbət, milli iftixar, öz xalqının bu gününə, keçmişinəhörmət Azərbaycan xalqına xas olan xüsusiyyətlərdir. Bu hisslər hələ uşaq yaşlarından formalaşır və tədricən onun ağıl və düşüncəsinə hopur. Natiq Qasımov kimi qəhrəmanlarımıza olan məhəbbət hissləri də bu xüsusiyyətlər arasında ən ülvi hisslərdir.

***Təvəkgül Hüseynli, Samux rayonu, Qarayeri qəsəbə Uşaq Musiqi Məktəbinin direktoru.***

# Vətənpərvərlik tərbiyəsi vətəndaşların mənəvi inkişafının zəruri şərti kimi



Hal-hazırda dövlət gənclər siyasəti çərçivəsində həyata keçirilən gənc nəslə vətənpərvərlik və hərbi-vətənpərvərlik hisslərinin aşılanması işi mühüm əhəmiyyət daşıyır. Gənclərə bu istiqamətdə dəstəyin məzmunu, formaları və istiqamətləri artıq dövlət qanunları ilə tənzimləşmiş və yerlərdə uğurla həyata keçirilməkdədir. Sevinirik ki, biz pedaqoqlar təhsil ocaqlarında bu işin düzgün təşkil olunmasına nail olmuş, təcrübədə qarşımıza qoyulan əsas məqsədlərin əldə olunmasına nail ola bilmişik.

Hərbi-vətənpərvərlik tərbiyəsi dövlət orqanlarının, ictimai birliklərin və təşkilatların gənclərdə vətənpərvərlik şüurunun, Vətənə sədaqət hissinin, vətəndaşlıq borcunu yerinə yetirməyə hazırlığın, Vətənin mənafeyinin müdafiəsi ilə bağlı ən mühüm konstitusiya öhdəliklərinin aşılanmasına yönəlmiş çoxşaxəli, sistemli, məqsədyönlü və əlaqələndirilmiş fəaliyyətidir və Dövlət gənclər siyasətinin tərkib hissəsindən biridir .

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində hərbi-vətənpərvərlik tərbiyəsinin əsasını sosial və pedaqoji komponent təşkil edir. Bunu nəzərə alaraq Gəncə

Dövlət Peşə Təhsil Mərkəzinin bütün müəllim kollektivinin fəaliyyəti tələbələrə bu sahədə müsbət təsir göstərmək məqsədi daşıyır. İşimizdə sosial, tarixi, əxlaqi, siyasi, hərbi və digər məsələlərə dair dünyagörüşləri, eləcə də bu sahənin qarşıya qoyduğu ən mühüm vəzifələr-mənəvi, əxlaqi və fəaliyyət yönümlü keyfiyyətlər kimi Vətənə məhəbbət, qanunun aliliyinə hörmət, konstitusiya tələblərinin yerinə yetirilməsi üçün məsuliyyət, Vətəni müdafiə etmək öhdəlikləri önə çəkilməkdədir.

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Təhsil Mərkəzinin peşə təhsilinin tədrisi ilə paralel olaraq həyata keçirtdiyi işin əsas məqsədi hərbi-vətənpərvərlik ruhunun daha da inkişaf etdirilməsi, gənclərin vətənimiz üçün layiqli vətəndaşlar kimi yetişdirilməsidir.

Pedaqoji heyət təhsil və təlim fəaliyyətini planlaşdırarkən bu hal nəzərə alınır.Bunun üçün təhsildə hərbi-vətənpərvərlik konsepsiyasında müəyyən edilmiş məqsədlər vardır. Bunlar gənclərdə ən mühüm mənəvi, əxlaqi və sosial dəyərlər kimi vətəndaş şüurunun və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi, gənclərdə peşə əhəmiyyətli keyfiyyətlərin, bacarıqların və onları cəmiyyətin müxtəlif sahələrində, xüsusən hərbi və digər əlaqəli dövlət qulluğunda fəal nümayiş etdirmək üçün hazırlığın inkişafı, sülh və müharibə dövründə konstitusiya və hərbi vəzifəyə sədaqət hissini inkişaf etdirmək, yüksək məsuliyyət və nizam-intizamın inkişafı kmi keyfiyyətlərin aşılanması kimi məsələləridir.

Biz mərkəzdəki tədris prosesini onların şəxsiyyət kimi formalaşmasına kömək edəcək şəkildə qurmağa çalışır, bununla da təhsil və təlim prosesində tələbə oğlan və qızların üzərinə götürdükləri sosial rolların əhəmiyyətini onlara başa

salırıq. Bu, peşə təhsili haqqında dövlət proqramının, Azərbaycan Respublikası vətəndaşlarının vətənpərvərlik tərbiyəsi və Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi konsepsiyası tələblərinin yerinə yetirilməsinə böyük töhfə verir. Bununla Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin pedaqoji kollektivinin fəaliyyəti təhsil alanların mənalı həyat mövqeyinin inkişafına yönəldilir. Tələbələrin yüksək dəyərlərə əsaslanan inkişafı və vətənpərvər vətandaş kimi formalaşması onların gələcək həyat fəaliyyəti ilə ayrılmaz şəkildə bağlıdır. Bu, onların bacarıqlı mütəxəssis kimi yetişdirilməsi prosesi ilə yanaşı aparılır. Dəyərlərə riayət etmək, onlara qayğı ilə yanaşmaq və əldə edilmiş biliklərdən istifadə etmək, bu dəyərləri qorumaq üçün bacarıq və təcrübə qazanmaq tələbələr qarşısında qoyulan tələblərdir. Onlar cəmiyyətin fəaliyyət göstərdiyi qanunları bilməli və onlardan öz fəaliyyətlərində məharətlə istifadə etməlidir, dövlətimizin tarixini və cəmiyyətin ənənələrini bilməlidir, vətəninin vətənpərvəri olmalı və hər an vətənini müdafiə etməyə hazır olmadır. Bütün bunlar onlarda ən yüksək keyfiyyətləri aşılayır.

Tədris prosesi zamanı hərbi-vətənpərvərlik tərbiyəsi əxlaqi, tarixi, siyasi və hüquqi, peşəkar fəaliyyətə əsaslanan psixoloji formalar böyük əhəmiyyət daşıyır. Eyni zamanda mənəvi, vətənpərvərlik tərbiyəsi və hərbi ənənələrə əsaslanan tərbiyə müxtəlif formalı və məzmunlu tədbirlərlə - milli bayramlara həsr olunmuş təntənəli yığıncaqlar, Vətən Müharibəsi veteranları ilə görüşlər, hərbi hissələrə ekskursiyalar və s. işlərlə həyata keçirilir. Bu təhsil alan gənclərdə yüksək məsuliyyət və nizam-intizamın inkişafına yol açır.

***Azər Rüstəmov, Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru.***

# Ordumuzun qəhrəman oğulları ilə fəxr edirik



Xalqımız 44 günlük müharibədə bir yumruq kimi Azərbaycan bayrağı altında birləşərək Vətən uğrunda ölümə getməyə hazır olduğunu sübut etdi. Ali Baş Komandanımızın siyasi iradəsi, Ordumuzun şücaəti, əsgər və zabitlərimizin canı, qanı bahasına Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, haqq-ədalət öz yerini tapdı. Biz buna görə I və II Qarabağ müharibəsi zamanı azğın düşmənlə çarpışan, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün şirin canından və qanından keçmiş şəhidlərimizə və qazilərimizə borcluyuq. Bu gün onlar xalqımızın əziz övladları kimi ən əziz hörmət və məhəbbətə layiq görülmüşlər. Biz torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizlə, sağlamlığını itirmiş qazilərimizlə fəxr edirik. Azərbaycan xalqı müzəffər xalqdır və qalib dövlət kimi əbədi yaşayacaq.

Ceyhun Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrində Briqada komandirinin tərbiyəvi işlər üzrə müavini, Korpusun tərbiyəvi işlər üzrə şöbə rəisinin müavini, Azərbaycan Silahlı qüvvələrinin zabit təkmilləşdirilmə kursunun rəisi kimi məsul vəzifələrdə xidmət edib. İndi fəxri təqaüddədir. Birinci Qarabağ Müharibəsi veteranı (1992-2008) ehtiyatda olan polkovnik leytenantdır. Göstərdiyi qüsursuz xidmətlərinə görə "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001) yubiley medalı, "Vətənpərvərlik işində xidmətlərinə görə" medalı, Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" III dərəcəli medalı, "Cəbhə müxbiri Konstantin Simonovun xatirə medalı" ilə təltif olunmuşdur.

Hal-hazırda Patriot News.az saytının təsisçisi və baş redaktoru, Qarabağ qaziləri İctimai Birliyinin Gəncə filialının sədrinin birinci müavinidir.

Onunla söhbətimizdə bir çox məsələlərlə birlikdə həm də Milli Orduda şəxsi heyətlə iş üzrə müavinlərin və psixoloqların fəaliyyətinin mahiyyəti barədə danışdıq. Müsahibənin qısaldılmış formasını təqdim edirik.

-Ceyhun müəllim, insanlar üçün həmişə ordu mövzusu ən maraqlı söhbətlərdən biri olub. Siz orduda yüksək rütbəli zabit olmusunuz. Orduya qədəm qoymuş əsgərlər ilə işin əsas mahiyyəti nədən ibarətdir? Burada şəxsi heyətlə iş üzrə komandir müavinlərinin əsas işi nədən ibarətdir?

-Orduda şəxsi heyətlə iş üzrə müavinlərin və hərbi psixoloqların əsas vəzifəsi şəxsi heyətin mənəvi-psixoloji durumunu nəzarətdə saxlamaq, döyüş ruhunu, intizamı və birliyə sədaqət hissini yüksək səviyyədə qorumaqdan ibarətdir. Onların işi sırf inzibati deyil, həm də dərin mənəvi və ideoloji

məzmun daşıyır. Müavinlər hərbi kollektivdə sağlam mənəvi-psixoloji iqlimin formalaşmasına, şəxsi heyətin dövlətçiliyə, milli dəyərlərə və Azərbaycan Ordusunun şərəfli ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına yönəlmiş tədbirlər həyata keçirirlər.

Hərbi psixoloqlar isə fərdi və qrup səviyyəsində psixoloji dəstək göstərir, stress, döyüş gərginliyi və münaqişə hallarının qarşısını almaq üçün maarifləndirici və praktik məşğələlər təşkil edirlər. Onların fəaliyyəti həm döyüş hazırlığı, həm də şəxsi həyat balansının qorunması baxımından vacibdir.

-Mənəvi-psixoloji hazırlığın artırılması və asudə vaxtın səmərəli təşkili necə həyata keçirilir?

-Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması, hərbi intizamın möhkəmləndirilməsi və asudə vaxtın düzgün təşkili ordunun döyüş qabiliyyətinə birbaşa təsir göstərən əsas amillərdəndir.

Mədəni-kütləvi tədbirlər, musiqili proqramlar, idman yarışları və ədəbi görüşlər hərbi kollektivi birləşdirir, gərgin xidmətdən sonra psixoloji yüngüllük yaradır.

Maarifləndirici görüşlər və təlimlər döyüşçülərdə məsuliyyət hissini, birgə fəaliyyət bacarığını və ruh yüksəkliyini gücləndirir.

İntizamın möhkəmlənməsi isə həm şəxsi, həm də ümumi məsuliyyət hissini artırır, əmrlərin vaxtında və düzgün yerinə yetirilməsini təmin edir. Bütün bu istiqamətlərdə görülən tədbirlər nəticəsində hərbi kollektivlərdə qarşılıqlı etimad və yoldaşlıq münasibətləri güclənir, şəxsi heyətin döyüş tapşırıqlarına hazır olma səviyyəsi yüksəlir.

-Orduda hərbi - vətənpərvərlik tərbiyəsi hansı formalarda həyata keçirilir?

-Müasir şəraitdə Azərbaycan Ordusunun qarşısında duran əsas vəzifələrdən biri şəxsi heyətin dövlətçilik ideyalarına sarsılmaz sədaqət və Azərbaycançılıq məfkurəsi əsasında formalaşmasıdır. Bu istiqamətdə Milli qəhrəmanların həyat və döyüş yolunun öyrənilməsi, Vətən müharibəsində qazanılmış zəfərin ideoloji əsaslarının təbliği, milli-mənəvi dəyərlərin, ailə və vətən sevgisinin tərbiyə prosesinə daxil edilməsi, psixoloji sabitliyin qorunması üçün maarifləndirmə işləri xüsusi əhəmiyyət kəsb edir.

Bu sahədə əsas vəzifə gənc hərbi qulluqçuların mənəvi baxımdan daha hazırlıqlı, əqidəli, təpərli və müasir döyüş şəraitinə uyğun psixoloji dayanıqlı olması üçün sistemli metodların tətbiqini genişləndirməkdir.

-Ordunun döyüş qabiliyyətinə müsbət təsir göstərən amillər ilə yanaşı azərbaycançılıq ideyasının təbliği də az rol oynamır.

-Ordunun döyüş qabiliyyəti yalnız texniki və taktiki hazırlıqla deyil, həm də mənəvi ruhla ölçülür. Şəxsi heyət arasında vətənpərvərlik, birliyə sədaqət, qarşılıqlı hörmət və qardaşlıq ruhunun gücləndirilməsi döyüş zamanı ən mühüm psixoloji dayaq rolunu oynayır.

Azərbaycançılıq ideyası bu prosesdə birləşdirici və istiqamətverici dəyər kimi çıxış edir. Orduda xidmət edən müxtəlif millətlərin nümayəndələri Azərbaycan Respublikasının suverenliyi və bütövlüyü uğrunda bir amal ətrafında birləşir, dövlətçilik və vətənə sədaqət hisslərini daha dərindən dərk edirlər. Bu da bütövlükdə ordunun ruh yüksəkliyini və döyüş qabiliyyətini artırır, milli həmrəyliyin möhkəmlənməsinə böyük töhfə verir.

-Siz hal-hazırda Patriot News.az saytının təsisçisi və baş redaktoru, Qarabağ qaziləri İctimai Birliyinin Gəncə filialının

sədrinin birinci müavinisiniz. Bu cəmiyyətin gənclərin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində böyük rolunu bilirik. Bu haqda tez-tez sosial şəbəkələrdə olan çıxışlarınızdan və başçılıq etdiyiniz saytda gedən materiallardan haliyik. İstərdik İctimai Birliyinin Gəncə filialının işi barədə oxucular üçün geniş məlumat verəsiniz.

-Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə Filialı Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə fəaliyyət göstərən, müharibə veteranlarının, qazilərin və şəhid ailələrinin hüquq və sosial müdafiəsinə yönəlmiş ictimai təşkilatdır. Filialın əsas məqsədi müharibə iştirakçılarının vətənpərvərlik ruhunu qorumaq, dövlətçilik ideyalarını təbliğ etmək, həmçinin onların sosial, mənəvi və hüquqi problemlərinin həllinə kömək göstərməkdir.

Filialın sədri Eyvaz Hüseynovdur - o, uzun illərdir Qarabağ qazilərinin birliyinin möhkəmlənməsi və cəmiyyət həyatında fəal iştirakının təmin olunması istiqamətində fəaliyyət göstərir.

-Filialın fəaliyyəti və əsas istiqamətləri hansılardır?

-Gəncə filialı mütəmadi olaraq şəhər və region səviyyəsində sosial, mədəni və vətənpərvərlik yönümlü tədbirlər keçirir. Onların arasında xatirə və anım tədbirləri, Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş “Heydər Əliyev-Dövlətçiliyimizin memarıdır” adlı tədbir təşkil olunmuş, Eyvaz Hüseynov çıxışında Ulu Öndərin qazilərə və şəhid ailələrinə göstərdiyi qayğıdan danışmışdır. 27 sentyabr - Anım Günü münasibətilə filial üzvləri Şəhidlər Xiyabanını ziyarət etmiş, şəhidlərin xatirəsinə ehtiramla baş əymişlər. 8 Noyabr – Zəfər Günü münasibətilə şəhərdə keçirilən yürüş və tədbirlərdə filial üzvləri fəal iştirak etmişlər. Qarabağ qaziləri İctimai Birliyinin Gəncə filialının rəhbərliyi və fəal üzvləri tez-tez şəhərimizdə

təşkil olunan tədbirlərdə iştirak edir, Qarabağ qazilərinin də bu tədbirlərinə dəvət almasına və iştirakına can atır. Filial rəhbərliyi həmçinin mədəni və maarifləndirici tədbirlərə imza atır. “Qarabağdan gələn soraq” və “Qarabağ qartalları” kitablarının təqdimat mərasimi Gəncə filialının ofisində təşkil edilmişdir. Tədbirin məqsədi Vətən müharibəsində iştirak edən qəhrəmanların həyat yolunun gələcək nəsillərə çatdırılması olmuşdur.

Filialın üzvləri IV Milli Yaylaq Festivalında iştirak edərək, xalqla görüşlər keçirmiş, Qarabağ döyüşlərinin canlı şahidi kimi gənclərlə söhbətlər aparmışlar.

Filialın sosial və təşkilati fəaliyyəti də ürəkaçandır**.** Filialın ofisində qazilərin sosial problemlərinin həlli, sənədləşmə, hüquqi və psixoloji dəstək məsələləri üzrə iş aparılır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə-Daşkəsən Regional bölməsinin müdiri Həsən Məmmədov filialda olub, görülən işlərlə tanış olmuşdur.

“Qarabağ Qaziləri İctimai Birliyinin” sədri Asəf Əliyev Gəncə filialını ziyarət edərək burada yaradılmış şərait və fəaliyyətlə bağlı yüksək qiymət vermişdir.

-Filialın Gəncə şəhərinin ictimai həyatında rolunu necə qiymətləndirərdiniz?

-Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə Filialı regionun ictimai həyatında mühüm rol oynayır. Filial vətənpərvərlik və milli-mənəvi dəyərlərinin təbliğində fəallığı ilə seçilir, gənclər arasında milli kimlik və dövlətə sədaqət ruhunun gücləndirilməsinə töhfə verir, müharibə veteranları ilə cəmiyyət arasında ünsiyyət və həmrəylik körpüsü yaradır, dövlət orqanları, yerli icra hakimiyyəti və ictimai təşkilatlarla əməkdaşlıq əlaqələrini genişləndirir.



***Şəkildə: Qarabağ qaziləri İctimai Birliyinin Gəncə filialının sədri Eyvaz Hüseynovun vətənpərvər yazıçılarla görüşündən xatirə şəkili.***

Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə Filialı həm veteranların sosial müdafiəsində, həm də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində xüsusi əhəmiyyət daşıyır.

Filialın fəaliyyəti dövlətçilik ideallarına sadiqlik, şəhidlərin xatirəsinə ehtiram və qazilərin cəmiyyət həyatına fəal inteqrasiyasına xidmət edir.



***Şəkildə: Eyvaz Hüseynov və  yazıçı-jurnalist Ruhulla Zahidov. Görüşdən  xatirə şəkili.***

Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə Filialı həm veteranların sosial müdafiəsində, həm də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində xüsusi əhəmiyyət daşıyır.

Filialın fəaliyyəti dövlətçilik ideallarına sadiqlik, şəhidlərin xatirəsinə ehtiram və qazilərin cəmiyyət həyatına fəal inteqrasiyasına xidmət edir.

Sədr Eyvaz Hüseynovun rəhbərliyi altında filial Gəncə və ətraf bölgələrdə vətənpərvərlik hərəkatının aparıcı qüvvələrindən biri kimi tanınır.

# Mündəricat

Bir daha vətənpərvərlik haqqında........................................... 3
Müəllifdən..................................................................................7
İnformasiya müharibəsi nədir?...................................................9
Təhsil ocaqlarında vətənpərvərlik hisslərinin aşılanması Ən şərəfli və ülvi vəzifə.....................................................................................11
Kitabların həyatımızda rolu....................................................15
Bir daha nəşriyyat işi və çap xidməti barədə. Bu haqda nə bilirik?.......................................................................................17
Məlumat əldə etmək hüququ və informasiya azadlığının təmin edilməsi məsələləri barədə.....................................................27
Biz faşizmə niyə nifrət etməliyik? II Dünya müharibəsinin adlı və adsız azərbaycanlı qəhrəmanlarının axtarışında..................34
Uzun işin uzun əhvalatı-Biz axı niyə beləyik?.......................................................................................43
Brest qalasının azərbaycanlı qəhrəmanları – Onlar haqqında nə bilirik?!.............................................................................................51
Brest qalasının azərbaycanlı qəhrəmanlarının adları oxuculardan necə gizlədildi?.. Bu riyakarlığın erməni səbəbkarı ..........................................................................................59
Günəşli vadinin serenadası? Xeyr!.........................................................................................82
Böyük qəhrəmanlığın izi ilə............................................................................................86
Mədəniyyətimiz varlığımızdır..............................................93
Uzaq Rusiyadan kənd məktəbinə məktub-Atam İsrafil Məmmədovu belə hörmətlə andığınız üçün sizə öz minnətdarlığımı bildirirəm................................................103
Kim daha çox millətpərəstdir, Kim Qardaşyan, yoxsa, Füzuli Məmmədov?!............................................................114

Biz nə qədər vətənpərvərik?..................................................119
Həqiqət, ədalət və mədəniyyət yoxluğu- Bu çürük təfəkkürlə hara doğru gedirsiniz?...........................................................128
Ah, bu məktublar, məktublar...............................................135
Yazıçı-jurnalist bələdiyyə sədriinə niyə müraciət etdi?.........139
"Goranboylu Tofiq Əmrahovun həyat hekayəti" kitabından.............................................................................142
Bir döyüşçünün həyat hekayəsi............................................157
Snayper Baris Məsimov.......................................................164
Bədən tərbiyəsi dərslərində və sinifdənkənar məşğələlərdə vətənpərvərlik tərbiyəsi........................................................169
Cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir...........173
Vətəni sevmək - onunla bağlı yaxşı və ali nə varsa, bütün varlığı ilə sevmək deməkdir..................................................177
Yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsi...........180
Vətənə məhəbbət ən mühüm ali hissdir................................184
Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır........................................................188
Vətənpərvərlik tərbiyəsi vətəndaşların mənəvi inkişafının zəruri şərti kimi........................................................................192
Ordumuzun qəhrəman oğulları ilə fəxr edirik......................1 95